İNTİBAHIN 15 İLİ

İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri

Naxçıvanın uğurlu inkişafı Azərbaycanın uğurlu inkişafı deməkdir. Bizim müstəqilliyimizin möhkəmləndirilməsi deməkdir. Burada gedən işlər məni çox sevindirir. Mən əminəm ki, bu gözəl ənənələr gələcək illərdə də davam etdiriləcək və Naxçıvan Muxtar Respublikası həm iqtisadi inkişaf sürətinə görə, həm də infrastruktur layihələrinin səviyyəsinə görə nəinki bu regionda, hətta dünya miqyasında qabaqcıl yerlərdə olacaqdır.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Müəlliflər: Naxçıvan Dövlət Universitetinin rektoru
akademik İsa Həbibbəyli

AMEA Naxçıvan Bölməsinin sədri
akademik İsmayıl Hacıyev

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika
Komitəsinin sədri Bəxtiyar İsmayılov

1995-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, iqtisadi, sosial-mədəni həyatında baş vermiş yeniliklərdən, ictimai həyatın bütün sahələrində reallaşdırılan islahatların səmərəli nəticələrindən bəhs olunan kitaba həyata keçirilmiş möhtəşəm quruculuq işlərini əks etdirən fotoşəkillər də əlavə olunmuşdur.

"İntibahın 15 ili" kitabı muxtar respublikanın ictimai həyatı ilə maraqlananlar, elmi tədqiqat aparanlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

4700000000
053-2010

© "Əcəmi" 2010.

YENİLƏŞƏN NAXÇIVANIN MÖHTƏŞƏM HESABATI

XX əsrin doxsanıncı illərinin başlanğıcında görkəmli dövlət xadimi, böyük öndər Heydər Əliyevin taleyin hökmü ilə Naxçıvanda yaşayıb-fəaliyyət göstərməsi çətin və mürəkkəb şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılması və möhkəmləndirilməsi baxımından mühüm tarixi hadisə idi. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan miqyasındakı böyük xilaskarlıq missiyası Naxçıvandan başlamışdı. Ağır düşmən təzyiqlərinə mərdliklə sinə gərmiş, qorunub möhkəmləndirilmiş Naxçıvan Muxtar Respublikası keçən əsrin doxsanıncı illərinin əvvəllərində ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana əvəzsiz ərmağanı idi. Naxçıvandan sovet qoşunları bölmələrinin çıxarılması, regionda milli ordu hissələrinin formalaşdırılması xilaskarlıq hərəkatının ana xəttini təşkil edirdi. Ermənistan sərhəddinin cəmi üç-dörd kilometrliyində, Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikasını əlaqələndirən Sədərək-Aralıq Dilucu bölgəsində Ümid körpüsünün salınması siyasi, hərbi, diplomatik və iqtisadi baxımdan böyük hadisə idi. O zaman hələ 1921-ci ildə imzalanmış məşhur Qars müqaviləsinin yenidən beynəlxalq siyasi mühitin gündəminə gətirilməsi bölgədə sülh şəraitinin möhkəmləndirilməsinə özünün sanballı töhfəsini vermişdi. Məhz uzaqgörən böyük siyasətçi Heydər Əliyevin sədrlik etdiyi iclasda Naxçıvan Muxtar Respublikası Ali Sovetinin 17 noyabr 1990-cı il tarixli birinci sessiyasında görkəmli dövlət xadiminin təşəbbüsü ilə ölkənin dövlət rəmzləri, muxtar respublikanın adından "sovet sosialist" sözlərinin çıxarılması haqqında qəbul edilmiş tarixi qərarlar müstəqilliyə doğru atılmış qətiyyətli addımlar idi. Bundan başqa, 21 noyabr 1992-ci ildə Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının yaradılması,

böyük dövlət xadimi Heydər Əliyevin bu partiyanın sədri seçilməsi ilə geniş mənada yeni qurulmuş gənc respublikanın siyasi həyatında böyük dönüşün əsası qoyulmuşdur. Eyni zamanda, çətin blokada şəraitində görkəmli romantik şair Hüseyn Cavidin 110, Naxçıvan Dövlət Universitetinin 25 illik yubileylərinin keçirilməsi, Naxçıvandan yüz nəfər orta məktəb məzununun Türkiyədə ali təhsil almaq üçün göndərilməsi elm, təhsil və mədəniyyət sahəsində həyatın canlanmasına səbəb olmuşdu. Nəhayət, Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatların aparılması, keçmiş planlı təsərrüfat sisteminin yerində bazar iqtisadiyyatına əsaslanan özəl sektorun yaradılması ilə yeni həyata başlanılmışdır. Beləliklə, böyük öndər Heydər Əliyev hələ XX əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında cəmiyyət həyatının bütün sahələrini əhatə edən inkişafın möhkəm əsaslarını yaratmışdır. Sonralar ümumən Azərbaycanın hər yerində, o cümlədən Naxçıvanda baş verən böyük yeniləşmə və inkişaf prosesləri həmin zəmin üzərində ucalmışdır.

Bütün bunlara görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr 1995-ci il tarixli sessiyasında muxtar dövlətin başçısı seçilən Vasif Talıbovun aşağıdakı məzmunda olan ilk bəyanatı mövcud reallığı dolğun şəkildə əks etdirirdi: "**Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm**".

Bu qısa bəyanatda həm tarixin bütün sınaqlarından çıxmış Heydər Əliyevin siyasətinə dərin sədaqət, həm də böyük əzmkarlıq ifadə olunmuşdu. Sonrakı illərdəki gərgin, ardıcıl və səmərəli fəaliyyət sayəsində qazanılan uğurlu nəticələr seçilmiş yolun nə

qədər düzgün olduğunu bir daha təsdiq etdi. Bu, Heydər Əliyev siyasi kursuna münasibətdə sözlə əməlin, dərin sədaqətlə konkret işin vəhdəti baxımından canlı örnəyə çevrildi. Beləliklə, Heydər Əliyev dövlətçilik məktəbinin Naxçıvan modeli yarandı. Bu böyük dövlətçilik konsepsiyasının qətiyyətlə həyata keçirilməsi Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə inkişafdan yeniləşməyə və intibaha doğru hərəkatın başlıca hərəkətverici qüvvəsini təşkil etdi.

Böyük siyasətə gələnə qədər Vasif Talıbov çətin və mənalı bir yol keçmişdir. O, sadə və zəhmətkeş bir ailənin torpağa və insanlara sədaqətdən yoğrulmuş halal və məsuliyyətli mühitində yetişib formalaşmışdır. Atası Yusif Talıbov heç kəsin minnətini qəbul etməyib, ucalığı zəhmətdə və sədaqətdə tapmış pak mənəviyyatlı, təbii bir sadəliyi həqiqi böyüklük səviyyəsinə çatdırmış etibarlı və nüfuzlu el-oba adamı, xalq ağsaqqalı idi. Keçmiş Sovetlər İttifaqında tanınmış Sosialist Əməyi Qəhrəmanı Bahar Talıbovanın keçdiyi şərəfli ömür yolu da Vasif Talıbov üçün bir nümunə idi. Naxçıvan Dövlət Universitetində aldığı bilik və qazandığı vərdişlər əhəmiyyətli faktorlardan biri olmuşdu. Bütün bunlarla bərabər, Vasif Talıbov üçün 1991-1993-cü illərdə taleyin hökmü ilə Naxçıvanda yaşayıb-işləməli olan dünya şöhrətli görkəmli dövlət xadimi Heydər Əliyevin böyük sınaqlardan çıxmış məktəbini keçmək mükəmməl akademiya təhsili almaqdan da qat-qat üstün bir təcrübə idi. O, həyatının keşməkeşli, məsuliyyətli və mənalı bir mərhələsini yaşayan Heydər Əliyevin tərcümeyi-halının hər bir səhifəsini əsl həyat və siyasət dərsliyi kimi qəbul etmiş müstəqil ölkənin yeni tipli dövlət adamı kimi böyük siyasi mühitə qədəm qoymuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov hər şeydən əvvəl, regionda böyük quruculuq proqramını

gerçəkləşdirmişdir. Qurucu-rəhbər obrazının bütün əsas səciyyəvi xüsusiyyətləri onun simasında cəmləşmişdir. O, Azərbaycan tarixinə Naxçıvanın böyük quruculuq hərəkatının rəhbəri kimi daxil olmuşdur. Nəticədə muxtar respublikanın paytaxtı Naxçıvan şəhəri, demək olar ki, qısa müddətdə əsaslı surətdə yenidən qurulmuşdur. Qədim tarixə malik olan Naxçıvan şəhərinin əsas memarlıq üslubu saxlanılmaqla yanaşı, şəhərdə düşünülmüş şəkildə böyük yeniləşdirilmə proqramı həyata keçirilmişdir. Hazırkı Naxçıvan Şərq memarlığı zəminində ucaldılmış Avropa şəhəridir. Min illiklər ərzində qurulub tikilmiş Naxçıvan şəhərinin inkişafının Vasif Talıbov dövrü tarixlərdə izləri qalmış intibahın müasir mərhələdə böyük miqyasda tamamilə yeni səviyyəyə qaldırılması hadisəsidir. Bu, Naxçıvan şəhərinin keçdiyi çoxəsrlik inkişaf yolunda yeni tarixi epoxadır. Naxçıvan şəhəri indi Nuh əyyamından, Atabəylər dövlətindən XXI əsrə qədər keçdiyi yolda ən uca inkişaf zirvəsinə gəlib çatmışdır. Şəhərsalmada xüsusi diqqət yetirilən kərpic və şəbəkə elementləri burada Şərq memarlıq ənənələrini, şüşə və metal konstruksiyalardan istifadə isə Qərb inşaat texnologiyalarını üzvi vəhdətdə yaşatmağa xidmət edir. Müasir Naxçıvan Şərq mühitinin özünəməxsus aurasını və qərbyönlü inkişafın əsas meyllərini cəm halda təcəssüm etdirir. Naxçıvan şəhərində əsaslı şəkildə bərpa edilmiş XIX əsrə məxsus Came məscidi, görkəmli şair-dramaturq Hüseyn Cavidin şəbəkə ilə işlənmiş türbəsi, yerli travertin materialı ilə üzlənmiş binalar, Zaviyə-mədrəsə kompleksi qədimlik ənənəsinin örnəkləridir. Eyni zamanda, muxtar respublikanın paytaxtındakı Gənclik mərkəzi, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Ali Məhkəmənin çoxmərtəbəli bi-

naları, Naxçıvan Dövlət Universitetinin Elektron kitabxanası, Konservatoriyası, Diaqnostika-müalicə mərkəzi, Məhəmmədağa Şahtaxtlı adına Naxçıvan kitab evi Şərq şəhərindəki Qərb inşaat abidələridir.

Yenidən qurulmuş Təbriz mehmanxanası, yeni tikilmiş Duzdağ oteli Avropadakı ən yaxşı beşulduzlu otellərlə yanaşı dayanmağa tamamilə layiqdir. Heydər Əliyev Sarayı yeni dövr Azərbaycan memarlığının şah əsərlərindən biridir. Bu möhtəşəm sarayın inşaatında və interyerindəki Şərq və Qərb üslubunun üzvi sintezi milli memarlıq ənənələrinin yeni çalarlarla zənginləşdirilməsinə şərait yaratmışdır. Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və Xarici dillər fakültəsinin beşmərtəbəli korpusunda, tələbə sosial xidmət mərkəzində də eyni harmoniya qorunub saxlanılmışdır. Bütün bunların sayəsində qədim Naxçıvanın zəminində yeni bir şəhər-müasir Naxçıvan ucaldılmışdır. Müasir Naxçıvan isə yeni tipli Avrasiya şəhərinə çevrilmişdir. Yeniləşən müasir Naxçıvan yeni dövr Avrasiya şəhərsalma mədəniyyətinin parlaq təcəssümüdür, bu mədəniyyətin inkişafının təzə mərhələsidir. Eyni prinsiplər Naxçıvan Muxtar Respublikasının rayon mərkəzlərində – Şərur, Babək, Culfa, Ordubad, Şahbuz, Kəngərli və Sədərəkdə aparılan quruculuq proseslərində də mühafizə edilmişdir. Şəhərsalma və quruculuq prosesində qədim və zəngin ənənələrə malik olan Ordubadda Şərq ənənələri, yeni salınan Kəngərlidə Qərb elementləri, Araz kənarında yerləşən Culfada Şərq-Qərb ünsürləri ağırlıq təşkil edir. Məsafə etibarilə muxtar respublikanın mərkəzindən xeyli aralıda yerləşən rayon mərkəzləri sanki Naxçıvan şəhərinin hər birinin özünəməxsus görkəmi olan mikrorayonları təsiri bağışlayır. Araz kənarında salınmış Heydərabad müstəqil Azərbaycanın xəritəsinə Naxçıvan Muxtar Respublikası

Ali Məclisinin Sədri Vasif Talıbovun adı ilə bağlı daxil olan tarixi əlavədir. Bu, böyük öndər Heydər Əliyevin quruculuq və abadlıq siyasətinin Vasif Talıbovun baxışları və təsəvvürlərinin, yaradıcı yanaşmasının əsasında ucaldılmış abidəsidir. Beləliklə, Naxçıvan Muxtar Respublikasında şəhərsalma fərqliliklərin və bənzərliklərin vəhdətindən ibarət olan vahid bir tam, sistemli bir bütöv təəssüratı yaradır. Bu isə regionda şəhərsalmada və memarlıqda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəhbəri səviyyəsində aparılan dövlət siyasətinin uğurlu bəhrəsidir.

Coğrafi baxımdan Naxçıvan Muxtar Respublikasının yerləşdiyi ərazi, tutduğu mövqe burada regional xarici siyasətin, qonşu ölkələrlə əlaqələrin və münasibətlərin diqqət mərkəzində saxlanılmasını tələb edir. Seçilmiş düzgün siyasi xətt regionda Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə tarazlaşdırılmış, qarşılıqlı əməkdaşlığa və etimada əsaslanan sağlam münasibətlərin formalaşması ilə nəticələnir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının xarici siyasətinə öz töhfələrini verir. Həyata keçirilən ardıcıl məqsədyönlü fəaliyyət Azərbaycan xarici siyasətinin Naxçıvan məktəbini formalaşdırır. Bu gün Naxçıvan Azərbaycanın Türkiyəyə, oradan da Avropaya açılan qapısı funksiyasını layiqincə yerinə yetirir. Ali Məclisin Sədri Vasif Talıbovun 2010-cu il aprelin 26-29-da Ankaraya rəsmi səfəri və bu ölkənin dövlət başçıları ilə keçirdiyi görüşlər, apardığı danışıqlar, əldə etdiyi razılaşmalar Azərbaycan dövlətinin qardaş Türkiyə ilə münasibətlərinin bəhrələrindəndir və muxtar respublikanın ərazi bütövlüyünün daha da möhkəmləndirilməsini şərtləndirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun həm də Azərbaycan-İran Parlamentlərarası Dostluq qrupunun rəhbəri kimi bu ölkə ilə apardığı iş regionda qarşılıqlı etimadın, etibarlı

münasibətlərin qorunub saxlanılmasına və inkişaf etdirilməsinə təminat verir. Qonşu ölkələrlə viza rejiminin sadələşdirilməsi, gömrük əlaqələrinin genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması, nəqliyyatdan istifadənin asanlaşdırılması, yeni təyyarə və avtobus reyslərinin açılması, böyük körpülərin salınması və s. kimi tədbirlər məqsədyönlü regional xarici siyasətin uğurlarıdır. Naxçıvan Muxtar Respublikasının Avstriyanın Ştiriya vilayəti ilə qarşılıqlı işgüzar əlaqələri ölkənin Avropa siyasətində də muxtar dövlətin aktiv iştirakını əks etdirir. Bundan başqa, türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə toplantısının 3 oktyabr 2009-cu ildə Naxçıvanda keçirilməsi muxtar respublikanın geniş mənada Azərbaycan üçün həm də əlverişli xarici siyasət məkanına çevrildiyini nümayiş etdirir. Zirvə toplantısı formatında olan ciddi və mühüm siyasi tədbir üçün ev sahibliyi kimi məsuliyyətli və şərəfli bir vəzifəni rəsmi protokolların bütün incəliklərinə qədər həyata keçirmək bu böyük işin təşkilatçılığını öz üzərinə götürmüş şəxsin siyasi-ideoloji səviyyəsi, təşkilatçılıq məharəti barədə konkret və aydın təsəvvür yaradır. Bu böyük siyasi tədbir çərçivəsində türk dünyasının və ümumən dünyanın diqqətinin Naxçıvana yönəldilməsi, Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi, qədim türk-oğuz yurdu kimi təbliği regional siyasətin beynəlxalq miqyasını tam məntiqi ilə dolğun şəkildə əks etdirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və türkdilli dövlət başçılarının muxtar respublikanın paytaxtında imzaladığı Naxçıvan bəyannaməsinin işığında türk cümhuriyyətlərində həyata keçirilən tədbirlər qlobal miqyası ilə yanaşı, həm də blokada şəraitində olan Naxçıvanla bağlı obyektiv gerçəkliklərin dünya ictimaiyyətinə çatdırılmasına meydan açır. Bu zəmində Naxçıvan Dövlət Universitetinin və AMEA-nın Naxçıvan Böl-

məsinin qərbin və türk dünyasının elmi qurumları, nüfuzlu ali məktəbləri ilə yaratdığı əlaqələr inteqrasiya proseslərinin genişləndirilməsinə münbit şərait yaradır.

Muxtar respublikanın xarici əlaqələrində gömrük siyasəti özünəməxsus möhkəm mövqeyə malikdir. Araz çayı ətrafında yaradılmış gömrük qapıları həm xarici iqtisadi əlaqələrin, həm də daxili bazarın tənzimlənməsinə və inkişaf etdirilməsinə təminat verir. Naxçıvan Muxtar Respublikasını Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əlaqələndirən Sədərək, Culfa və Şahtaxtı gömrükxanaları üçün son illərdə ən müasir üslubda tikilmiş binalar, yaradılmış normal iş şəraiti, quraşdırılımış yeni texnologiya yüksək dünya standartlarına tam cavab verir. Muxtar respublikanın ərazisindəki gömrük qapıları həmin qapılardan keçib gələn hər bir xarici vətəndaşda Azərbaycanın bu parçasındakı inkişafın vüsəti haqqında ilkin və əsaslı təəssüratları formalaşdırır. Bu mənada Naxçıvan Muxtar Respublikasında həyata keçirilən gömrük siyasəti beynəlxalq əlaqələrin genişləndirilməsi ilə yanaşı, həm də Ali Məclis Sədrinin böyük quruculuq siyasətinin üzvi tərkib hissəsidir. Beləliklə, regional gömrük quruculuğu siyasətində xarici əlaqələrlə ölkədaxili siyasətin üzvi sintezi, möhkəm bağlılığı yaradılmışdır. Müasir tipli gömrük qapıları eyni zamanda, həm də müstəqil dövlətimizin Naxçıvandakı sərhəd qalaları və vətənpərvərlik abidələridir.

Naxçıvandakı yeniləşmə və intibahda elm, təhsil və mədəniyyətin xüsusi yeri, rolu və payı vardır. Əslində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun möhkəm qənaətlərinə görə bu sahələrdə ciddi islahatlar aparıb yeniləşməyə nail olmadan əsl intibah səviyyəsinə çatmaq mümkün deyildir. Müasir səviyyədə qurulmuş elm və təhsil regionda yeniləşmənin

əsas hərəkətverici qüvvəsi, qızıl açarı kimi qəbul olunur. Ona görə də muxtar respublikada bu istiqatəmdə dövlət səviyyəsində aparılan siyasət illərdən bəridir ki, ardıcıl və məqsədyönlü proqram şəklində dönmədən həyata keçirilir. İlk növbədə Naxçıvanın qədimliyi, minilliklərə dayanan yaşı, milli-tarixi ənənələri, buradakı ulu keçmişdən xəbər verən Azərbaycan toponimləri, arxeoloji abidələr, əsatiri yerlər, qayaüstü rəsmlər əsaslı şəkildə tədqiq edilir, öyrənilib bərpa olunur. Həmin proseslərə Naxçıvan muxtar dövlətinin başçısı Vasif Talıbovun rəhbərlik etməsi, böyük dəstək verməsi tarixi-mədəni araşdırmaların, elmi fəaliyyətinin dövlətçilik işinin üzvi tərkib hissəsinə çevrilməsi ilə nəticələnir. Bu, regionda aparılan dövlət idarəetməsi işinin yeni və mühüm bir sahəsinə çevrilmişdir. Ali Məclis Sədrinin məşhur "Əshabi-Kəhf" ziyarətgahının bərpası və qorunması tədbirləri haqqında" 1998-ci il 09 fevral tarixli, "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" 2001-ci il 26 aprel tarixli, "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" 2006-cı il 28 iyun tarixli Sərəncamları, qədim Xanəgah şəhərinin üzə çıxarılması, Köhnə qala divarlarının bərkidilməsi sahəsindəki təşəbbüslər geniş dünyagörüşlü, uzaqgörən dövlət xadiminin böyük gələcəyə hesablanmış baxışlarının ifadəsidir. Eyni zamanda, böyük demokrat ədib Cəlil Məmmədquluzadənin, milli tarixi roman məktəbinin banisi Məmməd Səid Ordubadinin, Azərbaycan romantizminin yaradıcısı Hüseyn Cavidin, neft kimyası elmi məktəbinin qurucusu Yusif Məmmədəliyevin ev muzeylərinin, Mirzə Cəlilin Nehrəmdə və Cəlilkənddəki xatirə muzeylərinin, muxtar respublika Tarix və Xalça muzeylərinin, Xan Sarayı kompleksinin əsaslı şəkildə, məxsusi zövqlə yenidən qurulması tarixlə bu gün arasında etibarlı körpü yaratmağın sı-

nanmış yoludur. Bunlar müasir mədəniyyətin tarixə yazılan faktlarıdır, yeni nəsilləri mədəniyyət körpüsündən keçirərək böyük gələcəyə doğru aparmağın konkret üsulları və yollarıdır. Digər sahələrdə olduğu kimi, bu sahədə də qəbul edilmiş qərarların vaxtında, məsuliyyətlə və yüksək səviyyədə həyata keçirilməsi tarixi yaddaşın daha da möhkəmləndirilməsinə, torpaq, yurd sevgisinin dövlət işi səviyyəsinə qaldırılmasına uğurla xidmət edir. Bunlar – Naxçıvan Muxtar Respublikasının müstəqillik dövrünün Gəmiqaya yazıları, yeni dövr Naxçıvanın böyük zəkadan doğan pozulmaz naxışlarıdır. Qısa müddət ərzində gerçəkləşdirilən bu işlər müasir həyatın gerçəklikləri, qədim Nəqşi-cahanın yeni nəqş - ləridir. Bunlar tarixi ənənələrlə regiondakı müasirliyin vəhdətidir. Bu məqamda tarixlə müasirlik arasında etibarlı, möhkəm və davamlı körpü olmaq vəzifəsini ziyalı faktorundan çox ziyalıları da böyük amallar, ümummilli ideyalar, dövlətçilik prinsipləri ətrafında cəmləşdirib səfərbər edən, istiqamət və dəstək verən dövlət xadimi faktoru həyata keçirir. Müstəqillik dövrü Azərbaycan dövlətçiliyini ölkə Prezidentinin rəhbərliyi ilə yüksək ləyaqətlə təmsil edən Vasif Talıbovun Naxçıvandakı səmərəli fəaliyyəti qədim tarixin üzə çıxarılıb yaşadılmasının, tarixə müasirlik ruhu gətirilməsinin möhtəşəm yekunu, tarixlə müasir həyat arasında möhkəm və etibarlı körpülərin salınmasının böyük nümunəsidir. İndiki nəsilləri ulu keçmişlə real gerçəkliyin və böyük gələcəyin birgə atmosferində yaşatmağı tənzimləyən regional dövlət siyasəti müstəqillik dövrünün ümummilli maraqlara söykənən dövlətçilik siyasətinin ana xətlərinin işığında daha aydın və mənalı görünür.

Müəyyən olunmuş dövlətçilik xətti istiqamətində ən müasir informasiya texnologiyalarına yiyələnmiş, çağdaş texnoloji təfəkkürə malik yeni, vətənpərvər nəslin yetişdirilib formalaşdırılması, bu

sahədə mövcud olan potensialın sürətləndirilməsi proseslərinin təşkili Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasındakı yeniləşmə hərəkatının ana xətlərindən biridir. Muxtar respublikadakı regional informasiya texnologiyaları hərəkatı cəmiyyətin daha da müasirləşdirilməsinə və inteqrasiya proseslərinin əsas daşıyıcısına çevrilmişdir. Milli dövlətçilik ideologiyası ilə yanaşı, paralel aparılan bu siyasət bütün yönləri ilə biri digərini tamamlayır. Nəticə etibarilə regionda milli-tarixi ənənələrə yiyələnmiş və müasir təfəkkürlü ziyalılar nəsli yetişib formalaşır. Proses həm eninə, həm də dərininə doğru inkişaf edir, getdikcə dərinləşir və möhkəmlənir. Bu məqsədlə ilk növbədə elm, təhsil və mədəniyyət sahəsində maddi-texniki bazanın yeniləşdirilməsi siyasəti ardıcıl olaraq həyata keçirilir. Ötən 15 ildə ucqar dağ kəndlərindən tutmuş rayon mərkəzlərində və Naxçıvan şəhərində 36024 şagird yeri olan 111 məktəbin tikilib istifadəyə verilməsi, 32350 yerlik 57 məktəbin yenidən qurulması muxtar respublikanı ölkənin məktəb tikintisi hərəkatının ön sıralarına çıxarmışdır. Ümumtəhsil məktəblərinin sürətlə kompyuterləşməsi, Naxçıvan şəhərində və rayon mərkəzlərində kompyuter təlim-tədris mərkəzlərinin, internet klublarının yaradılması elm və təhsil sahəsində böyük inkişafın və yeniləşmənin möhkəm təməlini təşkil edir. İndi Muxtar Respublikada hər 19 şagirdə bir kompyuter dəsti düşür ki, bu da Azərbaycan Respublikası üzrə olan orta göstəricidən yuxarıdır. Muxtar Respublika Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin xətti ilə "Kənd rabitəsinin inkişaf etdirilməsinin problemləri" (2007), Naxçıvan Dövlət Universitetində "Blokada şəraitində fəaliyyət göstərən regionların inkişafında informasiya texnologiyalarından istifadənin imkanları" (2008) mövzularında keçirilən beynəlxalq simpoziumlar regionda informasi-

ya-kommunikasiya vasitələrinin tətbiq edilməsi sahələrində dünya təcrübəsinin öyrənilməsinə və həyata keçirilməsinə əlverişli şərait yaradır. Naxçıvan Dövlət Universitetində ardıcıl olaraq gerçəkləşdirilən "Elektron universitet" proqramına muxtar dövlətin rəhbərliyi səviyyəsində dəstək verilməsi bu ali təhsil ocağında ölkədə analoqu olmayan elektron kitabxananın yaradılmasına, elektron lövhələr, proyektorlar, geniş ekranlarla, müasir informasiya texnologiyaları ilə təchiz olunmuş açıq dərs siniflərinin, kompyuter sinif otaqlarının təşkilinə geniş meydan açmışdır. Hazırda Naxçıvan Dövlət Universitetində İREX, Atatürk və Elektron kitabxana internet mərkəzləri, İnformasiya texnologiyaları laboratoriyaları, bütün fakültələri əhatə etməklə internetə bağlı 26 kompyuter sinfi, mərkəzi idarəetmə sistemi, Boloniya təhsil qeydiyyat mərkəzi müəllimlərin və tələbələrin istifadəsindədir. Universitetdə NATO-nun texniki dəstəyi ilə MDB və Şərqi-Avropa ölkələri içərisində birinci dəfə olaraq 108 hektarlıq ərazidə CİSCO texnologiyaları əsasında beş meqabit gücündə olan Wi-Fi kampus simsiz internet şəbəkəsinin qurulması beynəlxalq əhəmiyyət daşıyan mühüm hadisədir. Müqayisə üçün deyək ki, bu, MDB məkanında və yaxın xaricdə tam kampusu, yəni təkcə tədris korpuslarının daxilini yox, həm də 108 hektarlıq bütün ərazini əhatə edən yeganə ən müasir internet şəbəkəsidir. Aparılan düşünülmüş və məqsədyönlü dövlət siyasətinin sayəsində bu gün Naxçıvan Dövlət Universiteti geniş mənada tam internet məkanında fəaliyyət göstərir. Artıq dünya miqyaslı beynəlxalq internet məkanında xüsusi bir Naxçıvan fəzası mövcuddur. Ali dövlətçilik idealına və ümummilli məqsədlərə yönləndirmiş Naxçıvan fəzası internet məkanı virtual məkanda Naxçıvanın dünyaya açılan pəncərəsidir. Dünya elm və texnologiyasının ən qiymətli informasiyaları Naxçıvan virtual fəzasından keçərək

regionda elmin, idarəetmənin, təhsilin, texnologiyanın daha da inkişaf etdirilməsinə kömək edir. Naxçıvan Dövlət Universitetində 2005-ci ildən etibarən ardıcıl olaraq beş dəfə keçirilmiş "Elektron Naxçıvan" beynəlxalq miqyaslı video konfranslarda və prezentasiyalarda, simpoziumlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı və çıxışları geniş mənada muxtar respublikada elektron vasitələrin, informasiya texnologiyalarının, yeni tipli kommunikasiya vasitələrinin tətbiqi imkanlarının ildən-ilə genişləndirilməsinə təkan verir. Beynəlxalq simpoziumun fəzasını aşan "Elektron Naxçıvan" hərəkatı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin virtual məkanda elektron imzası kimi nəzərə çarpır. Həmin münbit zəmində məqsədyönlü şəkildə inkişaf etdirilən Naxçıvan Dövlət Universiteti bu gün möhkəm milli əsaslara malik olan, dövlətçilik yönlü və Avropaya inteqrasiya edilmiş müasir tipli ali məktəbə çevrilmişdir. Ali təhsilin yeniləşdirilməsi ilə bir sırada aparılan geniş miqyaslı tədqiqat işləri Naxçıvan Dövlət Universitetinin həm də ciddi bir elmi məktəb səviyyəsində inkişaf etməsinə, tanınmasına şərait yaradır. Bütövlükdə Naxçıvan Dövlət Universitetinin geniş kampusunda salınan Universitet Şəhərciyi ali təhsil quruculuğunun Vasif Talıbov modelinin konkret əməli təcəssümüdür.

Bununla yanaşı, müstəqillik dövründə elmi-tədqiqat işlərinin miqyasını daha da genişləndirmək və funksiyasını artırmaq üçün regiondakı akademik qurumların fəaliyyətinin tamamilə yenidən qurulması zərurəti meydana çıxmışdır. Muxtar respublikada 1972-ci ildən mövcud olan Naxçıvan Regional Elmi Mərkəzinin mövcud strukturunun və işinin yeni dövrün tələblərinə cavab verə bilmədiyi nəzərə alınmaqla burada Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması haqqında təşəbbüsün qaldırılması

regionda elmin inkişafında yeni mərhələnin başlanmasına səbəb olmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə yaradılmış AMEA-nın Naxçıvan Bölməsi ölkə elminin üfüqlərinin, əhatə dairəsinin genişləndirilməsində, Naxçıvandakı mövcud elmi potensialdan istifadənin səmərəliliyinin artırılmasında mühüm rola malikdir. Qısa müddətdə AMEA-nın Naxçıvan Bölməsi üçün elmi-tədqiqat institutlarından bir neçəsinin yerləşdiyi ayrı-ayrı çoxmərtəbəli binaların tikilib istifadəyə verilməsi, ən müasir avadanlıqlarla təchiz edilməsi, nümunəvi iş şəraitinin yaradılması Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin görkəmli dövlət xadimi Heydər Əliyevin imzaladığı sərəncamın, qəbul etdiyi qərarların dönmədən həyata keçirilməsinə bəslədiyi ciddi, məsuliyyətli münasibətin konkret nəticəsidir. Bu gün AMEA-nın Naxçıvan Bölməsi maddi-texniki imkanlarına görə postsovet məkanında mövcud olan ən yaxşı təchiz edilmiş akademiyalarla müqayisə oluna bilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi siyasi xəttə uyğun olaraq muxtar respublika Ali Məclisinin həyata keçirdiyi məqsədyönlü elmi siyasət sayəsində AMEA-nın Naxçıvan Bölməsi qısa müddətdə regionun qədim tarixinin, ədəbi-mədəni mühitinin, folkloru, etnoqrafiyası, arxeologiyası və toponimikasının, təbii sərvətlərinin və biomüxtəlifliyinin aktual məsələlərinin öyrənilməsi istiqamətində mühüm nəticələr əldə edə bilmişdir. Demək olar ki, hər il Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin elmi-tədqiqat institutlarının və Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyəti ilə birlikdə keçirilən ənənəvi Naxçıvan simpoziumları diyarın qədim tarixi və mədəniyyətinin, flora və faunasının araşdırılmasına sanballı töhfələr verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Gə-

miqaya abidəsinin öyrənilməsi ilə əlaqədar sərəncamı əsasında elmi mühitdə başlayan Gəmiqaya hərəkatı Azərbaycan elminin qiymətli əlavələrlə, əhəmiyyətli materiallarla zənginləşdirilməsi, nadir tapıntıların üzə çıxarılması ilə nəticələnmişdir. Son illərdə Naxçıvanda formalaşan gəmiqayaşünaslıq elmi fondu ümumən Azərbaycan elminin qiymətli sərvətidir. Artıq Naxçıvanda bu istiqamətdə meydana çıxan tədqiqatlardan müstəqil bir kitabxana yaratmaq mümkündür. Eyni zamanda, Naxçıvan teatrının 125, Naxçıvan Dövlət Universitetinin 40, filosof-şair Hüseyn Cavidin 125, böyük demokrat və görkəmli yazıçı Cəlil Məmmədquluzadənin 140, maarifçi şair və pedaqoq Məhəmməd Tağı Sidqinin 150, məşhur publisist və ictimai xadim Məhəmmədağa Şahtaxtlının 160, dünya şöhrətli alim Yusif Məmmədəliyevin 100 illik yubileylərinin Naxçıvan Muxtar Respublikasında qeyd olunması haqqında mühüm tarixi əhəmiyyətə malik olan sərəncamların işığında aparılan səmərəli axtarışlar, aşkar edilən yeni ədəbi-tarixi materiallar, nəşr edilən kitablar və məqalələr, keçirilən konfranslar elmimizin yaddaqalan hadisələridir. Bundan başqa, birbaşa Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə hazırlanan və nəşr edilən ikicildlik "Naxçıvan ensiklopediyası", "Naxçıvanın tarixi atlası", Azərbaycan və ingilis dillərində çıxan "Naxçıvan abidələri" ensiklopediyası, muxtar respublikanın ikicildlik "Qırmızı kitab"ı Azərbaycan elminin Naxçıvan məktəbinin azərbaycanşünaslığa qiymətli töhfələri sayıla bilər. Elmdə əldə edilmiş mühüm nəticələr isə həm də bədnam Ermənistanın Naxçıvana qarşı haqsız ərazi iddialarına dəlilli-sübutlu cavabların ifadəsidir. Bunlar, eyni zamanda, Azərbaycan elminin Naxçıvan qvardiyasının Ermənistana ünvanlanmış notasıdır. Əldə olunan nəticələrin, yekun qənaətlərin elmi əhəmiyyəti ilə bir sırada həm də regionda möhkəm, real

əsasa malik olan azərbaycançılığın təsdiqinə, milli-mənəvi dəyərlərin möhkəmləndirilməsinə yönləndirilməsi müstəqillik dövründə vətənpərvər milli ziyalılığın formalaşmasında başlıca rol oynayır. Muxtar respublikada Ali Məclisin müvafiq sərəncamları əsasında keçirilmiş "Uluslararası qaynaqlarda Naxçıvan" (1996), "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri" (2002), "Naxçıvan: tarixi gerçəklik, müasir dövr və inkişaf perspektivləri" (2006), "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan" (2009) beynəlxalq simpoziumları dünya elmi ictimaiyyətinin Azərbaycan elminin Naxçıvanda qazanılan nailiyyətləri ilə yaxından, əyani surətdə tanış olmalarına şərait yaratmışdır. Eyni zamanda, Naxçıvanda yaşayan elm adamlarının dünyanın müxtəlif ölkələrində keçirilən beynəlxalq elmi tədbirlərdə təmsil olunmalarına dəstək verilməsi regionda formalaşan elmi potensialın inkişafına müsbət təsir göstərir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin "Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaq" adlandırdığı Naxçıvan diyarının zəngin mədəniyyətinin inkişaf etdirilməsi sahəsində də böyük proqramlar həyata keçirilməkdədir. Son on beş ildə Naxçıvan Muxtar Respublikasında 272 mədəniyyət müəssisəsinin tikilib istifadəyə verilməsi və ya əsaslı şəkildə yenidən qurulması regionda mədəniyyətin inkişafına real təminat yaratmışdır.

Əsaslı şəkildə yenidən qurulan Naxçıvan teatrı Azərbaycan teatr mədəniyyətinin mühüm qollarından birini təşkil edir. Naxçıvan Kukla teatrının, yeni təşkil olunmuş Naxçıvan Uşaq teatrının və Uşaq filarmoniyasının səmərəli fəaliyyətləri bölgədə milli mədəniyyətin müxtəlif növlərinin tərəqqisinə imkan yaratmaqla bərabər, burada ölkəmizin yeni nəslinin milli və dünyəvi dəyərlər əsasında tərbiyə olunmasına da kömək edir. Naxçıvan Dövlət Filarmoniyasının Kamera və xalq çalğı alətləri orkestrlərinin təşkili,

Şərur Yallı Rəqs Ansamblının fəaliyyət dairəsinin genişləndirilməsi, regionlardakı xalq teatrlarının, özfəaliyyət kollektivlərinin canlandırılması mədəni mühitin səviyyəsinin yüksəlməsinə rəvac verir. Naxçıvan Dövlət Universitetinin Tələbə teatr studiyasında hazırlanan Cəlil Məmmədquluzadənin "Ölülər", "Anamın kitabı" tamaşaları, Tələbə opera studiyası üzvlərinin səhnəyə çıxardıqları Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettasının uğurlu Türkiyə, Rusiya və Gürcüstan qastrolları, universitet televiziyasının efir məkanına çıxması regionda yeni mədəniyyətin daşıyıcılarının yetişib formalaşmasının real təcəssümüdür. Naxçıvan Muxtar Respublikasının incəsənət ustalarının Türkmənistanda keçirilən Azərbaycan mədəniyyəti günlərində və Naxçıvan Muxtar Respublikasının 85 illiyi ilə əlaqədar Moskva şəhərindəki konsertdə uğurlu çıxışları artıq regionda peşəkar, professional musiqi kollektivlərinin formalaşdığını nümayiş etdirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 9 fevral 2009-cu il tarixli Sərəncamı ilə muxtar respublikada xalq yaradıcılığının ayrı-ayrı sahələrinin dirçəldilməsi diqqət mərkəzinə çəkilmişdir. Unudulmaqda olan tikmə, döymə, toxuma, oyma sənəti sahələrinə yeni həyat bəxş edilmiş, milli mətbəxin ön mövqeyə çıxarılması təmin olunmuş, Kulinariya Mərkəzi yaradılmışdır.

Regionda milli və bəşəri dəyərlərin vəhdətdə yaşadılması baxımından Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" 28 iyun 2006-cı il tarixli Sərəncamı əsasında həyata keçirilən tədbirlər böyük əhəmiyyətə malikdir. Tarixi qaynaqlardan əldə edilmiş məlumatlara və Naxçıvanın çoxəsrlik memarlıq ənənələrinə istinad edilməklə bərpa edilib 2008-ci ildə ucaldılmış Nuh türbəsi həm də Naxçıvan diyarının böyük sivili-

zasiyanın beşiyi olduğunu bir daha yada salır. Ordubad rayonunun dağlıq ərazisindəki Nəsirvaz kəndindən Kiçik Qafqaz dağlarının ətəklərinə doğru Gəmiqayaya, Qapıcıq yüksəkliyinə çəkilən yol dünya tufanından sonra formalaşan ilkin sivilizasiyaya açılan qapı təsiri bağışlayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun dəstəyi ilə təşkil olunan Gəmiqaya ekspedisiyaları ilə uzun illər ərzində şəraitin çətinliyinə görə tək-tək elm adamlarının gedib çıxa bildiyi Gəmiqaya geniş miqyasda alimlər heyətinin üzünə açılmışdır. Gəmiqayanın yaxasındakı dəniz səviyyəsindən təxminən üç min metr yüksəklikdə yerləşən Nəbi yurdunda keçirilən beynəlxalq simpoziumda muxtar respublika rəhbərinin iştirakı və çıxışı dövlət adamının elmin, ziyalı fikrinin, milli düşüncənin Gəmiqaya zirvəsinə qaldırılması idealının konkret ifadəsi idi. Nəbi yurdunda 2000-ci illərin əvvəllərində elmi ekspedisiyalarda və beynəlxalq simpoziumda iştirak edən Azərbaycan alimləri və xarici ölkələrdən dəvət olunmuş tanınmış elm adamları üçün salınmış çadır şəhərciyi Nuh peyğəmbərdən və onunla birlikdə ayağı torpağa dəyən ailə üzvlərindən sonrakı minilliklər ərzində yaradılmış ilk insan məskəni idi. Məhz bu səviyyədə yaradılan şəraitdən sonra Naxçıvanda yaşayıb-çalışan elm adamlarının Gəmiqayanın sirlərinə həsr olunmuş kitablarının və çoxsaylı məqalələrinin meydana çıxması Azərbaycan elmində həmin sahədə olan böyük boşluğu doldurmağa, vaxtilə başlanmış ilkin tədqiqatları zənginləşdirməyə və tamamlamağa xidmət edir. Xüsusən, AMEA-nın müxbir üzvləri Vəli Əliyevin, Qadir Qədirzadənin, Vəli Baxşəliyevin və başqalarının yeni dövrdə sanballı elmi əsərlərinin yaranması ulu əcdadlarımızın sivilizasiyanın başlanğıc dövründən etibarən burada məskən saldıqlarını yəqinləşdirir. AMEA-nın müxbir üzvü Qadir Qədirzadənin "Nuh peyğəmbər, dünya tufanı və Nax -

çıvan" adlı monoqrafiyası ilə Gəmiqaya dünyasına beynəlxalq müstəvidə və kompleks şəkildə yanaşmağın möhkəm bünövrəsi qoyulmuşdur. Nəticə etibarilə hazırkı mərhələdə Naxçıvan dünya Nuhşünaslıq elminin Azərbaycandakı mərkəzinə çevrilməkdədir. Bütövlükdə Gəmiqaya tədqiqatları ilə Naxçıvanda məskunlaşmanın da, əkinçiliyin və duzçıxarmanın da, şəhərsalmanın da sirləri açılmağa başlanmışdır. Bu qənaətlər isə elm aləmi qədər də, hətta bir az da artıq müstəqil dövlətçilik baxımından haqsız iddialarla üzləşən qədim diyar üçün maraqlı, cəlbedici və əhəmiyyətli məsələlərdir. Beləliklə, Gəmiqaya dünyası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun müəllifi, baş memarı olduğu Naxçıvanın tarixi, mədəniyyəti və inkişafı epopeyasının şah damarıdır.

Aparılan məqsədyönlü dövlət siyasəti sayəsində Naxçıvan Muxtar Respublikasında müasir sənayeləşmənin və özəl sektorun da inkişaf etdirilməsinə nail olunmuşdur. Belə ki, 1995-ci ildən 2009-cu ilin sonunadək muxtar respublikada yeni yaradılmış sənaye müəssisələrinin sayı 360-a çatdırılmışdır. Bu, Naxçıvan Muxtar Respublikasının yaradıldığı 1924-cü ildən 1995-ci ilə qədərki sənaye müəssisələrinin sayından 12 dəfə çoxdur. Yeni inşa olunan və ya istifadəyə verilən sənaye obyektlərinin memarlıq üslubunun, xarici görünüşünün də tərtibatına xüsusi diqqət yetirilmişdir. Nəticədə şəhərkənarı ərazilərdə xüsusi zövqlə tikilmiş sənaye obyektləri Naxçıvan şəhərinin memarlıq üslubunu, şəhərsalmadakı yeniləşmə meyllərini tamamlayır. Bir çox müasir tipli sənaye obyektlərinin binaları genişlənməkdə olan Naxçıvan şəhərinin üzvi tərkib hissəsi, inşaat texnologiyasının yeni mərhələsinin nümunəsi səviyyəsində diqqəti çəkir. Naxçıvanda sənaye böyük şəhərin bir parçasıdır. Naxçıvan Avtomobil zavodunda xüsusi

modeldə istehsal edilmiş yük və minik maşınları, daha çox isə fərqli nəqliyyat ornamentləri ilə nişanlanmış taksilər rəqabətdə digər buraxılışlardan olan avtomobilləri sıxışdırıb çıxarmaq gücünə malikdir. Naxçıvan-Sədərək avtomobil yolu Avropa yollarındakı otoban magistrallarından qətiyyən geri qalmır. İran İslam Respublikasının Poldəşt məntəqəsi ilə Kəngərli rayonundakı Şahtaxtı kəndi arasında Araz çayı üzərində salınmış möhtəşəm körpü hər iki sahilə yaraşıq gətirir. Muxtar respublikada sənayeləşmə proseslərində daxili bazarın tələbatının nəzərə alınması ilə yanaşı, ixrac yönlü məhsulların istehsalına da həmişə diqqət yetirilmişdir. Naxçıvan Avtomobil zavodu, Badamlı mineral su zavodu, Duz mədəni, Kərpic zavodu, Mebel fabriki, "Gəmiqaya" və "Cahan" şirkətlər qrupları, Travertin zavodu və sair kimi müəssisələrdə istehsal olunan 237 adda məhsullar dünya bazarının tələblərinə cavab verir və bunlardan bir çoxunun yaxın-uzaq ölkələrdə bazarları mövcuddur. Aqrar sahədə baş verən dəyişikliklərin tənzimlənməsi və idarə olunması ilə regionda yeni təsərrüfat münasibətləri şəraitində kənd təsərrüfatı sahələrinin dirçəldilməsində mühüm nailiyyətlər qazanılmış, əkinçilik mədəniyyəti inkişaf etdirilmişdir. Aparılan məqsədyönlü siyasət nəticəsində Naxçıvan Muxtar Respublikası bir çox kənd təsərrüfatı sahələri üzrə özünün tələbatını ödəmək imkanlarına malikdir.

Bütün bunlar, hər şeydən əvvəl, ölkəmizdə ümummilli liderimiz, görkəmli dövlət xadimi Heydər Əliyev siyasi kursunun tənəsidir. Eyni zamanda, Naxçıvan Muxtar Respulikasında inki - şafdan intibaha qədər keçilən məsuliyyətli və şərəfli yol Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvəffəqiyyətlə həyata keçirdiyi regionların inkişafı üzrə Dövlət proqramı sahəsində qazanılan nailiyyətlərin üzvi tərkib hissəsidir. Naxçıvan diyarındakı

hərtərəfli sürətli inkişaf muxtar respublika Ali Məclisinin Sədri Vasif Talıbovun ardıcıl və yorulmaz fəaliyyətinin, məqsədyönlü və qətiyyətli mövqeyinin, fədakar işinin konkret və uğurlu nəticəsidir. Vasif Talıbov kimi böyük təşkilatçılıq qabiliyyətinə malik olan dövlət xadiminin yetişib formalaşması Heydər Əliyev dövlətçilik məktəbinin, geniş mənada müstəqillik dövrü Azərbaycan dövlətçiliyinin nailiyyətidir. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun böyük zəhməti, xidmətləri ölkə rəhbərliyi tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. Hələ 14 oktyabr 1999-cu ildə, Naxçıvan Muxtar Respublikasında yeniləşmə və inkişafın ilkin nəticələri nəzərə çarpdığı dövrdə Azərbaycan Respublikasının rəhbəri, görkəmli dövlət xadimi Heydər Əliyevin Ali Məclisdə keçirilən görüş zamanı dediyi aşağıdakı sözlər Vasif Talıbovun əsl dövlət adamı kimi böyük potensiala malik olduğunu nümayiş etdirirdi: **"Mən ümumiyyətlə demək istəyirəm ki, Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxilən bir az fikirləşirdim ki, gəncliyinə görə, bəlkə də, ağır, çətin olar. Ancaq o, sübut etdi ki, vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər görə bilər".**

Hələ 40 yaşı tamam olmamış Vasif Talıbovun fəaliyyətinə verilən bu yüksək tarixi qiyməti zaman dəfələrlə təsdiq etdi. Bu təsdiqnamələrin sırasında Naxçıvanda geniş quruculuq hərəkatının böyük sürətlə davam etdirilməsi, möhkəm və etibarlı ordu quruculuğunun uğurla həyata keçirilməsi, sosial-iqtisadi gedişatın real nəticələr verməsi, muxtar respublikanın başdan-başa qazlaşdırılması, enerji böhranının aradan qaldırılması səviyyəsində ciddi problemlərin uğurlu həlli kimi hadisələr dayanır. Sözlə işin, əməllə əqidənin

vəhdəti həmişə Vasif Talıbovun böyük uğurlarının əsasını təşkil etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qiymətlərində də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun əqidə bütövlüyü ilə böyük əməllərinin vəhdəti xüsusi olaraq nəzərə çarpdırılır. Möhtərəm Prezidentimizin 21 dekabr 2006-cı ildə Naxçıvana səfəri zamanı dedikləri bu amilin daim diqqət mərkəzində dayandığını göstərir: **"Mən çox məmnunam ki, Naxçıvan Muxtar Respublikasının rəhbərliyi, Vasif Talıbov Heydər Əliyev siyasətini burada uğurla icra edir, onu davam etdirir və Naxçıvanın möhkəmlənməsinə öz töhfəsini verir".**

Ölkə Prezidentinin çıxışlarında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun xarakterini tamamlayan Vətən və torpaq sevgisi amilləri də öz əksini tapmışdır: **"Siz Nax - çıvanda işlərin düzgün qurulması, Naxçıvanın rəhbərliyinin, Ali Məclisin Sədri Vasif Talıbovun fəaliyyəti nəticəsində bütün bu uğurlara nail olmusunuz. Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu – abadlıq, quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Nax - çıvanda var və məni çox sevindirir".**

4 avqust 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi tədbirlərində Azərbaycan Respublikası Prezidenti,

möhtərəm İlham Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çoxillik və yorulmaz fəaliyyəti, dövlət quruculuğu sahəsindəki böyük xidmətləri haqqında fikirləri çəkilmiş möhtəşəm zəhmətin ümumiləşmiş ifadəsidir: **"Mən hər il Naxçıvanda oluram və hər dəfə Naxçıvanda gördüyüm dəyişikliklər məni ürəkdən sevindirir, çox sevindirir. Naxçıvan ən müasir şəhərə çevrilibdir. Naxçıvan Muxtar Respublikasında ən müasir infra - struktur yaradılır, sosial obyektlərin tikintisi geniş vüsət alıbdır... Bütün bunlar muxtar respublikanın iqtisadi və sənaye potensialını gücləndirir... Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla fəxr edə bilər. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvanın rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm".**

Nəhayət, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 yanvar 2010-cu il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Şöhrət" ordeni ilə təltif edilməsi ilə böyük zəhmətdən, yorulmaz və səmərəli fəaliyyətdən, dərin sədaqətdən yoğrulmuş gerçək şöhrət dövlət səviyyəsində haqlı və halal qiymətini almışdır.

Göründüyü kimi, tələbkarlıq, prinsipiallıq, yorulmaz səmərəli fəaliyyət, əqidə bütövlüyü, qəti siyasi mövqe, dərin sədaqət və vətənpərvərlik Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun siyasi portretinin ana xətlərini təşkil edir. Bütün bunlar siyasi şəxsiyyətin bütövlüyündə və ucalığında üzvi surətdə ümumiləşir.

Hərtərəfli surətdə inkişaf etdirilmiş, əsaslı şəkildə yenidən qurulmuş, tikilib ucaldılmış, düşmən sərhəddində alınmaz qalaya çevrilmiş müasir Naxçıvan Ali Məclisin Sədri Vasif Talıbovun

Azərbaycan dövləti və xalqı qarşısındakı layiqli hesabatıdır. Həm də 15 illik dövlət quruculuğu prosesinin və yarım əsrlik mənalı ömrün qiymətli yekunu olan bu möhtəşəm hesabat Naxçıvanın beş min illik tarixində yeni tarixi mərhələnin qiymətli salnaməsidir. Eyni zamanda, böyük ömrün tarixə iz salan mənalı hesabatı müasir Naxçıvanın timsalında çətin şəraitdə intibah yaratmağın mümkünlüyünün konkret və əyani göstəricisidir. Bu mərhələ qədim Naxçıvanın yeni dövr tarixinin çoxcildlik kitabıdır.

İnkişaf və yeniləşmə istiqamətində keçilmiş şərəfli yolun böyük dərsləri, dövlətçilik, quruculuq, idarəetmə sahəsində toplanmış zəngin təcrübə Azərbaycanın bu qədim və həmişəcavan diyarının sabahkı üfüqlərinə də gur işıq salır.

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ MİSİLSİZ İNKİŞAF YOLU

İctimai-siyasi həyat. XX əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəlləri ölkəmizin ictimai-siyasi həyatı üçün çətin və mürəkkəb bir dövr kimi xarakterizə olunur. Həmin dövrdə SSRİ-də yaranmış şəraitdən istifadə edən erməni millətçiləri DQMV-ni Ermənistana birləşdirmək üçün qeyri-qanuni aksiyalara başladılar. SSRİ rəhbərliyinin ikili siyasəti hadisələri qızışdırdı, ermənilər bundan istifadə edərək daha da fəallaşdılar. Bakıda, Sumqayıtda, Gəncədə, Naxçıvanda və respublikanın bir sıra şəhərlərində etiraz mitinqləri keçirildi.

Qarabağ münaqişəsi, Ermənistandan vəhşi üsullarla qovulan azərbaycanlıların Naxçıvana axını, Naxçıvanın sərhəd kəndlərinə silahlı basqınlar əhalini fəal mübarizəyə qaldırdı. Daşnak təcavüzünün gücləndiyi bir şəraitdə satqın ölkə rəhbərliyinin cinayətkarcasına fəaliyyətsizliyi minlərlə naxçıvanlını küçələrə, meydanlara çıxardı. Onlar Sovet imperiyasına, onun muxtar respublikadakı siyasi dayaqlarına qarşı da mübarizə aparırdılar. Muxtar respublikanın vilayət, şəhər və rayon partiya komitələrinə qarşı etiraz mitinqləri və yürüşləri keçirildi. 1988-89-cu illərdə Naxçıvan şəhərində, Ordubad, Culfa və Şərur rayonlarında çoxminlik mitinqlər oldu. Ermənilər mütəmadi olaraq Naxçıvanın sərhəd kəndlərinə silahlı hücumlar edir, Naxçıvana gələn qatarların yolunu kəsirdilər. Muxtar respublika Ermənistan tərəfindən blokadaya alınmışdı. Erməni daşnakları Naxçıvan iddialarını açıq bəyan edirdilər. Şərur rayonunun Kərki kəndinin Sovet ordusunun köməyilə işğalı vəziyyəti daha da gərginləşdirdi.

Naxçıvanın ərazi bütövlüyünün pozulması, ermənilərin Naxçıvan MSSR-ə bütün sərhəd boyunca silahlı hücum etməsi,

əhalinin həyatının təhlükə qarşısında qalması, bunlarla bağlı ittifaq orqanlarının tədbir görməməsi Naxçıvan əhalisini ən radikal addımlar atmağa məcbur etdi. 19 yanvar 1990-cı ildə Naxçıvanda xalqın tələbi və təzyiqi ilə Naxçıvan MSSR Ali Sovetinin növbədənkənar sessiyası Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etməsi haqqında qərar qəbul etdi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşayıb fəaliyyət göstərməsi Naxçıvanı gözlənilən bəlalardan xilas etdi. Ulu öndərin rəhbərliyi ilə milli dövlətçilik ənənəsinin bərpası istiqamətində addımların atılması, Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi ilə əlaqədar konkret tədbirlərin görülməsi, sovet qoşunları bölmələrinin muxtar respublika ərazisindən çıxarılması, regionda milli ordu hissələrinin yaradılması, iqtisadi islahatların aparılması, özəl sektorun formalaşdırılması, İran və Türkiyə ilə zəruri əlaqələrin yaradılması kimi taleyüklü məsələlərin həlli Naxçıvanı xilas etdi. Bir sözlə, Heydər Əliyevin Naxçıvanın təhlükəsizliyi və xilası ilə bağlı həyata keçirdiyi tədbirlər muxtar respublikanın bütün sahələrini əhatə edən inkişafın möhkəm əsaslarını yaratdı. Bu əsaslar sonrakı illərdə daha da inkişaf etdirildi.

1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında Vasif Talıbovun Ali Məclisin sədri seçilməsi ilə Naxçıvanın gələcək uğurlu inkişafının əsası qoyuldu. Vasif Talıbov buna qədər Naxçıvan Muxtar Respublikası Baş nazirinin xarici iqtisadi əlaqələr üzrə birinci müavini işləmiş, özünü bacarıqlı və istedadlı dövlət adamı kimi göstərmiş, Heydər Əliyev dövlətçilik məktəbində yüksək səviyyədə təcrübə qazanmışdı. O, Naxçıvan Muxtar Respublikasının problemlərini aydın görür

və onun həlli yollarını bilirdi. Vasif Talıbovun rəhbərliyi dövründə Heydər Əliyev siyasətinə dərin sədaqəti, sözlə əməlin vəhdəti, işə bələdliyi, qətiyyətli mövqeyi, yorulmaz fəaliyyəti ilə uğurları asanlaşdırmış, muxtar respublikanın hərtərəfli inkişafına nail olmuş, özünü görkəmli dövlət xadimi kimi təsdiq etmiş, ölkəmizdə çox böyük hörmət və nüfuz qazanmışdır.

1995-ci ildən ötən qısa müddət ərzində muxtar respublikanın həyatının bütün sahələrində əsl canlanma müşahidə olunmuş, ictimai-siyasi mühit sağlamlaşdırılmışdır.

Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi mühitində baş verən dəyişikliklər ilk növbədə görkəmli dövlət xadimi Heydər Əliyevin o zaman Azərbaycanda həyata keçirdiyi islahatların tərkib hissəsi və məntiqi davamı olmaqla yanaşı, onun fəaliyyətinin Naxçıvan dövründə (1990-1993-cü illərdə) işləyib hazırladığı muxtar respublikanın uzun müddətə hesablanmış inkişaf proqramına dönmədən əməl edilməsinin, onun icrasının uğurla həyata keçirilməsinin nəticəsi idi.

Ötən əsrin 90-cı illərinin ortalarında Azərbaycan keyfiyyətçə yeni bir mərhələyə daxil oldu, dövlət quruculuğunda mühüm işlərə başlamaq üçün ictimai-siyasi sabitlik yarandı. Azərbaycan Respublikasının dövlət quruculuğunun qanuni, hüquqi əsaslarını yaratmaq üçün 1995-ci il noyabr ayının 12-də müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyası referendum yolu ilə qəbul olundu. Azərbaycan Respublikası Konstitusiyası Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində Muxtar Dövlət statusu verdi. Naxçıvanın coğrafi xüsusiyyətləri, Azərbaycan Respublikasının əsas hissəsi ilə onun ümumi sərhəddinin olmaması bu bölgə üçün muxtar idarəetmə sisteminin təsis olunmasını tələb edirdi. Naxçıvan Muxtar Respublikasında dövlət idarəetməsi

parlament hakimiyyəti ilə həyata keçirilir. Ali Məclisin Sədri muxtar respublikanın Ali vəzifəli şəxsidir. İcra Hakimiyyəti Ali Məclis tərəfindən formalaşdırılır və onun qarşısında məsuliyyət daşıyır. Muxtariyyətin mövcud olduğu illər ərzində Naxçıvan heç zaman belə yüksək statusa malik olmayıb.

Azərbaycan Respublikasının yeni Konstitusiyasının VIII fəsli Naxçıvan Muxtar Respublikasına həsr edilib. Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 23 dekabr 1995-ci il tarixli qərarı ilə yeni konstitusiya layihəsini hazırlayan komissiya yaradıldı. Komissiya muxtar respublikanın yeni konstitusiya layihəsini hazırlayaraq Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyaya təqdim etdi. Həmin layihə komissiyada dörd dəfə müzakirə edildi. Konstitusiya layihəsi üzərində üç ilə yaxın ən müxtəlif səviyyələrdə müzakirələr aparıldı. 1998-ci il yanvarın 15-də Azərbaycan Respublikası Konstitusiya komissiyasının iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxışında yeni Konstitusiya layihəsində muxtar respublikanın statusu, hakimiyyət bölgüsü, mülkiyyət formaları, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin səlahiyyətləri və digər məsələlər barədə məlumat vermiş, əvvəlki konstitusiya ilə müqayisələr apararaq qeyd etmişdir ki, əvvəlki konstitusiyada (1978) Ali Sovetin sədrinin səlahiyyəti geniş olmadığından Xalq Cəbhəsi hakimiyyəti dövründə Ali Məclisin Sədrinin razılığı olmadan adi yanğınsöndüreni sərhəd dəstəsinin komandiri, sürücünü diviziya komandiri, inzibati orqanlarda heç bir təcrübəsi olmayan şəxsi muxtar respublikanın baş prokuroru, polis orqanlarında işləməyəni daxili işlər naziri təyin etmişdilər. Naxçıvanda sakitlik və sabitlik olduğu halda, gərginlik yaratmaq üçün yersiz olaraq fövqəladə vəziyyət

elan edir, komendantlar və prezidentin Naxçıvan Muxtar Respublikası üzrə səlahiyyətli nümayəndəsini təyin edir, hətta siyasi qısqanclıq edib Naxçıvanın statusunu da ləğv etmək həvəsinə düşürdülər. Bu faktlar tariximizin çox acı səhifələridir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Milli Məclisdə təsdiq edilən zaman bəzi müxalif qüvvələr Naxçıvanın muxtariyyəti, Naxçıvan Muxtar Respublikasının Milli Bankının sədrinin muxtar respublika rəhbərliyi tərəfindən təyin edilməsinin əleyhinə olduğunu bildirdilər. Ali Məclisin Sədri bunlara da aydınlıq gətirdi və tutarlı arqumentlərlə cavab verdi: "**Mən gözləməzdim ki, bu məsələ ziddiyyətli çıxışlara səbəb ola bilər. Naxçıvan həmişə Azərbaycan qanunları ilə işləyir və o heç vaxt özünü Azərbaycandan ayrı saymır. Naxçıvan Azərbaycanın ayrılmaz tərkib hissəsidir... Milli Bankın sədrinin muxtar respublika rəhbərliyi tərəfindən təyin edilməsi məsələsinə gəldikdə isə, burada yeni bir şey yoxdur. 1937-ci ildə Naxçıvanın ikinci konstitusiyası qəbul olunandan bəri Milli Bankın sədri vəzifəsi muxtar respublikanın rəhbərliyi tərəfindən təyin edilib. Əgər 1937-ci ildə qəbul olunan konstitusiyaya görə, bu təyinat heç bir faciə törətməyibsə, bundan sonra da heç nə olmayacaq**".

Naxçıvan Muxtar Respublikasının Konstitusiyası 1998-ci il aprelin 28-də Ali Məclisin sessiyasında qəbul edildi. Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq iki dəfə – 30 iyun və 29 dekabr 1998-ci ildə Milli Məclis tərəfindən təsdiq edilərək 1999-cu il yanvarın 8-də dövlət başçısı tərəfindən imzalandı. Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun başçılığı ilə hazırlanan və təsdiq olunan konstitusiya muxtar respublikanın idarə olunmasının hüquqi təminatını – konstitusiya normalarını yaratdı.

Heydər Əliyevin dövlətçilik təlimi Ali Məclis Sədrinin fəaliyyətində həmişə rəhbər tutulan konsepsiya olmaqla, həm də bunun qətiyyətlə və ardıcıllıqla həyata keçirilməsi prosesində özünün dolğun həllini tapdı. Bunlar isə idarəetməni mükəmməlləşdirdi, ictimai-siyasi həyata yeni çalarlar gətirdi, Heydər Əliyev dövlətçilik məktəbinin Naxçıvan modelini ortaya qoydu. Naxçıvanın inkişaf və tərəqqisi üçün mükəmməl idarəetmə formulu yarandı.

Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında 1995, 2000 və 2005-ci illərdə Azərbaycan Milli Məclisinə, eləcə də Naxçıvan Ali Məclisinə keçirilən seçkilərin özünəməxsus yeri olmuşdur. 1995-ci il seçkilərində Vasif Talıbov həm Azərbaycan Milli Məclisinə, həm də Naxçıvan Ali Məclisinə deputat seçilmişdi. Onun Ali Məclisin Sədri kimi fəaliyyətindən keçən qısa müddət ərzində muxtar respublikada hakimiyyət strukturlarının yenidən formalaşması prosesi uğurla həyata keçirilmiş, sağlam iş şəraiti, işgüzar mühit yaradılmış, bütün sahələrdə mütərəqqi dəyişikliklər baş vermişdi.

Bunlar isə xalqla hakimiyyət arasında etimad hissini artırmış, hakimiyyət strukturlarının daha fəal və işgüzar mövqe tutmasına səbəb olmuşdu. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin problemlərin həlli istiqamətində gündəlik nəzarəti, qayğısı və köməkliyi muxtar respublikanın iqtisadi və sosial sahələrində quruculuq işlərinin aparılmasına, həlli çatmış problemlərin tez bir zamanda operativ həll edilməsinə zəmin yaratdı, muxtar respublika inkişaf və tərəqqi yollarında inamla irəliləməyə başladı.

Naxçıvan Muxtar Respublikasında 2000-ci il parlament seç - kiləri də yüksək siyasi fəallıq şəraitində keçdi. Seçicilərin 78,7 fai - zi (164892 nəfər) seçkilərdə iştirak etdi. Azərbaycan parlamentinə

5, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə isə 45 nəfər deputat seçildi. 2000-ci il dekabrın 7-də ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası Vasif Talıbova ikinci dəfə sədr seçilməyinə etimad göstərdi. Ali Məclis Sədrinin 1995-2000-ci illərdəki məqsədyönlü, düşünülmüş, səriştəli idarəetmə taktikası, prinsipial mövqeyi, işgüzarlığı, diyarın ərazi bütövlüyünün qorunub möhkəmləndirilməsi məsələlərini bacarıqla həll etməsi onun həmin vəzifəyə yekdilliklə seçilməsi ilə nəticələndi.

1995-2000-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 7, 2000-2005-ci illərdə 6, 2005-2010-cu illərdə isə 9 sessiyası keçirilmiş və bu sessiyalarda muxtar respublikanın daxili həyatı, dövlət quruculuğu, ictimai-siyasi, sosial-iqtisadi inkişafı, büdcə və maliyyə təminatı kimi məsələlər müzakirə edilmişdir. 2003-cü ilin yanvarın 7-də ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyası "2003-cü ilin Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev ili elan edilməsi haqqında" qərar qəbul etdi. Bu qərarla ulu öndərimizin tarixi xidmətləri, Naxçıvan Muxtar Respublikası üçün gördüyü işlər, həyata keçirdiyi tədbirlər minnətdarlıqla qeyd edildi.

Naxçıvan Muxtar Respublikasında üçüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə və muxtar respublika Ali Məclisinə seçkilərin yüksək səviyyədə, tam demokratik şəkildə, qanunvericiliyə uyğun qaydada keçirilməsi üçün qanunvericilik bazası təkmilləşdirildi. 9 iyul 2005-ci il tarixdə ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu qəbul olundu.

Ölkə Prezidenti İlham Əliyevin imzaladığı "Seçki praktikasının təkmilləşdirilməsinə dair" 11 may 2005-ci il və "Azərbaycan

Respublikası Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" 25 oktyabr tarixli Sərəncamları Azərbaycanda, eləcə də muxtar respublika ərazisində seçkilərin azad, şəffaf və demokratik keçirilməsinə, seçicilərin öz iradələrini sərbəst şəkildə ifadə etmələrinə imkan yaratdı. 7 nəfər Milli Məclisə, 45 nəfər isə Ali Məclisə deputat seçildi. 2005-ci il noyabrın 28-də üçüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında Heydər Əliyev dövlətçilik məktəbinin layiqli yetirməsi, tanınmış ictimai-siyasi xadim Vasif Talıbov üçüncü dəfə yekdilliklə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi.

Muxtar respublikanın tarixində, ictima-siyasi həyatında 2005-2010-cu illərin uğurları daha çox diqqəti cəlb edir. "İnkişafdan intibaha", "ictimai-siyasi sabitlikdən–sivilizasiyalı cəmiyyətə", "şərq mentalitetizmindən – qərb modernizminə" fikirləri daha çox bu illərə aid edilir. Ali Məclis Sədrinin apardığı məqsədyönlü dövlət siyasəti, yorulmaz fəaliyyəti, prinsipial mövqeyi və yüksək tələbkarlığı inkişaf və tərəqqinin, böyük uğurların qızıl açarıdır.

Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatına muxtar respublikanın təşkil edilməsi ilə bağlı yubiley tədbirlərinin keçirilməsinin böyük təsiri olmuşdur. Naxçıvan Muxtar Respublikasının təşkilinin çox böyük siyasi və tarixi əhəmiyyəti vardır. Bunun nəticəsidir ki, muxtar respublikamızda, eləcə də ölkəmizdə və bir sıra xarici ölkələrdə bu tarixi yubiley yüksək səviyyədə qeyd edilmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin "Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" 1999-cu il fevralın 4-də imzaladığı Fərmandan sonra respublikamızda, eləcə də muxtar respublikamızda bir sıra tədbirlər, elmi konfranslar keçirildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illiyi münasibətilə keçirilən bayram şənliklərində iştirak etmək üçün 1999-cu il oktyabrın 10-da Naxçıvana gəldi. Prezident kimi ölkə rəhbəri ikinci dəfə idi ki, Naxçıvana gəlirdi. Onun prezident kimi Naxçıvana ilk səfəri 1996-cı ilin oktyabr ayının axırlarında olmuşdu. 1999-cu il oktyabrın 12-də muxtar respublikanın 75 illiyinə həsr olunmuş tənəli yubiley iclası keçirildi. Tədbirdə Türkiyə Cümhuriyyətindən, İran İslam Respublikasından gələn rəsmi nümayəndələrlə yanaşı, xarici ölkələrin Azərbaycanda fəaliyyət göstərən səfirləri, respublika paytaxtından gəlmiş elm, mədəniyyət xadimləri, şairlər, yazıçılar da iştirak edirdilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikanın yaranması, inkişaf tarixi, qazandığı nailiyyətlər haqqında məruzə etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yubiley tədbirində dərin məzmunlu çıxışında Naxçıvana muxtariyyət statusunun verilməsini çox yüksək qiymətləndirdi, Moskva və Qars müqavilələrinin əhəmiyyətini dəyərləndirdi: **"...Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".**

Heydər Əliyevin muxtar respublikanın yubiley şənliklərində şəxsən iştirak etməsi Azərbaycanın bu qədim diyarının hərtərəfli inkişaf proqramının həyata keçirilməsinə yeni güclü təkan verdi. Ulu öndər 2002-ci ildə də iki dəfə Naxçıvanda səfərdə olmuşdur. Bu səfərlərin nəticəsi muxtar respublikanın iqtisadi-sosial, elmi və mədəni inkişafına müsbət təsir göstərdi.

Ölkə başçısı Heydər Əliyev Naxçıvanın ictimai-siyasi

həyatındakı müsbət meylləri, görülən işləri, həyata keçirilən tədbirləri, quruculuq və abadlıq işlərini yüksək qiymətləndirdi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun təşkilati fəaliyyətindən razı qaldığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirdiyi kimi, Naxçıvan Muxtar Respublikasının 80 və 85 illik yubileylərinin keçirilməsi haqqında da tarixi sərəncamlar imzalamış, yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana səfərlər etmişdir. Ölkə rəhbərinin hər bir səfəri Naxçıvanın hərtərəfli inkişafına güclü təkan vermişdir.

Prezident İlham Əliyev Naxçıvana hər səfərindən sonra burda görülən işlərin səviyyəsindən, muxtar respublikada gedən inkişaf prosesindən, sosial-iqtisadi islahatlardan, quruculuq işlərindən və bu işlərdə Naxçıvan rəhbərliyinin fəaliyyətindən razı qaldığını bildirmişdi.

Dövlət başçısının qədim torpağa hər səfəri, əhali ilə, muxtar respublikanın sakinləri ilə səmimi görüşləri, xoş ünsiyyətləri yaddaşlarda dərin izlər salmış, regionun hərtərəfli inkişafına təkan vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin həyata keçirdiyi quruculuq, abadlıq, yenidənqurma işləri, mühüm siyasi, ictimai və mədəni proseslərin inkişafı qayğısına qalması və məqsədyönlü idarəetməsinin nəticəsi olaraq Naxçıvan çox yüksək səviyyədə inkişaf etmiş və beynəlxalq tədbirlərin keçirildiyi məkana, qonşu ölkə rəhbərlərinin görüş yerinə çevrilmişdir. 2005-ci ilin dekabrında Azərbaycan Prezidenti İlham Əliyevlə İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad Naxçıvanda görüşdülər, energetika sahəsində əməkdaşlıq, inkişaf yardımından

istifadəyə dair icra memorandumu imzaladılar. 2007-ci ilin iyunun 4-də Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan Naxçıvana rəsmi səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunmuş, ölkələrimizin qlobal layihələri birgə həyata keçirməsi, beynəlxalq aləmdə bir-birinin mövqelərini tam dəstəkləməsi, regional əməkdaşlıqda fəal iştirakı razılıq doğurmuşdur.

Naxçıvan Muxtar Respublikasının son illərdəki dinamik inkişafı, quruculuq və müasirləşmə baxımından böyük infrastruktur layihələrinin həyata keçirilməsi bir sıra beynəlxalq tədbirlərin burada keçirilməsinə əsas verir. Bu mənada Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə görüşünün Naxçıvanda keçirilməsi təsadüfi deyildir. Bu Zirvə toplantısının Naxçıvanda keçirilməsinin çox böyük geosiyasi mənası və tarixi əhəmiyyəti vardır. Türk xalqları arasındakı mədəni və iqtisadi əlaqələri dərinləşdirmək, qarşılıqlı əməkdaşlığı artırmaq, ortaq tarixi, milli-mənəvi dəyərləri öyrənmək, qorumaq və təbliğ etmək, türkdilli ölkələrin beynəlxalq sülh və sabitliyə xidmət edən müsbət fəaliyyətlərini artırmaq kimi məsələlər IX zirvə görüşünün əsas mahiyyəti kimi nəzərə çarpırdı.

Prezidentlər Türkdilli ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişini imzaladılar. Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə görüşünün yekunu olaraq Naxçıvan Bəyannaməsi qəbul edildi.

Beləliklə, 1995-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslərin təhlili və ümumiləşdirilməsi göstərir ki, blokada vəziyyətinə düşən muxtar respublika ümummilli lider Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində

qorunub saxlanılmış, inkişaf etdirilmiş və ictimai-siyasi həyatın stabilliyi təmin edilmişdir. Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun gərgin əməyi, məqsədyönlü təşkilatçılıq fəaliyyəti sayəsində muxtar respublika Azərbaycan Respublikasının ən inkişaf etmiş bölgəsinə çevrilmişdir.

Sosial–iqtisad inkişaf. Naxçıvan Muxtar Respublikasının son 15 ildəki sosial-iqtisadi inkişafı böyük inkişaf və tərəqqi illəri, inkişafdan intibaha gedən yol kimi səciyyələndirilir. Bu illərdə muxtar respublikada gedən quruculuq, abadlıq işlərinin, iqtisadiyyatda, mədəni həyatda, insanların güzəranında baş verən dəyişikliklərin kökündə bir tərəfdən Heydər Əliyev yoluna, siyasi və nəzəri irsinə sədaqət, ikinci tərəfdən isə düzgün idarəetmə dayanır.

Naxçıvan Muxtar Respublikasında 1995-2010-cu illərdə aparılan quruculuq tədbirləri, iqtisadi və sosial sahədəki irəliləyişlər diyarı Azərbaycanın ən qabaqcıl, inkişaf etmiş bölgəsinə çevirmişdir. Sənayedə, tikintidə, iqtisadiyyatda, sosial həyatın bütün sahələrində analoqu olmayan uğurlar ona görə qazanılır ki, Heydər Əliyev yolunun sabaha gedən həyat gəmisinin sükanı etibarlı əllərdədir.

Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevin yolunun uğurla davam etdirilməsi nəticəsində Naxçıvan tamamilə dəyişilmiş, yenidən qurulmuş, alınmaz bir qalaya çevrilmişdir. Ali Məclis Sədrinin ümummilli liderimizin dövlətçilik ideyalarına sədaqəti, ardıcıl və yorulmaz fəaliyyəti sayəsində regionda əldə edilmiş mühüm nəticələr əslində Azərbaycanın tərkibində yeni bir Naxçıvan ərsəyə gətirmişdir.

Ulu öndərimizə sədaqət, aydın siyasi mövqe, yorulmaz fəaliyyətdən ibarət olan inkişafın Naxçıvan modeli müasir muxtar

respublikanın tərəqqisinin əsasını təşkil edir. Respublika mətbuatında Naxçıvanın son on beş ildəki sosial-iqtisadi inkişafını "Naxçıvan möcüzəsi" adlandırırlar. "Naxçıvan möcüzəsi"nin əldə edilməsini Ali Məclis Sədrinin özü belə xarakterizə edir: **"Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar".**

Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörənliklə müəyyən etdiyi siyasi kurs ölkə Prezidenti İlham Əliyevin Heydər Əliyev ideyalarına sədaqəti və yaradıcılıqla həyata keçirməsi, Ali Məclis Sədri Vasif Talıbovun səfərbəredici və təşəbbüskar rəhbərliyi Naxçıvanın hərtərəfli inkişaf və tərəqqisini təmin etmişdir.

1995-2010-cu illər sosial-iqtisadi inkişaf baxımından Naxçıvan Muxtar Respublikasının tarixində mühüm mərhələ təşkil edir. Bu dövrdə Ermənistan tərəfindən blokadada saxlanılmasına baxmayaraq, muxtar respublikanın daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəli istifadə olunmuş, 1996-cı ildən başlanan sabitləşmə, dönüş və inkişaf konsepsiyası iqtisadi və sosial müstəvidə yüksələn xətlə davam etdirilmiş, iqtisadiyyatda müsbət meyllər daha da möhkəmləndirilmişdir. 1995-ci ildən başlayaraq muxtar respublika iqtisadiyyatının əsas sahələrinin, o cümlədən sənayenin, tikintinin, kənd təsərrüfatının, nəqliyyat və rabitənin inkişafı istiqamətində aparılan məqsədyönlü siyasət məhsul istehsalının artımında, əhalinin həyat səviyyəsinin yüksəldilməsində öz təsirini göstərməkdədir.

1990-95-ci illərdə muxtar respublikada sənaye müəssisələrinin əksəriyyəti öz fəaliyyətini dayandırmış, 1996-97-ci illərdən başlayaraq bu müəssisələrin istehsal fəaliyyəti tədricən bərpa olunmuşdur. Muxtar respublika rəhbərliyinin bu sahəyə ciddi diqqət yetirməsi

sayəsində 1999-cu ildə diyarın sənaye müəssisələrində 2883,9 min manatlıq sənaye məhsulu istehsal edilmiş, 15 adda məhsul istehsalı təmin olunmuşdur. Sənaye məhsulu həcminin artması mövcud istehsal müəssisələrinin öz fəaliyyətini bərpa etməsi ilə yanaşı, həm də yeni istehsal müəssisələrinin istifadəyə verilməsi nəticəsində mümkün olmuşdur. Belə ki, təkcə 2005-2006-cı illərdə 44 istehsal müəssisəsi fəaliyyətə başlamışdır. Həyata keçirilən məqsədyönlü islahatların nəticəsində sənaye muxtar respublikada dinamik inkişaf edən sahələrdən birinə çevrilmişdir.

Sənaye sahəsində həyata keçirilən irimiqyaslı islahatların uğurlu yekunudur ki, 1995-2010-cu illərdə muxtar respublikada 364 yeni sənaye müəssisəsi işə başlamışdır. Əgər 1996-cı ilin əvvəlində muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, 2010-cu ilin sentyabr ayınadək bu müəssisələrin sayı 420-yə (7,5 dəfə çox) çatmışdır. Hazırda sənayə sektorunda 24 istehsal sahəsinin yaradılması işi davam etdirilir.

Muxtar respublikada 237 adda sənaye məhsulu istehsal edilir. 2009-cu ildə istehsal edilmiş sənaye məhsulunun ümumi dəyəri 212469,1 min manat olmuşdur. 62220 min ABŞ dolları dəyərində sənaye məhsulları xarici ölkələrə və respublikamızın digər bölgələrinə ixrac olunmuşdur ki, bu da 2008-ci illə müqayisədə 2,9 dəfə çoxdur.

Naxçıvan Muxtar Respublikasında sənayeləşmənin həyata keçirilməsi ilə əlaqədar sənaye müəssisələrinin yaradılmasına və inkişafına xüsusi fikir verilmişdir. Yaradılan sənaye müəssisələri daxili bazar üçün məhsul istehsal etməklə yanaşı, ixrac yönümlü məhsulların istehsalını da gücləndirmişdir. Xüsusilə son illərdə qurulan sənaye müəssisələri "Gəmiqaya" Şirkətlər Qrupuna aid olan müəssisələr, Naxçıvan Avtomobil Zavodu, Badamlı Mineral

Su Zavodu, "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının müəssisələri, Kərpic Zavodu, Mebel Fabriki, "Dizayn" MMC-nin müəssisələri, "Şərab-2" Yeddilər Aqrar Sənaye Kompleksi" MMC, "Sirab" Mineral Sular Zavodu ən yüksək standartlar səviyyəsində məhsul istehsal edirlər.

Beləliklə, bu illərdə muxtar respublikada sənaye sahəsində reallaşdırılan islahatların başlıca məqsədi mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulmasından, dünya standartlarına cavab verən sənaye məhsullarının istehsalından, sənayenin dayanıqlı və davamlı inkişafını təmin etməkdən ibarət olmuşdur. Tarixən aqrar region kimi formalaşan Naxçıvan Muxtar Respublikasının aqrar-sənaye regionuna çevrilməsi üçün ciddi əsaslar yaradılmışdır.

Azərbaycan Respublikasında yaranmış sabitlik, iqtisadi sahədə əldə olunmuş nailiyyətlər muxtar respublikada 1995-ci ildən başlayaraq tikinti-quraşdırma və abadlıq sahəsində də əsaslı işlər görməyə şərait yaratmışdır.

Naxçıvan Muxtar Respublikasında **tikinti-quraşdırma və abadlıq** işləri ildən-ilə genişlənir. Yüksək zövqlə, peşəkarlıqla, şərq və qərb memarlıq elementlərindən ustalıqla və yerli-yerində istifadə etməklə tikilən binalar, təmir olunan və yenidən qurulan inzibati və sosial obyektlər, salınan gülkarlıqlar, yaradılan səliqə-sahman böyük quruculuq və abadlıq işlərinin yüksək səviyyədə görüldüyünü təsdiq edir. Bütün bu işlərə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov diqqət və həssaslıqla yanaşır, hər bir tikinti, quruculuq və abadlıq işlərinin ən yüksək səviyyədə, keyfiyyətlə aparılmasına nəzarət və rəhbərlik edir, xeyli vaxt ayırır. Bütün bunlara görə Ali Məclisin Sədri tariximizə qurucu və yaradıcı rəhbər kimi daxil olmuşdur.

Ölkə başçısı, Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında son illərdə görülən işləri, həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək demişdir: "**Naxçıvanda çox geniş quruculuq, abadlıq işləri aparılır, şəhər gözəlləşir, yeni binalar tikilir, köhnə binalar təmir edilir. Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla fəxr edə bilər. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvan rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm**".

Vasif Talıbov Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi 15 il ərzində yeni və müasir bir Naxçıvan qurmuş, quruculuq və abadlıq işləri muxtar respublikanın paytaxtından tutmuş ən ucqar kəndlərini belə əhatə etmişdir.

Naxçıvan Muxtar Respublikasında inkişaf proqramının əhəmiyyətini əks etdirən mühüm göstəricilərdən biri quruculuq, tikinti-abadlıq işlərinin ön plana keçirilməsidir.

Heydər Əliyev idarəetmə məktəbinin sədaqətli davamçısı olan Vasif Talıbovun 90-cı illərin ortalarından muxtar respublikada başladığı quruculuq işləri nəticəsində yüzlərlə obyekt tikilib istifadəyə verilmiş, yenidən qurulmuş, təmir edilmiş, yollar çəkilmiş, körpülər salınmış, parklar, xiyabanlar və gülkarlıqlar yaradılmışdır. Nəticədə Naxçıvanın siması tamamilə dəyişilmişdir.

Naxçıvan Muxtar Respublikasında 2000-ci ildə 12449,9 min manatlıq tikinti-quruculuq işləri aparılmışdı ki, bu da 1995-ci ilə nisbətən 4 dəfə çoxdur. 2005-ci il ərzində muxtar respublikada tikintidə 126 milyon 51 min manatlıq investisiyadan istifadə edilmişdir. 2005-ci ildə muxtar respublikanın tikinti təşkilatları 92 milyon 240 min manatlıq iş görmüşdür. 2000-2005-ci illər muxtar respublikanın tikinti həyatında dəyərli və bənzərsiz binaların,

sosial və ictimai obyektlərin, elm, təhsil və mədəniyyət müəssisələrinin tikilməsi, yenidən qurulması və təmiri kimi xarakterizə edilir. Bu illərdə 59 orta məktəb, 48 səhiyyə obyekti, 28 körpü, 62 inzibati bina, 9 mədəniyyət obyekti, 9 abidə və dini obyekt tikilmiş, 23 orta məktəb binası, 35 səhiyyə obyekti, 23 körpü, 39 nasos stansiyası, 98 inzibati bina, 22 mədəniyyət obyekti və yüzlərlə müxtəlif xarakterli obyektlər əsaslı təmir olunmuşdur.

2006-2010-cu illərdə də muxtar respublika böyük tikinti meydanına çevrilmişdir. Belə ki, 2006-cı ildə 757 obyekt, 2007-ci ildə 793, 2008-ci ildə 854, 2009-cu ildə 726 müxtəlif xarakterli obyektlər istifadəyə verilmişdir. Son üç il ərzində muxtar respublikada 161 yaşayış binasında təmir və bərpa işləri aparılmış, 278 yaşayış binasında istilik xətləri yeniləri ilə əvəz edilmişdir. 2010-cu ilin ilk yarımilində 258 müxtəlif təyinatlı obyekt istifadəyə verilmiş, 286 obyektin isə tikintisi və ya əsaslı təmiri davam etdirilir. Kəndlərin, qəsəbələrin ictimai tərəqqisi, bu yaşayış məntəqələrində mərkəzlə paralel infrastruktur quruculuğu tədbirlərinə də xüsusi diqqət yetirilir. Kənd əhalisinə göstərilən xidmətin səviyyəsinin yaxşılaşdırılması, bu sahədə idarəetmənin səmərəliliyini daha da artırmaq məqsədilə son 15 il ərzində 52 kənd, 3 qəsəbə mərkəzi istifadəyə verilib.

Ümumiyyətlə, 1995-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və kəndlərində 231 elm və təhsil ocağı, 173 səhiyyə müəssisəsi, 272 mədəniyyət obyekti, 393 inzibati bina, 119 yeni körpü, 353 subartezian quyusu, 153 nasos stansiyası, 3374 yeni istehsal, xidmət və əlavə infrastruktur obyektləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Bir cəhəti qeyd etməliyik ki, muxtar respublikanın rayonlarında, qəsəbə və kəndlərində, xüsusilə sərhəd kəndlərində

tikinti-abadlıq işlərinə böyük diqqət və qayğı göstərilir. Tədqiq edilən dövrdə istifadəyə verilən orta ümumtəhsil məktəblərinin 35,5 faizi, səhiyyə obyektlərinin 71,4 faizi, ucqar dağ və sərhəd kəndlərində inşa edilmişdir. Bütövlükdə bu dövrdə muxtar respublikanın şəhər və rayon mərkəzlərində, habelə kəndlərində abadlaşma işləri geniş vüsət almışdır.

Son illərdə muxtar respublikada aparılan tikinti, quruculuq və abadlıq işləri nəticəsində Naxçıvan şəhəri və rayon mərkəzləri göz oxşayır, şərq və qərb memarlıq elementlərini özündə birləşdirən sosial obyektlər, inzibati binalar, yaşayış evləri diyarımıza gözəllik verir, bu işi görənlərin əməyi yüksək qiymətləndirilir. Heydər Əliyev Sarayı, Naxçıvan Beynəlxalq Hava Limanı, Duzdağ və Təbriz otelləri, Diaqnostika-Müalicə Mərkəzi, Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və Xarici Dillər fakültəsinin yerləşdiyi korpus, Universitet Konservatoriyası, Elektron Kitabxana, Hüseyn Cavidin türbəsi, Nuh türbəsi və yüzlərlə gözoxşayan memarlıq abidələri yüksək peşəkarlıqla təmir və bərpa edilmişdir. Xan Sarayı, Zaviyyə-mədrəsə binası, Came məscidi, Qarabağlar memarlıq kompleksi, İmamzadə kompleksi, Mömінə Xatın və Yusif Küseyir oğlu türbələri restavrasiya olunmuşdur. Bu gün Naxçıvanda tarixi-memarlıq abidələrində şərq elementləri ilə müasirlik qovuşur, bu elementlər isə şəhərə yaraşıq verir, onu gözəlləşdirir. Bütün bunlar Ali Məclis Sədrinin zövqündən, şəhərsalma sahəsindəki səriştəsindən, memarlıq biliyindən, qurub-yaratmaq həvəsindən xəbər verir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında **kənd təsərrüfatı** hər zaman öncül mövqeyə malik olmuşdur. Muxtar respublikada əsası Heydər Əliyev tərəfindən qoyulmuş aqrar islahatların ardıcıl həyata keçirilməsi, kənd təsərrüfatında aparılan

struktur dəyişiklikləri aqrar bölmənin inkişafı üçün möhkəm zəmin yaratdı. Torpaqların meliorasiya və sabit su təminatının yaxşılaşdırılması sahəsində bir sıra mühüm tədbirlər həyata keçirildi. Qaraçuq-Nehrəm kanalı bərpa olundu. Heydər Əliyev Su Anbarında tikinti işləri sürətləndirildi. 1996-2005-ci illərdə 30 yeni nasos stansiyası tikilmiş, 57 nasos stansiyasında əsaslı təmir işləri aparılmış, 238 subartezian quyusu qazılmış və ya bərpa edilmişdir.

Aqrar sahədə əməkçilərin zəruri kənd təsərrüfatı texnikası ilə təchizatını yaxşılaşdırmaq məqsədi ilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və onun rayonlarda 3 xidmət bazası yaradıldı. 2006-cı ildə muxtar respublikaya 82 ədəd, 2007-ci ildə 180 ədəd, 2008-ci ildə 84 ədəd, 2009-cu ildə 108 ədəd, 2010-cu ilin yanvar-avqust aylarında isə 64 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirildi. Bu texnikaların böyük əksəriyyəti lizinq yolu ilə istehsalçılara verilmişdir.

Aqrar sahənin inkişafı üçün müxtəlif layihələr, o cümlədən "Azərbaycanın kənd investisiyası" layihəsi, "Dağ və yüksək dağlıq ərazilərin inkişaf etdirilməsi" proqramı həyata keçirilmişdir.

Muxtar respublikada kənd təsərrüfatını inkişaf etdirmək üçün əkin sahələrinin strukturunda dəyişikliklər edilir, əkin sahələri artırılırdı. Əkin sahələri 2003-cü ildə 1995-ci ilə nisbətən 83,1 faiz artmışdı. 2006-cı ildə əkin sahələri 49 min 275 hektar təşkil etmişdir.

Görülən tədbirlər nəticəsində kənd təsərrüfatında ümumi məhsul istehsalı artmağa başlamışdı. Əgər 2005-ci ildə 98 milyon 255 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdursa, 2009-cu ildə bu göstərici 185 milyon manatdan çox olmuşdur.

Muxtar respublikada kənd təsərrüfatının ümumi məhsulunun

strukturunda ciddi dəyişikliklər baş vermişdir. Aparılmış islahatlar kənd təsərrüfatı istehsalı sahəsində mövcud potensialın səmərəli şəkildə reallaşdırılmasına imkan yaratdı. Hər bir rayonun spesifik xüsusiyyətlərinə uyğun kənd təsərrüfatı strukturunun formalaşmasını şərtləndirdi. Bu, özünü kənd təsərrüfatı məhsulları istehsalının strukturunda da göstərdi.

Muxtar respublika rəhbərliyinin taxılçılığa mühüm əhəmiyyətli sahə kimi yanaşması nəticəsində bu sahədə yüksək artıma nail olunmuşdur. Belə ki, 2000-ci ilə nisbətən 2005-ci ildə taxıl əkini sahəsi 95,4 faiz, məhsul istehsalı isə 2,1 dəfə artmışdır. Ümumiyyətlə, muxtar respublikada 1995-ci ildə 23,6 min ton, 2000-ci ildə 54,4 min ton, 2005-ci ildə 93,2 min ton, 2009-cu ildə isə 94,7 min ton taxıl yığılmışdır.

Muxtar respublikada taxılçılıqla yanaşı kartofçuluğun inkişafına da xüsusi diqqət yetirilmişdir. 11 aprel 2005-ci il tarixdə təsdiq olunmuş 2005-2010-cu illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası nəticəsində idxaldan asılılığın aradan qaldırılmasında mühüm irəliləyiş əldə olunmuşdur.

Muxtar respublikada şəkər çuğunduru istehsalına da xüsusi əhəmiyyət verilmişdir. Şəkər çuğunduru istehsalı 1992-ci ildən başlamış və ilbəil artıma nail olunmuşdur. 2000-ci ildə məhsul istehsalı 1992-ci illə müqayisədə 143,9 dəfə çox olmuşdur. 2003-cü ildə şəkər çuğunduru istehsalı 129 min ton təşkil etmiş, 2009-cu ildə şəkər çuğunduru əkin sahələri 2008-ci ilə nisbətən 41,2 faiz artaraq 1716,4 hektar olmuşdur.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatının inkişafında heyvandarlığın xüsusi rolu vardır. Muxtar respublika rəhbərliyinin apardığı məqsədyönlü tədbirlər nəticəsində bu sahədə

də böyük nailiyyətlər əldə edilmişdir. Heyvanların müxtəlif xəstəliklərdən qorunması, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 noyabr tarixli Fərmanı ilə Dövlət Baytarlıq Xidməti yaradılmışdır. 2000-ci ildə xırdabuynuzlu heyvanların sayı 425,4 min baş olmuşdur ki, bu da 1995-ci illə müqayisədə 146,7 min baş və ya 1,5 dəfə çox idi. Bu artım iribuynuzlu mal-qaranın artımında da özünü göstərirdi. 1995-ci ildə qaramalın baş sayı 55,5 min olduğu halda 2000-ci ildə bu güstərici artaraq 74 min başa çatmışdır ki, bu da 1995-ci ildəkindən 18,5 min baş çox idi. 2007-ci ildə xırdabuynuzlu heyvanların sayı 563897-ə, iribuynuzlu heyvanların sayı isə 94044-ə çatmışdır. 2010-cu ilin əvvəllərində muxtar respublikada qaramalın sayı 98,8 min baş, xırdabuynuzlu heyvanların sayı isə 589603 baş olmuşdur.

Bəhs olunan illərdə muxtar respublikada quşçuluğun, arıçılığın və balıqçılığın inkişafı da diqqət mərkəzində saxlanılmışdır. Muxtar respublikanın zəngin su ehtiyatları balıqçılığın inkişafı və qiymətli balıq cinslərinin yetişdirilməsi üçün əlverişli şərait yaradır. Təkcə 2009-cu ildə 5 balıqyetişdirmə təsərrüfatı istifadəyə verilmişdir.

Bütün bunlar bir daha əyani olaraq göstərir ki, muxtar respublika rəhbərliyinin ardıcıl və məqsədyönlü aqrar siyasəti öz müsbət nəticəsini vermiş, kənd təsərrüfatının bütün sahələrində yüksək nəticələr qazanılmışdır.

Muxtar respublikanın sosial-iqtisadi inkişafının sürətlənməsində **nəqliyyat və rabitənin** də xüsusi yeri vardır. İyirmi ilə yaxın blokada şəraitində yaşamasına baxmayaraq muxtar respublikanın nəqliyyat sisteminin inkişaf etdirilməsi məqsədi ilə sistemli tədbirlər görülmüşdğr. Doğma diyarın öz qapılarını

dünya dövlətlərinin üzünə açdığı bir dövrdə nəqliyyat sisteminin, yolların, hava limanının, avtovağzalların müasir tələblərə cavab verməsinin əhəmiyyəti bir qədər də artıb. Naxçıvan Beynəlxalq Hava Limanının rolu və əhəmiyyəti xeyli yüksəlib. Həm xarici ölkələrə (Türkiyə Cümhuriyyəti, Rusiya Federasiyası), həm də respublikamızın Bakı, Gəncə kimi şəhərlərinə gedən sərnişinlər bu limanın xidmətindən istifadə edirlər. Ulu öndərimizin tövsiyəsi, diqqət və qayğısı, ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Naxçıvan Beynəlxalq Hava Limanı öz gözəlliyi, müasirliyi və rahatlığı ilə sərnişinləri razı salır. Naxçıvanlıların Azərbaycan Respublikası ilə əlaqələri yalnız hava nəqliyyatı ilə həyata keçirilir. 90-cı illərin ortalarında hava limanının yenidən qurulması, 2004-cü ildə isə Naxçıvan Beynəlxalq Hava Limanının tikilib istifadəyə verilməsi ağır yüklü nəqliyyat təyyarələrinin qəbul olunmasına imkan vermişdir.

Muxtar respublikada yol infrastrukturunun inkişafı ilə bağlı əhəmiyyətli tədbirlər həyata keçirilmiş, yeni yollar salınmış, körpülər tikilmişdir. Naxçıvan-Sədərək yolu ən yüksək səviyyədə qurulmuşdur. Son 15 ildə 63 körpü tikilmişdir. Bunların arasında beynəlxalq əhəmiyyətli "Ümid" körpüsünün, Şahtaxtı-Poldəşt körpüsünün çox böyük əhəmiyyəti vardır.

Sərnişin daşınmasının və avtobus xidmətinin səviyyəsini yaxşılaşdırmaq məqsədilə 2009-cu ildə Naxçıvan, Şərur, Culfa və Şahbuz şəhərlərində avtovağzal kompleksləri istifadəyə verilmişdir.

Sərnişin daşınmasında rahatlığı və təhlükəsizliyi təmin etmək, xidmətin səviyyəsini artırmaq məqsədi ilə muxtar respublikaya xeyli sayda avtobus gətirilmiş və istismara buraxılmışdır. Naxçıvan Avtomobil Zavodu müxtəlif modeldə maşınlar istehsal etməyə başlamışdır.

Naxçıvan Muxtar Respublikasının rabitə sisteminin rolu da xeyli artmışdır. 1995-2001-ci illərdə muxtar respublikada rabitənin inkişafı yüksək xətlə getmişdir. Cənubi Koreyanın "DEU telekom" şirkəti ilə bağlanmış müqaviləyə (1998) əsasən muxtar respublikanın yaşayış məntəqələri telefonlaşdırılaraq abonentlər birbaşa Beynəlxalq Telefon rabitə sisteminə çıxma imkanı əldə etmişlər. Telekommunikasiya sistemində aparılan yenidənqurma işlərinin nəticəsində 35 mindən yuxarı elektron tipli xətt və nömrə, eyni zamanda mobil telefon şəbəkəsi istifadəyə verilmişdir. Ötən dövrdə muxtar respublikada telekommunikasiya sahəsində çox işlər görülüb, əhalinin yeni texnologiyalara olan tələbatı xeyli yüksəlib. Bu gün muxtar respublika üzrə fərdi kompyuterlərin sayı 45 minə çatmış, internetdən istifadə edənlərin sayı 100 mindən çox olmuşdur. Naxçıvanın özünün müstəqil "Naxtel" mobil rabitə sistemi mövcuddur və bunun vasitəsilə muxtar respublika ərazisinin 80 faizi simsiz internetlə təmin olunur. Muxtar respublikada istifadə olunan mobil telefonların sayı hazırda 356795 ədəddir. Əhalinin hər 100 nəfərinə 88 mobil telefon düşür.

Muxtar respublika rəhbərliyinin informasiya və kommunikasiya sisteminin inkişafına böyük əhəmiyyət verməsinin nəticəsidir ki, bu sahədə çox böyük uğurlar əldə edilmişdir. Qısa müddət ərzində muxtar respublika ərazisində mövcud olan rabitə müəssisələri modernləşdirilmiş, informasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması istiqamətində tədbirlər görülmüş, Azərbaycan-Türkiyə optik kabel magistralının Naxçıvan seqmentinin yaradılması hesabına böyüktutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsi mümkün olmuşdur. Naxçıvan şəhərində, bir sıra qəsəbə və kəndlərdə yeni nəsil avtomat telefon stansiyaları quraşdırılmışdır. 64 telefon stansiyasında birləşdirici

xətt əlaqəsi yaratmaq məqsədilə 554,2 km uzunluğunda radiorele xətti və 119 km fiber-optik kabellərdən istifadə etməklə 7470 telefon kanalı yaradılmış, 61 antena qülləsi tikilmişdir. Muxtar respublika üzrə hər 100 ailəyə düşən stasionar telefon aparatlarının sayı 64-ə çatmışdır.

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında **elektroenergetikanın** xüsusi rolu vardır. Ölkəmizdə elektroenergetikanın inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Əvvəllər Naxçıvan Muxtar Respublikası elektrik enerjisi ilə Zaqafqaziyanın vahid energetika sistemindən 220 kilovoltluq Ararat-Babək, 110 kilovoltluq Ararat-Şərur, Aqarak-Ordubad elektrik xətləri ilə və sistemə qoşulan Araz Su Elektrik Stansiyası vasitəsi ilə təchiz edilirdi. Ermənistan Respublikasının həyata keçirdiyi blokada siyasəti nəticəsində 1990-cı ildən etibarən muxtar respublikaya elektrik enerjisi verilişi dayandırıldı, yalnız Araz Su Elektrik Stansiyasında istehsal edilən 15-20 mvt gücündə elektrik enerjisi şəbəkələrə ötürüldü.

Heydər Əliyevin yorulmaz fəaliyyəti və şəxsi nüfuzu sayəsində qonşu dövlətlərdən elektrik enerjisi alınması üçün təcili tədbirlər görüldü, 1992-ci ildə muxtar respublikaya yüksək gərginlikli elektrik xətləri çəkildi, Türkiyədən və İran İslam Respublikasından elektrik enerjisi alınmağa başlandı. 1993-cü ilin ortalarında muxtar respublikaya İran İslam Respublikasından 42 mvt, Türkiyə Respublikasından isə 63 mvt gücündə elektrik enerjisi daxil olurdu.

90-cı illərin ortalarından başlayaraq muxtar respublikaya daxil olan elektrik enerjisinin paylanılmasını yaxşılaşdırmaq, itkiləri azaltmaq, enerji təchizatının etibarlılığını yüksəltmək üçün bir sıra mühüm tədbirlər həyata keçirildi. İlk növbədə "Koroğlu", "Araz", "Culfa", "Çeşməbasar", "Arpaçay", "Sədərək", "Xalxal"

yarımstansiyaları tikilib quraşdırılmış və onların gücü artırılmışdır. İran İslam Respublikasından və Türkiyə Cümhuriyyətindən müvafiq olaraq 110 və 264 kilovoltluq elektrik verilişi xətləri çəkilmişdir.

Muxtar respublika əhalisini və istehsal sahələrini elektrik enerjisi ilə təmin etmək üçün 2006-cı ildə görülən tədbirlərin əhəmiyyəti daha böyük olmuşdur. 2005-ci ildə muxtar respublikaya təbii qazın verilməsi yeni elektrik stansiyalarının işə salınmasına səbəb olmuş, Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında turbinlərin qazla işləmə rejiminə keçirilməsi nəticəsində burada 60 meqavat gücündə enerji istehsal etmək imkanları yaranmışdır. Ölkə başçısı İlham Əliyevin himayəsi ilə muxtar respublikada 87 mvt elektrik enerjisi istehsal etmək gücünə malik modul tipli elektrik stansiyası çox qısa müddətdə tikilərək istifadəyə verilmişdir. Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə, Ordubad rayonu ərazisində Gilan çayı üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyaları tikilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Naxçıvanın enerji ilə təminatı məsələsi dəfələrlə müzakirə edilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmiş və muxtar respublikanın elektrik enerjisi ixrac edən bir bölgəyə çevrilməsi məsələsi qoyulmuşdur. Artıq muxtar respublikada enerji təhlükəsizliyi təmin edilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının uğurlu davamının məntiqi nəticəsidir ki, ölkəmizin ayrı-ayrı bölgələrində olduğu kimi, muxtar respublikamızda da irimiqyaslı layihələr reallaşır, genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilir. Görülən işlərin bir hissəsini də muxtar respublikamızda əhalinin və təsərrüfat subyektlərinin

təbii qazla təmin olunması istiqamətində həyata keçirilən layihələr təşkil edir. Ölkə başçısı İlham Əliyevin 11 fevral 2004-cü il tarixli Fərmanı ilə təsdiq etdiyi "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" və bu Dövlət Proqramının icrasını yüksək səviyyədə təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 9 iyun 2005-ci il tarixli Sərəncamla təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" muxtar respublikamızda irimiqyaslı layihələrin reallaşmasına geniş imkanlar açdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə görülən işlər, həyata keçirilən tədbirlər, qazanılan uğurlar və uğurlardan insanların sosial vəziyyətlərinin yaxşılaşdırılması, yaşayış şəraitinin yüksəldilməsinə yönəldilən tədbirlər insanları razı salır, onların fəal mövqe tutmalarına, Naxçıvanın hərtərəfli inkişafına səbəb olur.

Görülən məqsədyönlü tədbirlər əhalinin rifahının və gəlirlərinin yüksəlməsinə səbəb olmuşdur. 2009-cu ildə bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 2008-ci ilə nisbətən 15,8 faiz çox olmuşdur. Ümumiyyətlə, 1994-cü illə müqayisədə 2009-cu ildə əhali gəlirlərinin həcmi 36 dəfə artaraq 25,6 milyon manatdan 913,4 milyon manata çatmışdır.

Muxtar respublikada pensiyaçı və müharibə əlillərinin, şəhid və aztəminatlı ailələrin sosial-müdafiəsinə diqqət xeyli artırılmış, aparılan məqsədyönlü iqtisadi və sosial siyasət əhali rifahının davamlı yüksəlişinə əsaslı zəmin yaratmışdır.

Muxtar respublika iqtisadiyyatında əldə olunmuş sabit artım tempi səmərəli məşğulluğun təşkili və yeni iş yerlərinin yaradılması üçün də əlverişli mühit formalaşdırmışdır. 2000-2005-ci

illər ərzində məşğulluq mərkəzləri tərəfindən 6915 nəfər işlə təmin olunmuşdur. Sonrakı illərdə bu məsələyə daha böyük diqqət yetirilmişdir. 2006-cı ildə 8044 yeni iş yeri, 2007-ci ildə 5827, 2008-ci ildə 6434, 2009-cu ildə isə 4742 yeni iş yerləri açılmışdır. Ümumiyyətlə, 1995-2010-cu illərdə 64 mindən çox yeni iş yeri yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 30 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" müvəfəqiyyətlə yerinə yetirilmişdir.

Muxtar respublika sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, içməli su ilə təchizatı məsələsinə də xüsusi əhəmiyyət verilmişdir.

Naxçıvan Muxtar Respublikasının, onun şəhər, qəsəbə və çoxsaylı kəndlərinin böyük əksəriyyətinin su sistemi tamamilə yenidən qurulmuş, əsaslı təmir işləri görülmüşdür. Şərur-Naxçıvan su kəməri bərpa edilmiş, Naxçıvan şəhərinə yeni su xətti çəkilmiş, Ordubad şəhərinin su xətti bərpa edilmişdir. Onlarla kəndə (Nehrəm, Sirab, Bənəniyar, Qarababa, Göydərə, Əlincə, Xoşkeşin, Xanəgah, Ərəfsə, Əylis, Düylün və b.) içməli su xətti çəkilmişdir. 1993-2001-ci illərdə rayonlarda 32 su nasos stansiyası tikilmiş, çoxlu sayda subartezian quyuları qazılmışdır. Əhalinin içməli suya və suvarma suyuna tələbatını ödəmək üçün son illərdə 148 nasos stansiyası qurulmuş, 331 subartezian quyusu qazılmışdır. 2000-2005-ci illərdə Şərur, Babək, Ordubad, Culfa, Kəngərli və Şahbuz rayonunun 18 kəndinə (Tənənəm, Qaraxanbəyli, Çalxanqala, Qabıllı, Parağa, Dəstə, Zeyvə, Aşağı Yaycı, Bulqan, Tumbul, Qarabağlar, Yuxarı Əylis və s.) içməli su xətləri çəkilmiş, kəhrizlər bərpa edilmişdir. 2009-cu il ərzində 14 nasos stansiyası,

22 subartezian quyusu və 22 kəhriz istifadəyə verilmişdir.

Muxtar respublikada təbii meşə ehtiyatlarının az olması, son illərdə sənaye potensialının inkişafı, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, keçən əsrin 90-cı illərində muxtar respublikanın blokadaya düşməsi nəticəsində yanacağın çatışmaması ucbatından ağacların kütləvi şəkildə qırılması muxtar respublikanın ekologiyasına ciddi ziyan vurdu. Ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən təbiətə dəyən ziyanın aradan qaldırılması üçün ardıcıl tədbirlər müəyyənləşdirmiş, yaşıllaşdırma aylığının keçirilməsini taleyüklü məsələ kimi irəli sürmüşdür.

1996-cı ildən etibarən muxtar respublikada ümummilli liderimizin müəyyənləşdirdiyi quruculuq xəttinə, o cümlədən yaşıllaşdırma aylığının keçirilməsi barədə qəbul etdiyi qərara ardıcıl əməl edilməsinin nəticəsində təbii meşə sahələri artırılmış, parklar, yaşıllıq zolaqları, gülkarlıqlar salınmış, həmişəyaşıl ağaclar əkilmişdir. Qeyd etməliyik ki, Naxçıvan Muxtar Respublikasının ərazisi flora müxtəlifliyinin zənginliyinə görə Azərbaycan florasının 62,4 faizini təşkil edir. Amma bununla yanaşı burada meşə ehtiyatları olduqca azdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin "Naxçıvan Muxtar Respublikasında yaşıllaşdırma, təmizlik və abadlıq aylığının keçirilməsi haqqında" 1 mart 2001-ci il tarixli Sərəncamını xüsusilə qeyd etmək lazımdır. Həmin sərəncamdan sonra muxtar respublikada hər ilin yaz və payız aylarında yaşıllaşdırma, təmizlik və abadlıq aylığı elan olunmuş, iməciliklərin keçirilməsi ənənə halını almışdır. Həmçinin Ali Məclis Sədrinin "2007-ci ilin yazında və payızında yaşıllaşdırma, təmizlik və abadlıq aylığının keçirilməsi haqqında" 24 fevral 2007-ci il tarixli

Sərəncamı ilə əlavə tədbirlər keçirildi. Keçirilən iməciliklərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirak etməsi, müvafiq tapşırıqlar verməsi bu gün muxtar respublikamızın yaşıllıqlar diyarına çevrilməsində böyük rol oynadı. 2009-cu ildə yaşıllaşdırma tədbirlərinin uğurla davam etdirilməsi nəticəsində muxtar respublika ərazisində 497,3 hektar sahədə meşəsalma, meşəbərpa tədbirləri həyata keçirilmişdir ki, bu da 2008-ci illə müqayisədə 2 faiz çoxdur. Həyata keçirilən yaşıllaşdırma tədbirlərində 206718 ədəd meşə tingi, 280140 ədəd meyvə tingi, 12983 ədəd həmişəyaşıl ağac, 49430 ədəd bəzək və gül kolu olmaqla 549271 ədəd ting əkin dövriyyəsinə daxil edilmişdir. Naxçıvan diyarının iqlim şəraiti nəzərə alınaraq damcı üsulu ilə suvarmanın tətbiqinə başlanılmışdır. 2009-cu ildə Naxçıvan-Sədərək magistral yolunun 6-10 kilometrliyində yeni salınmış 50 hektarlıq yaşıllıq sahəsi, Culfa rayonu ərazisində 26 hektar sahə damcı üsulu ilə suvarılır. Ümumiyyətlə, 156 hektar sahədə damcı üsulu ilə suvarmadan istifadə edilir ki, bu zaman su itkisi aradan qaldırılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 25 may tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi də muxtar respublika ərazisində təbiətin qorunması, əlverişli ekoloji mühitin yaradılması və mövcud ekoloji tarazlığın saxlanılması sahəsində mühüm tədbirlər həyata keçirir. Nazirlik tərəfindən təkcə ötən il 145,2 hektar sahədə yeni yaşıllıqlar, meşə massivləri, meyvə bağları salınmış və meşəbərpa tədbirləri həyata keçirilmişdir.

Muxtar respublikada həyata keçirilən yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirləri öz nəticəsini vermiş, yaşıllıq ərazilər artmışdır. Belə ki, əgər 1990-cı ilin əvvəlində yaşıllıq sahələri muxtar respublika ərazisinin cəmi 0,6 faizini təşkil edirdisə,

hazırda bu güstərici 7-8 faiz olmuşdur. Bu müddətdə adambaşına düşən yaşıllığın həcmi isə 0,012 hektardan 0,21 hektara yüksəlib. Halbuki ölkə ərazisində adambaşına 0,14 hektar meşə örtüyü düşür.

Naxçıvan diyarında ətraf mühitin mühafizəsi, nadir, nəslikəsilmək təhlükəsi olan flora və fauna növlərinin, təbiət komplekslərı və abidələrin qorunub saxlanılması, insanların ətraf mühitdən sağlamlıq, istirahət və turizm məqsədilə istifadəsinin təmin edilməsi üçün xüsusi mühafizə statuslu təbiət əraziləri genişləndirilmiş və inkişaf etdirilmişdir.

Naxçıvan Muxtar Respublikasında ilk xüsusi mühafizə olunan təbiət ərazisi ümummilli liderimiz Heydər Əliyevin diqqət və qayğısı ilə 1969-cu ildə yaradılmış Ordubad Dövlət Yasaqlığıdır. Muxtar respublikanın xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 16 iyun tarixli Sərəncamı ilə Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr tarixli Sərəncamı ilə "Arazboyu" Dövlət Təbiət Yasaqlığı (ərazisi 9118 hektar), 2009-cu il 22 iyun tarixli Fərmanı ilə "Arpaçay" Dövlət Təbiət Yasaqlığı (ərazisi 68911,18 hektar) yaradıldı.

Muxtar respublika ərazisində mövcud olan ekoturizm potensialından səmərəli istifadə edilməsi, həmin ərazilərdə nadir, nəslikəsilmək təhlükəsi olan flora və fauna növlərinin mühafizə edilməsi, elmi-tədqiqat işlərinin aparılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı yaradıldı. Bu Milli Parkın ərazisinə Akademik Həsən Əliyev adına Ordubad

Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Culfa, Ordubad rayonlarının inzibati ərazilərində olan dövlət meşə fondu və Şahbuz, Culfa, Ordubad rayonlarının inzibati ərazisində yerləşən yay otlaqlarının torpaqları daxil edildi. Beləliklə, 1995-ci illə müqayisədə xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 3,7 dəfədən çox artdı. Ümumiyyətlə, muxtar respublikanın 148 min 816,6 hektar ərazisi xüsusi mühafizə olunan təbiət əraziləridir. Bu göstərici öz növbəsində beynəlxalq normaları da üstələyir.

Yaşıllaşdırma, təmizlik və abadlıq sahəsində həyata keçirilən tədbirlər muxtar respublikanın simasını tamamilə dəyişib. Bu dəyişikliyin ilkin şərti isə təmizlik və yaşıllıqdır.

Beləliklə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Heydər Əliyev ideyalarına söykənən yüksək idarəçilik bacarığı, qətiyyəti və böyük zəhmətsevərliyi nəticəsində blokada şəraitində olmasına baxmayaraq doğma diyarımızın sürətli sosial-iqtisadi inkişafına nail olunmuşdur.

Mədəni inkişaf 1995-2010-cu illər ərzində muxtar respublikanın mədəni inkişafında təhsilin, elmin, səhiyyənin, mədəniyyətin inkişafı çox yüksək səviyyəyə çatmış, hər bir sahədə çox böyük uğurlar qazanılmışdır. Ali Məclis Sədrinin bu sahələrə çox böyük diqqət yetirməsi, qayğısına qalması, təşkilatçılıq fəaliyyətində bu sahələri prioritet sahə hesab etməsi onların üstün inkişafını təmin etmişdir. On beş il ərzində bu cür inkişafa, yüksəlişə, yeniləşməyə nail olmaq çox çətindir. Lakin bu uğurlar faktdır, bunlar Naxçıvanın keçdiyi misilsiz inkişaf yoludur. Bu yolun bələdçisi misilsiz dövlət xadimi Heydər Əliyevin idarəetmə məktəbini keçmiş, onun dövlətçilik xəttinin incəliklərini mənimsəmiş, muxtar respublikanı dərindən tanıyan, potensialını və problemlərini yaxşı bilən, təşəbbüskar, coşğun enerjili, aydın proqramlı Vasif

Talıbovdur. Ümummilli liderin Naxçıvanla bağlı arzularını yüksək səviyyədə gerçəkləşdirən, ulu öndərin ideya və əməllərinə sonadək sadiq qalan Vasif Talıbov səmərəli fəaliyyəti, təşkilatçılıq bacarığı ilə Naxçıvanda möcüzələr yaratmışdır.

Naxçıvan Muxtar Respublikasının hərtərəfli və sürətli inkişafında **təhsilin** xüsusi yeri vardır. Muxtar Dövlətin rəhbəri diyarı irəli aparmaq, modernləşdirmək üçün məqsədyönlü, irimiqyaslı, ardıcıl təhsil siyasəti aparmışdır. İlk növbədə təhsil müəssisələri üçün yeni binalar tikilməyə başlanılmış, təmir olunmuş və maddi-texniki bazası möhkəmləndirilmişdir. Muxtar respublikada yeni məktəblərin tikilməsi, onların texniki və kadr təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları və pulsuz dərsliklərlə təmin edilməsi sahəsində ardıcıl iş aparılmışdır.

Müstəqilliyin ilk on ili ərzində muxtar respublikada 36 yeni orta ümumtəhsil məktəbi tikilmiş, 19 məktəb binası isə əsaslı şəkildə yenidən qurulmuşdur. 2000-2005-ci illərdə isə tikilən məktəblərin sayı 59, şagird yerlərinin sayı 17770 nəfər olmuşdur. Sonrakı illərdə məktəb tikintisi davam etdirilmişdir. 180 məktəb binası tikilmiş və əsaslı təmir olunmuşdur.

2003-cü ildə muxtar respublikada 232 gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərirdi ki, bunun da tərkibində 10 ibtidai, 19 əsas, 202 orta təhsil və 1 xüsusi məktəb var idi. Şagirdlərin sayı isə 72179-a çatırdı.

Muxtar respublikanın ümumtəhsil məktəblərində çalışan müəllimlərin sayı da ilbəil artmışdı. Belə ki, 1990-cı ildə 7200, 2003-cü ildə 8687, 2005-ci ildə isə 8496 nəfər olmuşdur ki, onların da 93 faizi ali təhsilli idi.

90-cı ilin əvvəllərindən başlayaraq muxtar respublikanın

ümumtəhsil məktəbləri sistemində müəyyən dəyişikliklər baş verdi, liseylər, gimnaziyalar, kolleclər yaradıldı. Naxçıvan şəhərində özəl "Türkiyə oğlanlar" Kolleci (1992), Ordubadda "Qız liseyi" (1993), Şərurda "İqtisad liseyi" (1994) yaradılmışdır. Naxçıvan şəhərində "Xanım qızlar" Kolleci (1992), Babək rayonunun Zeynəddin kəndində kənd təsərrüfatı təmayüllü məktəb-müəssisə kompleksi (1993), C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı fəaliyyətə başladı (1998).

Muxtar respublikamızda təhsilin məzmunca yeniləşdirilməsi və keyfiyyətə nail olunması, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, təhsil sahəsində müxtəlif proqramların həyata keçirilməsi istiqamətində fəal iş aparılır və nəticədə zəngin biliyə, hərtərəfli intellektual səviyyəyə malik, fiziki və mənəvi cəhətdən sağlam gənclər yetişir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 iyun 2008-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş, "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" ölkəmizdə yeni texnologiyalardan istifadə olunmaqla təhsilin informasiya mühitinin yaradılması işində çox mühüm rol oynamaqdadır. Ali Məclis Sədrinin qayğısı ilə ümumtəhsil məktəblərinə 2781 ədəd kompyuter verilmişdir. Bu isə 19 şagirdin 1 kompyuterlə təmin olunması deməkdir. Kompyuterlərin 2193-ü və ya 79 faizi internetə qoşulmuşdur. 197 məktəbdə 208 ədəd elektron lövhədən istifadə edilir. Bunlar muxtar respublikada yeni informasiya texnologiyalarından istifadə olunmaqla təhsilin keyfiyyətinin yüksəldilməsinə dövlət qayğısının parlaq ifadəsidir.

Təhsildə keyfiyyət dəyişiklikləri hər il artmaqda davam edir. Bunlar ali məktəblərə qəbulda yüksək bal toplayan

abituriyentlərin sayında özünü göstərir. 2004-cü ildə tələbə adını qazananların 64 nəfəri, 2005-ci ildə 87, 2006-cı ildə 135, 2007-ci ildə 160, 2008-ci ildə 219, 2009-cu ildə 232 nəfər 500-dən yuxarı bal toplamışdırsa, 2010-cu ildə 500-700 intervalında yüksək nəticə göstərən abituriyentlərin sayı artaraq 280-ə çatmışdır. Bu il də yüksək bal toplayan tələbələrdən 9 nəfəri Prezident təqaüdünə layiq görülmüşdür.

Orta ümumtəhsil məktəblərinin məzunlarının ali məktəblərə qəbulunda da artım vardır. Ötən il orta məktəbi bitirən şagirdlərdən 129-u fərqlənmə attestatı almışdırsa, bu il fərqlənmə attestatı alan şagirdlərin sayı 137-ə çatmışdır. Əgər 2005-ci ildə ali məktəblərə qəbul 33 faiz idisə, ötən il sənəd verən abituriyentlərin 42, bu il isə 46 faizdən çoxu ali məktəblərə qəbul olunmuşdur. Muxtar respublikanın ümumtəhsil məktəblərinin 320-dən artıq məzunu dünyanın nüfuzlu ali məktəblərində təhsil alır, gənc mütəxəssis kimi yetişirlər.

Məktəblərə, məktəblilərə, onların hərtərəfli inkişafına hər cür qayğı göstərilir. Məktəb kitabxanaları zənginləşdirilir, məktəblilər pulsuz dərsliklərlə təmin olunur. 2005-2009-cu illərdə məktəb kitabxanalarına 1 milyon 13 min 539 nüsxə dərslik, 394 adda 539639 ədəd bədii ədəbiyyat, 1450 ədəd Azərbaycan Milli Ensiklopediyasının xüsusi nəşri, 450 ədəd Naxçıvan Abidələri Ensiklopediyası, 15 fənn üzrə 140 adda 74510 ədəd əyani vəsait, 440 ədəd "Naxçıvan xanlığı" kitabı verilmişdir. Muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində 2005-ci il avqust ayından ümumtəhsil məktəblərinin I-XI sinif şagirdləri dərsliklərlə pulsuz təmin edilmişdir. Sonrakı illərdə də bu iş davam etdirilmişdir. Muxtar Dövlətin başçısının təşəbbüsü və şəxsi himayəsi sayəsində bir neçə ildir ki, valideyn himayəsindən məhrum olan uşaqlara

hədiyyələr verilir. Ata və ana nəvazişindən məhrum olan kimsəsiz şagirdlər geyim, dərslik və digər ləvazimatlarla təmin olunurlar.

Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin vahid məktəbli forması ilə təmin olunması muxtar respublika rəhbərliyinin həmişə diqqət mərkəzində olmuşdur. Muxtar respublikanın ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri və şagirdləri uyğun formadan istifadə edirlər. Bu da öz növbəsində həm təlimdə, həm də tərbiyədə müsbət rol oynayır.

2005-ci ildən başlayaraq muxtar respublikada təhsil yarmarkaları keçirilir. Həmin il keçirilən təhsil yarmarkasında 119 nəfər gənc mütəxəssis işlə təmin olunmuş və ucqar dağ kəndlərinə göndəriş almışdır. 2006-cı və 2007-ci illərdə də belə yarmarka keçirilmişdir. 2007-ci il təhsil yarmarkasına 178 nəfər ixtisaslı mütəxəssis müraciət etmiş, bunlardan 144 nəfəri kənd məktəblərində işlə təmin olunmuşlar.

Naxçıvan Muxtar Respublikasında məktəbəqədər tərbiyə müəssisələrinin geniş şəbəkəsi mövcud olmuşdur. 1995-2010-cu illərdə məktəbəqədər müəssisələrin geniş şəbəkəsi yaradılmış, yeni binalar tikilmiş və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Bu dövrdə 1835 yerlik 15 məktəbəqədər müəssisə istifadəyə verilmişdir. Məktəbəqədər müəssisələrin 87 faizi yenidən qurulmuşdur.

Muxtar respublikada 44 məktəbdənkənar uşaq müəssisəsi, o cümlədən gənc təbiətçilər, rəsm, idman, şahmat və b. fəaliyyət göstərirdi. Onlarda çoxlu sayda şagird müxtəlif maraq sahələri üzrə qruplara cəlb olunmuşdu. Şahbuz rayonunda Uşaq Yaradıcılıq Mərkəzi, Şahmat Məktəbi, Culfa və Şərur rayonlarında Şahmat məktəbi tikilmiş və müasir avadanlıqlarla təchiz olunmuşdur. Bunlardan başqa muxtar respublikada Texniki Yaradıcılıq, Turist-

Diyarşünaslıq və Ekoloji Tərbiyə Mərkəzlərinin daha yaxşı fəaliyyəti üçün müvafiq binalar ayrılmış, onlar yüksək səviyyədə təmir edilərək şagirdlərin ixtiyarına verilmişdir. Muxtar respublikada 8 məktəbdənkənar tədris müəssisəsi tikilmiş və ya yenidən qurulmuşdur. Naxçıvan şəhərindəki Şahmat mərkəzində beynəlxalq yarışların keçirilməsi üçün hər cür şərait vardır. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, Naxçıvan Regional Peşə-Tədris Mərkəzinin, Tədris Peşə Liseyinin Naxçıvan Regional Mərkəzinin binaları yenidən qurularaq istifadəyə verilmişdir. Cari ilin sentyabr ayında Culfa şəhərində 2 məktəb, 1 uşaq bağçası və 1 məktəbdənkənar müəssisə tikilmiş və ya əsaslı təmirdən sonra istifadəyə verilmişdir. Texniki Yaradıcılıq Mərkəzində, Ekoloji Tərbiyə Mərkəzində və Uşaq Yaradıcılıq Mərkəzində hər cür şərait yaradılmışdır.

Respublikamızda ümumtəhsil məktəbləri müəllimlərinin həyat səviyyəsi və onların əməyinin qiymətləndirilməsi də dövlətimizin diqqət mərkəzində saxlanılmış və qayğı göstərilmişdir. Son bir neçə ildə təhsil işçilərinin əmək haqları bir neçə dəfə artırılmışdır. Ən qabaqcıl 50 məktəb və 100 müəllim ölkə rəhbəri tərəfindən mükafatlandırılmışdır. Son üç ildə muxtar respublikamızdan 9 məktəb ölkə Prezidentinin sərəncamı ilə "İlin ən yaxşı ümumtəhsil məktəbi" və 15 müəllim isə "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi adına layiq görülərək mükafatlandırılmışlar. Son beş ildə muxtar respublikamızdan 35 nəfərə Azərbaycan Respublikasının Əməkdar müəllimi, 45 nəfərə Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi fəxri adı verilmiş, 32 nəfər isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

1996-cı ildən orta ixtisas və ali təhsil müəssisələrinin inkişafına da diqqət artırılmış, onların maddi-texniki bazasının möhkəmlən -

dirilməsinə fikir verilmişdir. 2004-2005-ci dərs ilində üç orta ixtisas təhsil müəssisəsində 1255 nəfər tələbə təhsil alırdı. 1995-2000-ci illərdə bu təhsil müəssisələrində 1500-dən çox ixtisaslı kadr hazırlanmışdır. Hazırda muxtar respublikada Naxçıvan Tibb Kolleci, Naxçıvan Musiqi Kolleci və Naxçıvan Dövlət Texniki Kolleci fəaliyyət göstərir. Kolleclərdə müvafiq olaraq 5 ixtisas üz - rə 525 tələbə, 11 ixtisas üzrə 442 tələbə və 8 ixtisas üzrə 323 tələbə təhsil alır. Ümumiyyətlə, hər üç kollecdə 24 ixtisas üzrə 1295 nə-fər tələbə təhsil alır. Tələbələrin təlim-tərbiyəsi ilə 185 müəllim məşğul olur.

Son 15 ildə muxtar respublikada ali təhsil müəssisələrinin həyatında da ciddi dəyişikliklər baş vermişdir.

Özəl ali təhsil müəssisələrinin yaranması, dövlət ali mək-təblərində pullu təhsil formasının tətbiqi Naxçıvanda da özünü göstərdi. Ölkə Prezidentinin Sərəncamı ilə Azərbaycan Müəllimlər İnstitutu və bölgələrdə filialları yaradıldı. Naxçıvan Müəllimlər İnstitutu da 13 iyun 2000-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun filialı kimi yaradıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə bu filial 2003-cü ildə müstəqil ali məktəbə çevrildi. İki ixtisasla fəaliyyətə başlayan Müəllimlər İnstitutunda hazırda 5 ixtisas üzrə yüksək ixtisaslı kadrlar hazırlanır. Naxçıvan Müəllimlər İnstitutunun əyani və qiyabi şöbəsində 721 nəfər tələbə təhsil alır. Onların təlim-tərbiyəsi ilə 65 professor-müəllim heyəti məşğul olur.

Naxçıvanda fəaliyyət göstərən ali təhsil müəssisələrindən biri də Naxçıvan Özəl Universitetidir. Bu təhsil müəssisəsi 1994-cü ildə Bakı Özəl Ali Kollecinin Naxçıvan filialı kimi fəaliyyətə başlamış, 1999-cu ildən isə müstəqillik statusu qazanmışdır. Universitetdə 900 nəfər olmaqla 15 ixtisas üzrə bakalavr, 3 ixtisas

üzrə magistrlər hazırlanır. Professor-müəllim heyətinin tərkibi 72 nəfərdən ibarətdir.

1967-ci ildən Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi yaranan, 1972-ci ildən müstəqil ali təhsil müəssisəsinə çevrilən və 1991-ci ildən Naxçıvan Dövlət Universiteti adlandırılan bu təhsil ocağının əsl inkişaf dövrü 1996-cı ildən sonra baş vermişdir. Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra bu ali təhsil müəssisəsinin həyatında bir canlanma hiss olunmuşdur. 1996-cı ilin oktyabrında prof. İsa Həbibbəylinin universitetin rektoru təyin edilməsi ilə bu ali təhsil müəssisəsinin gələcək uğurları üçün əsas yaradılmışdır. Vasif Talıbovun dəfələrlə dövlət və hökumət nümayəndələri ilə birlikdə universitetə gəlməsi, problemlərlə tanış olması, kollektiv üzvləri ilə görüşməsi, tövsiyyə və tapşırıqlarını verməsi universitetin inkişafını sürətləndirmişdir. Onlarla yeni tədris korpusları, 1600 yerlik əsas korpus, Tibb fakültəsinin yerləşdiyi korpus, Sosial-İdarəetmə və Hüquq fakültəsi, Olimpiya-İdman Kompleksi, Konservatoriya binası, Memarlıq və Mühəndislik fakültəsi, Beynəlxalq Münasibətlər və Xarici Dillər fakültəsi üçün binalar tikilmiş və ya yenidən qurularaq əsaslı təmir olunmuşdur. Universitetin maddi-texniki bazası möhkəmləndirilmiş, yeni-yeni kabinə və laboratoriyalar, ixtisaslaşdırılmış otaqlar yaradılmışdır.

Ümummilli lider Heydər Əliyev 4 dəfə Naxçıvan Dövlət Universitetində olmuşdur. Universitetin yaradılması və inkişafı bilavasitə ulu öndərimizin adı ilə bağlıdır. Möhkəm milli əsaslara malik olan universitet respublikamızda ən qabaqcıl ali təhsil müəssisələrindən birinə çevrilmişdir. Ölkəmizin elmi-pedaqoji ictimaiyyəti Naxçıvan Dövlət Universitetini "klassik universitet", "Azərbaycanın Oksfordu" adlandırırlar.

1995-ci ildə universitetdə 2354 nəfər tələbə təhsil alır, onların təlim-tərbiyəsi ilə 197 müəllim məşğul olurdusa, hazırda universitetdə 4317 nəfər tələbə oxuyur və 356 nəfər professor-müəllim heyəti çalışır. Tələbələr 12 fakültədə, 46 ixtisasda təhsil alırlar.

Naxçıvan Dövlət Universiteti Azərbaycanın dövlət ali məktəbləri ailəsində kampusu olan, şəhərciyə çevrilən tək universitetdir. Universitetin 108 hektarlıq ərazisində 13 tədris korpusu, Elektron Kitabxana, Kliniki xəstəxana, Botanika bağı, Konservatoriya, Olimpiya tipli idman mərkəzi, futbol stadionları, kabel televiziyası və s. yeni nəslin hazırlanmasına uğurla xidmət edir. Avropa universitetlərinə, dünya təhsil sisteminə inteqrasiya olunan Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələri yüksək səviyyədədir, 30-dan çox ali təhsil müəssisəsi ilə əməkdaşlıq protokolu imzalamışdır.

Ümumiyyətlə, muxtar respublikada 2 dövlət, 1 özəl ali təhsil müəssisəsi fəaliyyət göstərir. Hazırda ali təhsil müəssisələrində 66 ixtisas üzrə 5938 tələbə təhsil alır ki, onların təlim-tərbiyəsi ilə 488 professor-müəllim heyəti məşğul olur.

Naxçıvan Muxtar Respublikasının ali və orta ixtisas məktəblərində 534 professor-müəllim heyəti, o cümlədən 2 akademik, 4 müxbir üzv, 21 elmlər doktoru, 178 elmlər namizədi fəaliyyət göstərir.

Bütövlükdə, Naxçıvan Muxtar Respublikasında yeni ali məktəblərin yaranması və universitet quruculuğunun sürətlə inkişaf etdirilməsi burada yüksək ixtisaslı, milli və bəşəri dəyərləri vəhdətdə daşıyan, geniş dünyagörüşə malik mütəxəssislərin, yeni elmi nəsillərin yetişib formalaşmasına ciddi təkan verir.

90-cı illərin ortalarında ölkə iqtisadiyyatında baş verən müsbət irəliləyişlər elm sahəsində mühüm dəyişikliklərin baş

verməsinə səbəb oldu. Elmə dövlət qayğısı artdı. Alimlərin əməkhaqqı artırıldı. Bu dövrdə Naxçıvan Muxtar Respublikasında bir sıra elmi müəssisələr fəaliyyət göstərirdi. Naxçıvan Regional Elmi Mərkəzi, Naxçıvan Kompleks Zona Təcrübə Stansiyası, Naxçıvan "Araz" Elm İstehsalat Birliyi, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Stansiyası, Elm və Texnika Mərkəzi, Şamaxı Astrofizika Rəsədxanasının Batabat Stansiyası və b. Muxtar respublikanın elmi idarə və müəssisələrində fundamental elmin müxtəlif sahələri üzrə tədqiqatlar aparılmış, faydalı elmi nəticələr əldə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun təşəbbüsü və rəhbərliyi ilə 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun keçirilməsi Naxçıvanda elmi müəssisələrin fəaliyyətini canlandırdı, Naxçıvanın hərtərəfli və elmi cəhətdən öyrənilməsinə təkan verdi. Sonrakı illərdə də beynəlxalq səviyyəli simpozium və konfranslar keçirildi. "Naxçıvanda ilk məktəbin yaranması və maarifçilik hərəkatının inkişafı" (1997), "Uluslararası Dədə Qorqud simpoziumu" (1998, "Van Yüzüncü il" Universiteti ilə birlikdə), "Yaxın tariximizdə Naxçıvan və Qars" (1999, Qars Qafqaz Universiteti ilə birlikdə), "Naxçıvanda kiçik biznesin və sahibkarlığın inkişafı" (2000, ABŞ-ın Perdu Universiteti ilə birlikdə), "Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları və onlardan istifadənin səmərəli yolları" (2001, Azərbaycan Respublikasının Elm və Texnika Komitəsi ilə birlikdə) kimi beynəlxalq simpozium və konfranslar elmin müxtəlif problemlərinə həsr edilmiş, elmi əlaqələrin genişlənməsinə səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun elmin, təhsilin və mədəniyyətin inkişafına üstün münasibəti və həmin istiqamətdə regionda apardığı fədakar iş müəyyən olunmuş dövlət siyasətinin uğurla həyata keçirilməsinə

səbəb olmuşdur.

Ali Məclisin Sədri Naxçıvanda elmi qurumların statusunun artırılması, Naxçıvanın hərtərəfli öyrənilməsi üçün yeni elmi müəssisənin yaradılması ilə bağlı ölkə prezidentinə müraciət etmişdir. Müraciət və təklif təqdir olunmuş və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə AMEA Naxçıvan Bölməsi yaradılmışdır. Bu bölmənin yaradılması strateji məqsədlərə hesablanmış və muxtar respublikada elmin daha da inkişaf etməsinə geniş imkanlar açmışdır.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və Naxçıvan Özəl Universitetinin professor-müəllim heyətinin üzvləri də Naxçıvanda elmin inkişafında, elmi kadrların hazırlanmasında yaxından iştirak edirlər.

Elmin inkişafı bilavasitə elmi kadrların səviyyəsindən, elmi fəaliyyətindən asılıdır. Naxçıvan Dövlət Universitetində və AMEA Naxçıvan Bölməsində doktorantura və dissertantura yolu ilə elmi kadrların hazırlanmasına diqqət yetirilmişdir. 1998-ci ildən Naxçıvan Dövlət Universitetində 4 ixtisas üzrə Dissertasiya Şurasının fəaliyyəti yüksək ixtisaslı elmi kadrların hazırlanmasına öz müsbət təsirini göstərmişdir. 2006-cı ildən isə AMEA Naxçıvan Bölməsində də 3 ixtisas üzrə Dissertasiya Şurası yaradılmışdır. Bu şuralarda muxtar respublikanın elmi iş aparan tədqiqatçıları namizədlik və doktorluq dissertasiyaları müdafiə etmişlər. 1998-2010-cu illərdə muxtar respublikamızda yaşayan gənc tədqiqatçılardan 100 nəfəri namizədlik dissertasiyası müdafiə edərək elmi dərəcə almışlar. 16 nəfər isə doktorluq dissertasiyası müdafiə etmişdir. Azərbaycan Milli Elmlər Akademiyasına 2003 və 2007-ci illərdə keçirilən

seçkilərdə Naxçıvandan olan elm adamlarından 2 nəfəri akademik, 7 nəfəri isə müxbir üzv seçildilər.

Elmi-tədqiqat işlərinin səmərəliliyi onun üçün yaradılmış maddi-texniki baza ilə bilavasitə əlaqədardır. Müasir elm texnika və texnologiyanın ən son nailiyyətlərinə istinad ediləndə uğur qazana bilir. Bu cəhətdən həm Naxçıvan Bölməsində, həm də ali təhsil müəssisələrində olan şöbə və laboratoriyaların cihaz və avadanlıqlarla təchizi məsələsi diqqəti cəlb edir. Artıq hər bir elmi işçinin kompyuter ilə təmin edilməsi və internet şəbəkəsindən istifadə etməsi, ən son istehsal edilmiş cihazlar əsasında tədqiqat aparmaq imkanları reallaşır. Hər il bu məqsədlərə xeyli vəsait sərf edilir. Təkcə 2010-cu ilin I yarısında AMEA Naxçıvan Bölməsinin Kimya və Biokimya laboratoriyaları üçün 32 adda cihaz və avadanlıqlar alınmışdır. Naxçıvan Bölməsinin əməkdaşları üçün ən yaxşı təchiz edilmiş şöbə və laboratoriyalar qurulmuşdur.

Elmi-tədqiqat işlərinin nəticələri dünyanın müxtəlif ölkələrinin nüfuzlu jurnallarında, ölkəmizin və muxtar respublikamızın elmi jurnallarında, xəbərlərində dərc edilir. 1995-2010-cu illərdə muxtar respublika alimlərinin 128 monoqrafiyası, 450-yə yaxın kitabı, 280-dən çox dərslik, dərs və tədris vəsaiti, 8200-ə yaxın elmi məqaləsi nəşr edilmişdir. Artıq AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i, Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər"i və Naxçıvan Müəllimlər İnstitutunun "Xəbərlər" jurnalları Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qəbul etdiyi dövri nəşrlər sırasına daxil edilmişdir.

Ali Məclis Sədrinin bilavasitə dəstəyi, qayğısı və himayəsi ilə Naxçıvan Muxtar Respublikasının tarixinin, abidələrinin, folklorunun, ədəbi-mədəni mühitinin, biomüxtəlifliyinin, təbii sərvətlərinin öyrənilməsi istiqamətində tədqiqat işləri aparılmış,

bir sıra ümumiləşdirici əsərlər, kitab və monoqrafiyalar çap edilmişdir. Belə əsərlərə aid "Naxçıvan Ensiklopediyası"nı (2 cilddə) "Naxçıvanın Tarixi Abidələri" Ensiklopediyasını (ingilis və Azərbaycan dilində), "Naxçıvan: Tarixi və Abidələri"ni (ingilis və Azərbaycan dilində), "Naxçıvanın Tarixi Atlası"nı, "Naxçıvanın Folklor Antologiyası"nı, "Naxçıvan Teatrının Salnaməsi 1883-2008", "Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı"nı (I və II cild - lər) və b. göstərə bilərik.

Naxçıvanlı alimlər hər il dünyanın müxtəlif nüfuzlu jurnallarında elmi məqalələrini nəşr etdirirlər. Bir sıra jurnalların xüsusi nömrələri Naxçıvana həsr olunur. "İrs", "Folklor və ədəbiyyat", "Yol" və b. bu kimi jurnalların xüsusi nömrələri naxçıvanlı alimlərin əsərləri əsasında hazırlanmışdır.

Elm və tədris müəssisələrində aparılan elmi-tədqiqat işlərinin nəticələri geniş müzakirə edilir, uğurlar təqdir edilir, "İlin alimi" adına layiq görülən tədqiqatçılar mükafatlandırılır, nöqsanların, çatışmazlıqların aradan qaldırılması yolları müəyyənləşdirilir. İlk dəfə olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiya iclası və AMEA Rəyasət Heyətinin üzvlərinin iştirakı ilə AMEA Naxçıvan Bölməsinin 2008-ci ilin elmi və elmi-təşkilati fəaliyyətinin yekunlarına həsr edilmiş hesabat yığıncağı keçirilmişdir. Hesabat yığıncağında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov proqram xarakterli çıxış etmişdir. Çıxışda əldə olunan uğurlar qeyd edilməklə yanaşı, çatışmazlıqlar da göstərilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Ali Məclisin Sədrinin çıxışında elmi-tədqiqatların faydalı iş əmsalının daha da artırılması, yeni elmi istiqamətlərin müəyyənləşdirilməsi, elmi tədqiqatların davamlı və sistemli xarakter alması mühüm vəzifə kimi tədqiqatçıların qarşısında qoyulmuşdur.

Muxtar respublikada tarix, arxeologiya, etnoqrafiya, toponimika istiqamətlərdə uğurlu tədqiqatlar aparan naxçıvanlı alimlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında", "Naxçıvan şəhərindəki "Əcəmi seyrəngahı"nda Açıq Səma Altında muzey yaradılması haqqında", "Naxçıvan Muxtar Respublikasının ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında", "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsində mühüm rol oynamışlar. Naxçıvan ərazisindəki tarix və mədəniyyət abidələri müəyyənləşdirilmiş, öyrənilmiş və pasportlaşdırılmışdır. Muxtar respublika ərazisində bugünədək 1197 abidə qeydə alınmışdır. Dünya və ölkə əhəmiyyətli 550-yə yaxın abidə əsasında "Naxçıvan Abidələri" Enskilopediyası hazır - lanmışdır.

Əvvəlki illərdə olduğu kimi, 2001-2010-cu illərdə də beynəlxalq və respublika səviyyəli elmi konfranslar, simpoziumlar keçirilmiş, bu elmi tədbirlərdəki məruzələr toplu halında nəşr edilmişdir. "Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyəti, təbii sərvətlərinin öyrənilməsi" (2004), "Azərbaycanda elmin inkişafı və regional problemlər" (2005), "Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri" (2006), "Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik (2007), "Naxçıvan bu gün: islahatlar, perspektivlər" (2008), "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan" (2009) mövzusunda keçirilən elmi konfrans və simpoziumlar elmin inkişafına təsir etmişdir. Naxçıvanda elmin qayğıkeşi və himayəçisi olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu simpoziumların keçirilməsinə dəstək verdiyi

kimi, həmin tədbirlərin bir çoxunda iştirak etmiş və proqram xarakterli çıxışlar etmişdir.

Naxçıvanın elm adamları dünyanın müxtəlif ölkələrində keçirilən elmi tədbirlərdə iştirak və çıxış edirlər. Bu isə elmi əlaqələrin genişlənməsinə və elmi potensialın inkişafına müsbət təsir göstərir.

Ümummilli lider Heydər Əliyev həm 70-80-ci illərdə, həm də ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra həmişə respublikada ziyalıların rəğbətləndirilməsinə diqqət və qayğı göstərmişdir. Bu qayğını Naxçıvanın maarifçi ziyalıları və elm adamları daim hiss etmişlər. Naxçıvanın bir qrup elm və təhsil işçisi orden və medallarla təltif olunmuş, yüksək fəxri adlara layiq görülmüş, elm və təhsil işçilərindən 2 nəfəri Azərbaycan Milli Məclisinə, 15 nəfəri isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmişdir.

Ölkə Prezidenti İlham Əliyevin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun ziyalılara göstərdiyi diqqət və qayğı Azərbaycanın hər yerində, o cümlədən muxtar respublikada yeni mərhələdə elmin, milli ziyalılığın inkişafına özünün müsbət təsirini göstərməkdədir.

1995-2010-cu illərdə muxtar respublikada bütün sahələr öz dinamik yüksəlişi ilə diqqəti cəlb edir. Belə sahələrdən biri də **səhiyyə** sahəsidir. Səhiyyə sisteminin yenidən qurulmasını, əhalinin sağlamlığının daha yaxşı təşkilini, bu sahədə yeni texnologiyaların tətbiqini və kadr potensialının hazırlanmasını özündə əks etdirən dövlət proqramları muxtar respublikada uğurla həyata keçirilir. 1996-cı ildən başlayaraq muxtar respublikanın sosial-iqtisadi həyatında baş verən müsbət irəliləyişlər səhiyyə sisteminin fəaliyyətinə də təsir göstərmiş və əhaliyə göstərilən tibbi xidməti

yaxşılaşdırmaq üçün tədbirlər həyata keçirilmişdi.

Muxtar respublikada 55 xəstəxana, 5 poliklinika, 49 ambulatoriya, 123 feldşer-mama məntəqəsi, 8 gigiyena və epidemiologiya mərkəzi, 5 təcili-tibbi yardım köməkçi stansiyası, 62 aptek və aptek məntəqəsi vardır. Tibbi xidmət müəssisələrində 693 nəfərə qədər həkim, 2891 orta tibb işçisi çalışır. Əhalinin hər 10 min nəfərinə 102 xəstəxana çarpayısı, 19 həkim, 80 orta tibb işçisi düşür. Xəstəxana çarpayılarının 24,4 faizi kəndlərdə, 75,6 faizi şəhər və rayonların mərkəzlərindədir.

Naxçıvan Muxtar Respublikasında 2003-cü ildə 93,9 min nəfərə ambulator yardımı və çağırış zamanı yardım göstərilmişdi ki, bu da 1990-cı ilə nisbətən 47 min nəfər çox idi. Əhalinin hər min nəfər hesabı ilə bu göstərici müvafiq olaraq 154,4 nəfərdən 254,9 nəfərə qədər artmışdı. Ölkə üzrə əhalinin hər min nəfərinə bu göstərici 109,4 nəfər olmuşdu.

1994-97-ci illərdə ABŞ-ın AMOKO şirkəti ilə "Amerikez" xeyriyyə cəmiyyəti Naxçıvan Muxtar Respublikasında yoluxucu xəstəliklərə qarşı planlı "Soyuq zəncir" adlı immunlaşdırma proqramı həyata keçirdilər. İmmunlaşdırma proqramı sayəsində muxtar respublikada difteriya, poliomielit, göyöskürək xəstəliklərinin və idarə olunan digər yoluxucu xəstəliklərin miqdarı kəskin surətdə azaldı. 1998-ci ildən vərəm xəstəliyinə qarşı mübarizəni gücləndirmək məqsədilə "AMOKO" neft şirkəti və "Amerikez" xeyriyyə cəmiyyəti vasitəsilə 110 min doza tuberkulin şirəsini Naxçıvana gətirdi. Bundan başqa həmin il Türkiyə Cümhuriyyəti Naxçıvandakı Baş Konsulluğun vasitəsi ilə 50 min doza tuberkulin, 1999-cu ildə isə 30 min ABŞ dolları dəyərində vərəmə qarşı spesifik dərman preparatları alındı. 1998-ci ildə 80 min nəfərdən artıq 1-17 yaşadək uşaqlara tuberkulin sınağı aparıldı.

1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda ilk dəfə olaraq "Əfsanə" özəl müayinə və diaqnostika müəssisəsi açıldı. 1999-cu ilin noyabrında Naxçıvan şəhərində "Şəfa" özəl sağlamlıq ocağı-xəstəxana fəaliyyətə başladı.

Muxtar respublikada səhiyyənin inkişaf tempi yüksələn xətlə getmişdir. 1995-2000-ci illərdə 21 səhiyyə müəssisəsi əsaslı şəkildə təmir edilərək istifadəyə verilmişdir.

Zərifə xanım Əliyeva adına Naxçıvan şəhər poliklinikası, onkoloji və nevroloji dispanserlər, şəhər xəstəxanası əsaslı təmir olunmuş, bu müalicə ocaqları müasir diaqnostik və digər avadanlıqlarla təmin olunmuşdur. Xəstəxanalar kompleksinə tranzit elektrik xətti çəkilmiş, bütün xəstəxanalar mərkəzləşmiş istilik sisteminə qoşulmuşdur.

Ölkə Prezidenti Heydər Əliyev öz fondundan 700 milyon manat vəsait ayırmış, ən müasir rentgen aparatı alınaraq quraşdırılmışdır. Respublika xəstəxanasında hemodializ aparatı qurulmuş, ultrasəslə müayinə kabineti yaradılmışdır.

Rayon mərkəzlərindən Şərur, Culfa, Şahbuz, Kəngərli və Sədərəkdə Mərkəzi xəstəxanalar tikilmiş və ya yenidən qurulmuş, əsaslı təmir olunmuşdur. Mərkəzi xəstəxanalara ən müasir ultrasəs tibbi müayinə aparatı, avadanlıqlar, təcili yardım maşını verilmişdir.

Muxtar respublikanın iri yaşayış yerlərində, kənd və qəsəbələrində xəstəxanalar, əksər kəndlərində isə feldşer-mama məntəqələri yaradılmışdır.

2001-2005-ci illərdə muxtar respublikada Özəl Tibb Mərkəzi, Gigiyena və Epidemiologiya Mərkəzi, Duzdağ Fizioterapiya Xəstəxanası, Əlillərin Bərpa Mərkəzi, Ağciyər Xəstəlikləri Dispanseri, Mərkəzi Uşaq Xəstəxanası, "İmplant-dent" Stomatoloji Klinikası, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi üçün

tədris binası və xəstəxana tikilmiş və ya əsaslı surətdə yenidən qurularaq istifadəyə verilmişdir. Bu və ya digər səhiyyə ocaqları müasir avadanlıqlar, son model aparatlarla təmin edilmişdir.

2001-ci ildə tibbi xidmətin səviyyəsinin yaxşılaşdırılması məqsədilə kardioloji, endokrinoloji, dəri-zöhrəvi dispanseri, göz xəstəxanası tibb şəhərciyə, vərəm əleyhinə dispanser isə yeni təmir edilmiş binaya köçürülmüşdür. Naxçıvan Muxtar Respublikası Narkoloji dispanserinə alkometr aparatı, Respublika Göz xəstəxanasına oftolmoloji mikroskop alınmış, 2002-2003-cü illərdə yeni cihaz və avadanlıqların alınması davam etdirilmiş, Respublika xəstəxanasına USM aparatı, 2 dializ, 1 kompyuter tomoqraf, 2 ədəd rentgen aparatı alınmış və quraşdırılmış, Naftalanla müalicə şöbəsi yaradılmışdır. 15 ədəd qazel tipli avtomaşınlar alınmış, tibb müəssisələrinə verilmişdir.

2005-ci ildə Darıdağ arsenli su müalicəxanası üçün yeni bina tikilib istifadəyə verilmiş, avadanlıqlarla təchiz edilmişdir. Muxtar respublikanın tibb müəssisələrinə 20 ədəd sanitar avtomobili verilmişdir. Ağciyər xəstəlikləri dispanserinə səyyar flüoroterapiya aparatı, laboratoriya alətləri verilmişdir.

Respublika Prezidenti İlham Əliyevin himayəsi ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin tikintisi səhiyyəyə göstərilən qayğının nəticəsidir. Naxçıvan Muxtar Respublikasının səhiyyə sistemində bir sıra struktur dəyişiklikləri aparılmış, Ordubad şəhərində uşaq xəstəxanası, təcili tibbi yardım yarımstansiyası ləğv edilmiş və Mərkəzi Rayon Xəstəxanasının tərkibində şöbələr yaradılmışdır.

2006-cı ildə səhiyyə müəssisələrinin əsaslı təmiri və tikintisi davam etdirilmiş, bir müalicə və diaqnostika mərkəzi, bir xəstəxana, kəndlərdə 11 həkim ambulatoriyası, 2 feldşer-mama məntəqəsi

tikilmiş, 2 xəstəxana əsaslı şəkildə yenidən qurulmuşdur. Ambulatoriya, hemodializ aparatı, "Dopler" aparatı və başqa avadanlıqlar alınaraq səhiyyə müəssisələrinə verilmişdir. Onlarla kənddə (Tənənəm, Xincab, Bənəniyar, Qaraqala, Mahmudova və b.) feldşer-mama məntəqəsi yaradılmış, avadanlıqlarla təchiz edilmişdir.

Muxtar respublika ərazisində qızılca və məxmərəyə qarşı Milli İmmunlaşdırma kampaniyası keçirilmişdir. 7-23 yaş arasında 94457 nəfərdə peyvənd aparılmışdır. İmmunlaşdırmanın əhəmiyyətini nəzərə alaraq 20499 nəfər əlavə olaraq peyvəndə cəlb edilmişdir.

Naxçıvan Muxtar Respublikası rəhbərliyinin səhiyyənin inkişafına göstərdiyi qayğı təkcə yeni tibb ocaqlarının istifadyə verilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi ilə məhdudlaşmamışdır. Bu sahədə dövlət siyasətinin mühüm bir istiqaməti də yüksək ixtisaslı həkim briqadalarının muxtar respublikaya gətirilməsi və xüsusilə aztəminatlı ailələrdən olan xəstələrin dövlət vəsaiti hesabına müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkilidir. Bunun üçün muxtar respublikada hər cür şərait yaradılmış, ən müasir cihaz və avadanlıqlarla təchiz edilmiş Müalicə və Diaqnostika Mərkəzi istifadəyə verilmişdir. Mərkəzi Neftçilər xəstəxanasının həkim və orta tibb işçiləri Naxçıvana gəlir, xəstələrin müayinə və müalicəsində iştirak edirlər.

Muxtar respublika rəhbərliyinin səhiyyə sahəsinə göstərdiyi qayğı 2009-2010-cu illərdə davam etmişdir. Bunun nəticəsidir ki, bu dövrdə muxtar respublikada Doğum Mərkəzi, Onkoloji Mərkəz, Psixi Xəstəliklər Dispanseri tikilib istifadəyə verilmişdir. Bu səhiyyə müəssisələri içərisində öz möhtəşəmliyi və gözəlliyi ilə Naxçıvan şəhərinin gözəlliyinə gözəllik qatan Doğum Mərkəzinin binasıdır. Ölkə başçısı İlham Əliyev binanın açılış mərasimində

iştirak etmişdir. Doğum Mərkəzindəki şöbələr, kabinələr, kabinetlər, əməliyyat otaqları dünya standartları səviyyəsində qurulmuşdur. Son 15 ildə 173 səhiyyə obyektinin istifadyə verilməsi səhiyyənin inkişaf səviyyəsi haqqında hər şeyi deyir.

Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında mühüm rol oynayan, insanların sağlamlığı keşiyində duran səhiyyə müəssisələri inkişaf səviyyələri və fəaliyyətləri ilə insanlara sevinc bəxş edir.

Qədim tarixə, zəngin mədəniyyətə malik Naxçıvan Muxtar Respublikası sürətlə inkişaf edir. İnkişaf səviyyəsinə görə muxtar respublikanın heç bir dövrünü 1995-2010-cu illərlə müqayisə etmək olmaz. Bu, **mədəni-maarif** müəssisələrinin inkişafına da aiddir. Muxtar respublika rəhbərliyinin apardığı məqsədyönlü işin nəticəsidir ki, bu tərəqqi mədəniyyətin inkişafında da özünü göstərməkdədir. Muxtar respublikada mədəni-maarif müəssisələrinin geniş şəbəkəsi yaradılmışdır. Naxçıvan Muxtar Respublikasının mədəni-maarif müəssisələri, tarix və mədəniyyət abidələri heç vaxt indiki qayğını görməmiş və bu səviyyədə qorunmamışdır.

1995-2010-cu illərdə 272 mədəniyyət obyekti tikilmiş və ya əsaslı təmir olunmuşdur. Bu illər ərzində mədəniyyət müəssisələrinin şəbəkəsinin genişləndirilməsi ilə bağlı mühüm addımlar atılmışdır. Belə ki, 1997-2002-ci illər ərzində muxtar respublikada 8 muzey yaradılmış, muzeylərin sayı 13-dən 21-ə çatdırılmış, maddi-mədəniyyət nümunələrinin sayı 80 mindən 107 minə qaldırılmışdır. Naxçıvan şəhərində Xatirə muzeyi, Xalça muzeyi, Heydər Əliyev muzeyi, Açıq Səma Altında muzey, Dövlət Tarix muzeyi, Ədəbiyyat muzeyi, Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin, Məmməd Səid Ordubadinin, Y. Məmmədəliyevin ev muzeyləri, Bəhruz Kəngərli muzeyi, Babək və Sədərək rayonlarında tarix-diyarşünaslıq

muzeyləri yaradılmış, yaxud yenidən qurulmuşdur.

Muzeylər üçün yeni binaların ayrılması, təmiri və yenidən qurulması sonrakı illərdə də davam etdirilmişdir. Muzeylər tarixi keçmişimizi gələcəyə aparan əsas vasitədir. Bu vasitə hər cür qorunmalı və inkişaf etdirilməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 iyul 2002-ci il tarixli Sərəncamı ilə Əcəmi seyrəngahında Açıq Səma Altında muzey yaradıldı. Əsas məqsəd isə qədim tarixə malik olan diyarımızın daş kitabələri, qoç fiqurları, qəbirüstü daşları mühafizə və nümayiş etdirmək, mədəniyyət nümunələri vasitəsilə tarixmizin qədimliyini göstərməkdir. Muzey 80 eksponatla fəaliyyətə başlasa da, bu gün onların sayı 300-dən çoxdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart tarixli Sərəncamı ölkəmizdə bu sahənin inkişafına əlavə stimul vermişdir. Muxtar respublikada muzeylərin şəbəkəsinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və iş şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, Naxçıvan Dövlət Tarix muzeyi, Şahbuz və Babək tarix-diyarşünaslıq muzeyləri, Naxçıvan Muxtar Respublika Ədəbiyyat muzeyi yeni binalara köçürülmüş, bir sıra muzeylər əsaslı təmir olunmuş, ekspozisiyaları yenidən qurulmuşdur.

Ölkə başçısı 22 may 2009-cu il tarixdə "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planının təsdiq edilməsi haqqında" Sərəncam imzalamışdır. Həmin sərəncamdan sonra Ordubad şəhərində M.S.Ordubadinin ev muzeyi yenidən qurulmuşdur. Naxçıvan Dövlət Xalça muzeyi yeni binaya köçürülmüş, Kəngərli rayonunun

Şahtaxtı kəndində Şahtaxtinskilərin ev muzeyi yaradılmışdır. Muzeylərin işindən bəhs edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: **"...İş muzeylərin yaradılması ilə bitmir, onların daim zənginləşdirilməsi, tamaşaçıların muzeylərə cəlb olunması işinə də ciddi diqqət yetirilməlidir. Çünki muzey eksponatları bizim tariximizdir, tariximizi qorumaq, öyrənmək, təbliğ etmək isə ən vacib məsələlərdən biridir".**

Muxtar respublikanın mədəni-maarif müəssisələri arasında kitabxanaların xüsusi yeri vardır. 219 kütləvi kitabxana vardır ki, burada 2.799.200 kitab fondu mövcuddur. Bu kitabxanalar hər il 150-160 min nəfərə kitabxana xidməti göstərir. 2006-cı ildə 139293, 2007-ci ildə isə 46650 nüsxə latın qarfikalı kitab və digər çap məhsulları alınmış və kitabxanalara paylanmışdır. 205 kitab müəssisəsində əhalinin asudə vaxtının səmərəli təşkilini yaxşılaşdırmaq, milli-mənəvi dəyərlərimizin qorunması və təbliği, özfəaliyyətin inkişafı sahəsində ardıcıl işlər aparılır.

2005-ci ildə muxtar respublikada 2 peşəkar teatr, Naxçıvan, Ordubad və Şərur Xalq teatrları, H.Cavid adına poeziya teatrı fəaliyyət göstərmişdir. "Şərur" Xalq Yallı Ansamblı müxtəlif illərdə Türkiyədə, Misirdə, "Şərur qönçələri" yallı qrupu isə bir sıra ölkələrdə ölkəmizi müvəffəqiyyətlə təmsil etmişlər. Naxçıvan Dövlət Musiqili Dram Teatrı bu illər ərzində Türkiyə Respublikasının, İran İslam Respublikasının müxtəlif şəhərlərində, Bakı şəhərində, respublikamızın digər bölgələrində dəfələrlə qastrol səfərlərində olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyi geniş şəkildə qeyd edilmişdir. Teatr kollektivinin bir qrup əməkdaşı ən yüksək mükafatlara, fəxri adlara layiq görülmüşdür.

Məmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla teatrı müxtəlif illərdə Bakıda, İran və Türkiyənin müxtəlif şəhərlərində qastrol səfərlərində olmuşdur.

2006-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə Naxçıvan Dövlət Uşaq Teatrı yaradılmışdır. Qısa zaman ərzində bu teatr muxtar respublikanın mədəni həyatında layiqli yer tuta bilmişdir.

Naxçıvan Dövlət Universitetinin Tələbə teatr studiyası, Tələbə opera studiyasının hazırladığı tamaşalar və operalar Azərbaycan tamaşaçıları ilə yanaşı, Rusiya, Türkiyə və Gürcüstan tamaşaçılarına da yüksək səviyyədə təqdim edilmişdir.

Muxtar respublikada Xalq Çalğı Alətləri Orkestri, Kamera Orkestri, Mahnı və Rəqs Ansamblı fəaliyyət göstərir. Naxçıvan Dövlət Filarmoniyası Azərbaycanın digər bölgələrində, eləcə də Türkiyədə qastrolda olmuş, mədəni xidmət göstərmişdir.

Naxçıvan Muxtar Respublikasının incəsənət ustalarının Naxçıvan Muxtar Respublikasının 85 illiyi ilə əlaqədar Moskva şəhərində, Türkmənistanda keçirilən Azərbaycan mədəniyyəti günlərində və Türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilən IX Zirvə görüşündəki konsertdə çıxışları professional musiqi kollektivlərinin formalaşdığını göstərir.

Naxçıvan Muxtar Respublikasının ərazisi tarix və mədəniyyət abidələri ilə zəngindir. Tarix və mədəniyyət abidələri özlərinin ikinci həyatını yaşayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 6 dekabr 2005-ci il tarixli Sərəncamından sonra bu sahəyə diqqət artırılmışdır. Qeyd etməliyik ki, Naxçıvan diyarının tarixinin və arxeologiyasının öyrənilməsi ilə bağlı

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 12 fərman və sərəncamı olmuşdur. Bu fərman və sərəncamlardan sonra 20-yə yaxın tarixi abidə bərpa və konservasiya edilmişdir. Bunlara misal olaraq Mömінə Xatın və Qarabağlar memarlıq komplekslərini, Əshabi-Kəhf, İmamzadə, Buzxana abidələrini, Came məscidini, Zaviyyə-mədrəsə binasını, İsmayılxan hamamını, Yusif Küseyr oğlu türbəsini, Xan Sarayını, Ordubadda Aza körpüsünü, Şərq hamamını, qədim Zorxana (Qeysəriyyə) abidəsini, Culfadakı Xanəgah kompleksini göstərmək olar.

Bəhs olunan illərdə bir sıra mədəniyyət və istirahət parkları təmir olunmuş, yenidən qurulmuşdur. Naxçıvan şəhərində Heydər Əliyev Sarayı, Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı, Şərur şəhərində Heydər Parkı və bir sıra ev muzeylərin tikintisi başa çatdırılmışdır. 2009-cu ildə inşa olunmuş kənd mərkəzlərində 11 ki-tabxana, 11 mədəniyyət evi və klub əhalinin istifadəsinə verilmişdir.

Beləliklə, son on beş il ərzində mədəni-maarif sahəsindəki dəyişikliklər və inkişaf Muxtar Respublika Ali Məclisinin Sədri Vasif Talıbovun məqsədyönlü fəaliyyətinin, qətiyyətli və prinsipial mövqeyinin və fədakar işinin nəticəsi kimi ortaya çıxmışdır.

Ölkəmizdə **gənclərlə** bağlı tədbirlər, **idman** siyasəti uğurla aparılır. Bu təsadüfi deyildir. Ölkə rəhbərinin ölkəmizin gələcəyini, uğurlarını gənclərdə və onların sağlamlığında gördüyündəndir ki, bu sahəyə son illərdə xüsusi diqqət və qayğı var.

Azərbaycan Respublikası Prezidentinin gənclər siyasətini muxtar respublikada qətiyyətlə həyata keçirən Ali Məclis Sədri idmanın inkişafı, idman şəbəkələrinin qurulması üçün 14 idman növü üzrə federasiyalar yaratmış, onlara rəhbərlik və istiqamət vermişdir.

2 fevral 1996-cı ildə müstəqil Azərbaycan Respublikası

gənclərinin birinci Forumunun keçirilməsi respublikanın, eləcə də muxtar respublikanın həyatında müstəsna əhəmiyyətə malik bir hadisə oldu. Forum gənclərlə işin nəzərə çarpacaq dərəcədə canlanmasına səbəb oldu və ölkəmiz qarşısında duran vəzifələrin həyata keçirilməsində gənclərin fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi.

28 fevral 1996-cı ildə Naxçıvan Muxtar Respublika Gənclərinin Birinci Konfransı keçirildi və burada gənclərlə bağlı problemlər müzakirə edildi, vəzifələr müəyyənləşdirildi. Muxtar respublika gənclərinin 28 fevral 1996-cı ildə I, 26 aprel 2002-ci ildə və 9 sentyabr 2005-ci ildə növbəti konfransları keçirilmişdir. Naxçıvanda keçirilən muxtar respublika gənclərinin konfranslarında ictimai-siyasi həyatda gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, onların problemlərinin həllinə diqqətin yönəldilməsi əsas istiqamətlər olmuşdur.

Ölkə Prezidenti 29 iyul 1999-cu il tarixdə "Dövlət Gənclər siyasəti haqqında" Fərman imzaladı, tədbirlər planı təsdiq etdi. Dövlət idarəetmə orqanlarında gənclərin məsul işlərə cəlb olunması, bələdiyyə seçkilərində gənclərin daha geniş təbəqələrinin iştirakının təmin olunması, gənclərin öz yaradıcılıq potensialını gerçəkləşdirməsi üçün şərait yaradılması və digər tədbirlər muxtar respublikada həyata keçirilməyə başlanmışdır.

Muxtar Respublikanın gəncləri Naxçıvandakı ali təhsil müəssisələrində, lisey və kolleclərdə təhsil alır, torpaqlarımızın qorunmasında bilavasitə iştirak edirlər. Gənclərimiz Heydər Əliyev adına Uşaq-Gənclər Yaradıcılıq Sarayında yaradıcı qabiliyyətlərini inkişaf etdirirlər.

Respublikamızda gənclər siyasəti müasir tələblərə uyğun şəkildə inamla inkişaf etdirilir və uğurla həyata keçirilir. Ölkə

Prezidentinin 30 avqust 2005-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər)" Naxçıvan Muxtar Resçpublikasında icrası ilə əlaqədar tədbirlər planı Ali Məclis Sədri tərəfindən imzalanan sərəncamla təsdiq edilmişdir. Tədbirlər planının məqsədi muxtar respublikada gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək üçün sosial-iqtisadi və təşkilati-hüquqi şərait yaratmaqdır.

Ölkə Prezidentinin xüsusi istedada malik olan gənclərin yaradıcılıq potensialının inkişaf etdirilməsi ilə bağlı dövlət proqramına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 30 may 2006-cı il tarixdə sərəncamı olmuşdur. Bu sərəncam uşaq, yeniyetmə və gənclərin qabiliyyətlərinin aşkar edilməsinə, asudə vaxtlarının səmərəli təşkilinə, intellektual səviyyələrinin yüksəldilməsinə geniş şərait yaratmışdır. Hazırlanan tədbirlər planına uyğun olaraq rəsm, şeir, inşa yazı, folklor, texniki yaradıcılıq, bilik müsabiqələri və digər müsabiqələr keçirilmişdir.

Böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsinə diqqət və qayğı muxtar respublikada ön planda olmuşdur. "Şahin" və "Cəsurlar" hərbi-idman və turizm oyunlarının keçirilməsi və Naxçıvan komandalarının respublika birinciliyində ən yüksək yer tutmaları muxtar respublikada gənclər siyasətinin əsas istiqamətlərindən olan vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə olmasının aydın göstəricisidir.

Muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biri də gənclərin asudə vaxtlarının səmərəli təşkil olunmasıdır. Burada həyata keçirilən geniş miqyaslı abadlıq-quruculuq işlərinin gənclər siyasətinə böyük

təsiri olmuşdur. Belə ki, Naxçıvan şəhərində "Gənclik Mərkəzi", Şərur rayonunda "Bahar" kinoteatrı, Şahbuz rayonunda "Araz" kinoteatrı və Babək rayonunda "Mədəniyyət evi" tikilərək gənclərin istafadəsinə verilmişdir.

Naxçıvan şəhərində və rayon mərkəzlərində İnternet mərkəzlərinin fəaliyyət göstərməsi gənclərin qlobal şəbəkə vasitələrilə dünyaya açılmalarına geniş şərait yaratmışdır.

Gənclərin sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə, sosial vəziyyətlərinin yaxşılaşdırılmasına, evlə və işlə təmin olunmasına böyük diqqət göstərilmişdir.

Dövlət Gənclər siyasətinin prioritet istiqamətləri kütləvi bədən tərbiyəsi və idmana diqqəti yönəldərək sağlam gəncliyin yetişməsidir. 1997-ci ildə Milli Olimpiya Komitəsinə Prezident seçilən İlham Əliyev Azərbaycan idmanının ən yüksək zirvələri fəth etməsinə nail oldu. Naxçıvan idmançıları bir sıra beynəlxalq səviyyəli yarışlarda iştirak etmiş və qələbə qazanmışlar. Muxtar respublikanın idmançıları Dünya çempionatlarından qızıl medalla qayıtmışlar. İdmanın sərbəst güləş, karate-do, pauerliftinq, boks, cüdo, kikboks növləri üzrə beynəlxalq turnirlərindən, Dünya və Avropa çempionatlarından qızıl, digər idman növləri üzrə gümüş, bürünc medallarla geri dönmüşlər.

1995-2010-cu illərdə Naxçıvan idmanının əldə etdiyi uğurların əsas şərti muxtar respublika rəhbərinin bu sahəni özünün himayəsinə alması, diqqət və qayğı göstərməsi və maddi-texniki bazasının möhkəmləndirilməsidir. Milli Olimpiya Komitəsi və muxtar respublika rəhbərliyinin qayğısı ilə 2002-ci ildə Naxçıvan şəhərində Olimpiya-İdman Kompleksi tikilərək istifadəyə verildi. 2003-cü ildə bu kompleksdə 20 yaşa qədər şahmatçılar arasında 30 ölkənin 77 idmançısının iştirakı ilə dünya çempionatı

keçirildi. Onlardan iki nəfəri muxtar respublikanın şahmatçısı idi.

Muxtar respublika rəhbərliyinin qayğısı ilə bir sıra idman obyektləri tikilərək gənclərin istifadəsinə verildi. Belə ki, Naxçıvan şəhərində, Şərur, Sədərək və Şahbuz rayonlarında stadionlar, Culfa rayon uşaq gənclər idman məktəbi, "Dinamo" idman cəmiyyətinin binası və yanında süni örtüklü mini futbol meydançası, Şərur rayonunda əl oyunları idman kompleksi, boks və güləş idman zalları, "Gənclik" idman mərkəzi, Naxçıvan şəhərində əl oyunları süni örtüklü idman meydançası, Naxçıvan Şəhər Üzgüçülük Mərkəzi, Heydər Əliyev adına Hərbi Liseydə süni örtüklü mini futbol meydançası, Naxçıvan Dövlət Universitetində açıq idman kompleksi, yaşıl örtüklü stadion, süni örtüklü mini futbol meydançası, Olimpiya İdman Korpusu tikilib və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilmişdir. Muxtar respublikada fəaliyyət göstərən orta məktəblərdə idman zalları mövcuddur. 2005-ci ildə muxtar respublikada 15 stadion, 957 sadə idman meydançası, 129 idman zalı, 71 atıcılıq tiri, 1 üz - güçülük hovuzu, 1 olimpiya idman kompleksi, 1 sağlamlıq kompleksi, 27 uyğunlaşdırılmış otaq, Şərur rayonunda əl oyunları mini-idman kompleksi, Naxçıvan şəhərində idman kompleksi əhalinin istifadəsində idi. İdmançılar üçün yaradılan şərait öz nəticəsini verirdi. Bir sıra güclü idmançılar yetişdi. Naxçıvanlı idmançılar beynəlxalq səviyyəli yarışlarda uğurlar qazandılar.

Muxtar respublikada uşaq və gənclərin fiziki sağlamlığı ilə yanaşı əqli inkişaflarına da xüsusi diqqət yetirilmişdir. Şahmat idman növünün maddi-texniki bazası gücləndirilmişdir. Naxçıvan şəhərində, Culfa, Şahbuz və Şərurda yeni tipli, dünya səviyyəli uşaq-gənclər şahmat məktəbləri tikilərək istifadəyə verilmişdir.

Naxçıvan şəhərində beynəlxalq standartlara cavab verən yeni şahmat məktəbi tikilmişdir. Gənclər idmanın müxtəlif növləri üzrə məşğul olurlar və bu idmançıların sayı artır. Bədən tərbiyəsi və idmanla məşğul olanlar 1996-cı ildə 21600 nəfər, 2001-ci ildə 25985 nəfər, 2006-cı ildə 32332 nəfər, 2009-cu ildə 36076 nəfər olmuşdur. Bədən tərbiyəsi və idman kadrları artıdığ kimi, idman dərəcələri və mükafat alanların da sayı ilbəil artmışdır.

Ümumiyyətlə, muxtar respublika rəhbərliyinin diqqət, qayğı və dəstəyi ilə keçirilən bütün tədbirlər, gənclər və idman sahəsində atılan addımlar nəticəsində muxtar respublikada müasir tələblərə cavab verən, milli mentalitetimizə uyğun gələn gənclər və idman siyasəti formalaşmış və uğurla həyata keçirilməkdədir.

Göründyü kimi, son 15 il ərzində Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında, sosial-iqtisadi və mədəni inkişafında heç bir dövrlə müqayisə olunmayacaq səviyyədə hərtərəfli inkişaf baş vermiş, inkişafın Naxçıvan modeli yaranmışdır. Bu inkişaf və dəyişikliklər o qədər yüksək səviyyəyə çatmışdır ki, bir çox hallarda bunu inkişafın Naxçıvan möcüzəsi kimi də xarakterizə edirlər. Bəli, "möcüzə" yaradılmışdır, lakin Naxçıvanın sosial-iqtisadi və mədəni həyatında. "Möcüzə"nin əsasında ümummilli lider Heydər Əliyevin düşünülmüş, ölçülüb-biçilmiş siyasətinin nəticəsində hazırlanan siyasi və sosial-iqtisadi kurs, bu kursu yaradıcılıqla inkişaf etdirən və həyata keçirən ölkə Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti dayanır.

Naxçıvan Muxtar Respublikasının 1995-2010-cu illər inkişafı bilavasitə Muxtar Dövlətə uğurla rəhbərlik edən Ali Məclisin Sədri Vasif Talıbovun adı və səmərəli fəaliyyəti ilə bağlıdır. Onun əqidə bütövlüyü, Heydər Əliyev siyasi kursuna

sədaqəti, problemlərə bələdliyi, onlara milli mövqedən və dövlətçilik prinsipindən yanaşması, yorulmaz fəaliyyəti, yüksək tələbkarlığı və prinsipiallığı, eyni dərəcədə xeyirxahlığı və vətənpərvərliyi əldə olunan nailliyyətlərin əsas şərti olmuşdur.

MÖHTƏŞƏM QURUCULUĞUN 15 İLİ

MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

Makroiqtisadi sabitlik və davamlı inkişaf iqtisadi həyatımızın əsas xarakteristikasıdır

Muxtar respublikamızın müasir tarixində son 15 il yeni intibah mərhələsi kimi yadda qaldı. Zaman etibarilə o qədər də böyük olmayan bu müddət ictimai tərəqqi, iqtisadi inkişaf və sosial islahatlar yolunda əzmlə addımlayaraq muxtar dövlət qismində əsaslarını gündən-günə daha da möhkəmləndirən Naxçıvan üçün mühüm nailiyyətlərlə xarakterik olmuşdur. Bu tarixi dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursunu muxtar respublikamızda böyük əzmlə, yüksək dinamizmlə davam etdirmiş, həyata keçirilən məqsədyönlü siyasət sayəsində Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi yüksəlişinə, ictimai həyatındakı nailiyyətlərinə görə nəinki ölkəmizin iqtisadi rayonları, eyni zamanda dünya ölkələrinin oxşar muxtariyyatlara malik inzibati əraziləri arasında əhəmiyyətli dərəcədə önə çıxmışdır.

Ötən 15 il ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin məqsədyönlü fəaliyyəti nəticəsində, ilk növbədə muxtar respublikamızın hərtərəfli tərəqqisində mühüm amil olan ictimai-siyasi sabitlik qorunub saxlanılmışdır. Dəqiq müəyyənləşdirilmiş prioritetlər, elmi və təcrübi əsaslara söykənən fundamental qərarlar, muxtar respublika sakinlərinin mənafeyinə uyğun reallaşdırılan sosial-iqtisadi siyasət, mobil idarəetmə mexanizmləri, mövcud imkanlardan əhalinin rifahı naminə maksimum istifadə muxtar respublikamızın müasir tarixinin son on beş illik dövrünü səciyyələndirən ən xarakterik xüsusiyyətlərdəndir. Bu dövr ərzində

bütün iqtisadi fəaliyyət sahələrində sürətli inkişafa rəvac verən səmərəli iqtisadi siyasət muxtar respublikamızda tarazlı və davamlı inkişaf üçün başlıca vəsilə olmuş, şəhər və rayonlarımızda canlanma yaranmış, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılmış, yeni təsərrüfat subyektlərinin yaradılması sayəsində işsizliyin səviyyəsi xeyli dərəcədə azalmışdır. Muxtar respublikamızın mərkəzində olduğu kimi, rayonlarımızda, hətta ən ucqar kəndlərimizdə belə nəqliyyat-kommunikasiya sisteminin bərpası, elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaratmışdır. Muxtar respublikada mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin faydalı əmək məşğulluğunun artırılmasına və ümumilikdə muxtar respublika iqtisadiyyatının dinamik inkişafına nail olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında son 15 ildə həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Əsas xarakterik cəhət ondan ibarətdir ki, ötən dövr ərzində həyata keçirilən islahatlar muxtar respublikada makroiqtisadi səviyyəni xarakterizə edən göstəricilərin müəyyən qisminin deyil, ümumilikdə hamısının pozitiv meylli yüksəlişini təmin etmişdir. 2010-cu ilin yanvar-avqust aylarında ümumi daxili məhsulun həcmi 1995-ci ilə nisbətən 17 dəfə, adambaşına düşən

ümumi daxili məhsulun həcmi 14 dəfə, sənaye məhsulunun həcmi 23 dəfə, əsas kapitala yönəldilən investisiyalar 114 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 4 dəfə, nəqliyyat sektorunda yük daşınması 11 dəfə, informasiya və rabitə xidmətinin həcmi 54 dəfə, pərakəndə əmtəə dövriyyəsi 10 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 16 dəfə, dövlət büdcəsinin gəlirləri 16 dəfə, əhalinin gəlirləri 19 dəfə, adambaşına düşən gəlirlər 16 dəfə, orta aylıq əməkhaqqı isə 18 dəfə artmışdır.

Makroiqtisadi göstəricilər
(min manatla)

Müqayisə predimeti	2010-cu ilin yanvar-avqust ayları üzrə	1995-ci il üzrə	artım
Ümumi Daxili Məhsul	724497,8	43721,7	16,6 dəfə
Adambaşına Ümumi Daxili Məhsulun həcmi, manat	1790,2	130,6	13,7 dəfə
Sənaye məhsulunun ümumi həcmi	213056,3	9133,4	23,3 dəfə
Əsas kapitala yönəldilən investisiyalar	348464,6	3049,0	114,3 dəfə
Kənd təsərrüfatının ümumi məhsulu	155320,7	38572,2	4,0 dəfə
Nəqliyyat sektorunda yük daşınması, min ton	6874,0	632,6	10,9 dəfə
İnformasiya və rabitə xidmətlərinin həcmi	22831,1	420,3	54,3 dəfə
Pərakəndə əmtəə dövriyyəsi	350554,3	36511,2	9,6 dəfə
Əhaliyə göstərilən pullu xidmətlər	63124,7	3837,7	16,4 dəfə
Xarici ticarət dövriyyəsi, min ABŞ dolları	125419,8	19024,0	6,6 dəfə
o cümlədən ixracın ümumi həcmi	99597,8	1937,0	51,4 dəfə
idxalın ümumi həcmi	25822,0	17087,0	1,5 dəfə
Dövlət büdcəsinin gəlirləri	29938,8	1854,6	16,1 dəfə
Dövlət büdcəsinin xərcləri	212244,4	5221,8	40,6 dəfə
Əhalinin gəlirləri	610457,0	31538,9	19,4 dəfə
Adambaşına düşən gəlirlər, manat	1510,0	94,2	16,0 dəfə
Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manat	281,8	15,9	17,7 dəfə

Diqqəti cəlb edən əsas məqamlardan biri ondan ibarətdir ki, son 15 il ərzində yaradılmış iqtisadi potensial və qazanılmış uğurlar muxtar respublikamızın yarandığı 1924-cü ildən 1995-ci ilədək - yəni 71 illik zaman məsafəsində əldə olunanları xeyli üstələyir. Mühüm bir fakt ondan ibarətdir ki, 1924-1995-ci illər ərzində muxtar respublikada fəaliyyət göstərən sənaye müəssisələrinin maksimum sayı 56-ya bərabər olmuş, ötən 15 il ərzində isə sənaye sahəsində reallaşdırılan islahatların uğurlu nəticəsi kimi əlavə olaraq 364 yeni müəssisə işə başlamış və hazırda bu göstərici 420-yə çatmışdır. Analoji qaydada sənaye məhsullarının sayı üzrə də müsbət meyllər özünü göstərməkdədir. Əgər 1924-1995-ci illərdə muxtar respublikada istehsal olunan sənaye məhsullarının sayı üzrə maksimum göstərici 28-ə bərabər idisə, ötən 15 il ərzində əlavə olraq 209 yeni sənaye məhsulunun istehsalına başlanılmış və bu göstərici ümumilikdə 237-yə çatmışdır. Avtomobil yollarının inşası üzrə dinamika ümumilikdə nəqliyyat kompleksinin inkişafı səviyyəsini səciyyələndirən mühüm göstəricilərdəndir. Ötən 15 il ərzində muxtar respublikanın inzibati ərazisində 2870 kilometr uzunluğunda yeni avtomobil yolları inşa olunmuşdur ki, bu da 1924-1995-ci illər ərzində salınmış 1320 kilometr uzunluğunda avtomobil yollarını 2 dəfə üstələyir.

Son 15 il üzrə iqtisadi inkişafın xarakterik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, iqtisadiyyata investisiya qoyuluşlarının davamlılığı və proporsional bölgüsü təmin olunmuşdur. Natura ifadəsində mühüm bir müqayisə predmeti ondan ibarətdir ki, keçmiş sovetlər birliyinin yüksək inkişaf mərhələlərindən hesab olunan 1989-cu ildə muxtar respublikada tikinti sektorunda 1 ay ərzində istifadə olunan 2176 ton beton hazırda 1 gün ərzində inşaat işlərinə sərf olunmaqdadır.

Təhsilə göstərilən yüksək qayğı hazırkı dövlət siyasətinin başlıca məqsədlərindəndir. Bu qayğını aydın ifadə etməyə imkan verən mühüm bir göstərici ondan ibarətdir ki, ötən 15 il ərzində muxtar respublikada 168 yeni məktəb tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Sovetlər birliyi dönəmində isə bu sayda məktəbi inşa etmək üçün 41 il vaxt sərf olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır. Məhz bu prinsip üstün tutulmaqla əhalinin sağlamlığının qorunması, tibbi profilaktika işinin genişləndirilməsi, tibbi xidmətlərin keyfiyyətinin artırılması, müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocaqlarının inşası səhiyyə sahəsində reallaşdırılan mühüm islahatlardandır. Təkcə son 15 il ərzində muxtar respublikada 173 səhiyyə ocağı tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir ki, bu sayda tikilini təhvil vermək üçün keçmiş sovetlər birliyi vaxtında 50 ilə yaxın vaxt lazım gəlmişdir.

Həyata keçirilən irimiqyaslı islahatların nəticəsidir ki, bu gün Naxçıvan Muxtar Respublikası iqtisadi fəallıq üzrə öz statusunu aqrar bölgədən sənaye regionuna dəyişmişdir. Artıq muxtar respublikada il ərzində istehsal olunan sənaye məhsulunun həcmi kənd təsərrüfatı məhsulunun həcmini orta hesabla 30 faiz üstələyir ki, bu da ümumilikdə inzibati ərazimizdə sənaye potensialının aparıcı mövqe qazandığını sübut etməkdədir.

SƏNAYE

Son 15 il ərzində 364 yeni sənaye müəssisəsi işə başlayıb

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyasına uyğun olaraq bu gün respublikamızda iqtisadi sahədə həyata keçirilən tədbirlər bazar iqtisadiyyatı mexanizmləri əsasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, yerli və xarici investisiyaları, müasir texnologiyaları cəlb etməklə və qabaqcıl idarəetmə təcrübəsindən faydalanmaqla rəqabətə davamlı məhsul istehsal edən müəssisələrin, yeni iş yerlərinin yaradılmasına və nəticə etibarilə ölkənin iqtisadi qüdrətinin artırılmasına yönəldilmişdir.

Ötən 15 il ərzində muxtar respublikanın sənayesində həyata keçirilən islahatların başlıca məqsədi mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulmasından, yeni müəssisələrin yaradılmasından, sənaye məhsullarının istehsalının təşkilindən, təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsi tədbirlərini həyata keçirməklə sənayenin dayanıqlı və davamlı inkişafını təmin etməkdən ibarət olmuşdur. Bu dövr ərzində kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılmasına və bu əsasda da ixrac potensialının artırılmasına xüsusi diqqət yetirilmişdir. Sənaye sektorunda əsas məqsədə nail olmaq üçün aşağıdakı istiqamətlərdə reallaşdırılan tədbirlər son 15 ildə xüsusilə effektli olmuşdur.

- ilk növbədə muxtar respublikada sənayenin əsas inkişaf istiqamətləri müəyyənləşdirilmişdir;
- dövlət mülkiyyətində olan və ya səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan sənaye müəssisələrinin fəaliyyəti bərpa edilmişdir;

- rəqabətədavamlı sənaye məhsullarının istehsalının dəstəklənməsi və ixrac yönümlü istehsal sahələrinin yaradılması ciddi şəkildə təşviq olunmuşdur;
- sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması prosesi gücləndirilmişdir;
- özəlləşdirmədən sonrakı mərhələdə müəssisələrin fəaliyyəti müntəzəm əsasda dəstəklənmişdir;
- sənaye müəssisələrinin maliyyə vəsaitlərinə olan tələbatının ödənilməsi üçün səmərəli kredit mexanizmi qurulmuşdur;
- satış problemlərinin həlli üçün sistemli tədbirlər görülmüş, yerli və xarici bazarlara çıxış imkanları maksimum sadələşdirilmişdir;
- dövlət strukturlarının sənaye, xüsusilə də yüngül və yeyinti sənayesi məhsullarına olan tələbatının ödənilməsi prosesi üzrə dövlət sifarişləri ilk növbədə yerli sənaye mallarına yönəldilmişdir.

Sənaye sahəsində həyata keçirilən irimiqyaslı islahatların uğurlu nəticəsidir ki, son 15 il ərzində muxtar respublikada 364 yeni sənaye müəssisəsi işə başlamışdır. Əgər 1996-cı ilin əvvəlinə muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, 01 sentyabr 2010-cu ilədək olan dövr ərzində bu müəssisələrin sayı 8 dəfə artaraq 420-yə çatmışdır.

Sənaye müəssisələrinin sayı



Muxtar respublika iqtisadiyyatında daxili bazarın qorunması və istehlakçıların yerli məhsullarla təmin edilməsi istiqamətində aparılan islahatların uğurlu nəticəsidir ki, hazırda muxtar respublikada 237 adda, o cümlədən mədənçıxarma sənayesi bölməsində 4 adda, emal sənayesinin mühüm növ qida məhsullarının istehsalı bölməsində 72 adda, toxuculuq, geyim, dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı bölməsində 29 adda, mebeldən başqa ağacın emalı və ağacdan məmulatların və tıxacın istehsalı bölməsində 16 adda, kağız və karton istehsalı, poliqrafiya fəaliyyəti ilə yazılmış məlumatların daşıyıcılara çoxaldılması bölməsində 12 adda, kimya sənayesi, rezin və plastmas məmulatların istehsalı bölməsində 21 adda, digər qeyri-metal mineral maddələrin istehsalı bölməsində 20 adda, metallurgiya sənayesi, maşın və avadanlıqlardan başqa, hazır metal məmulatların istehsalı bölməsində 32 adda, avtomobil, qoşqu və yarımqoşquların istehsalı və emal sənayesinin digər bölmələrində 27 adda, elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat, su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi bölmələrində isə 4 adda məhsul istehsal olunmaqdadır.

Naxçıvan Muxtar Respublikasında istehsal olunan sənaye məhsullarının sayı

Sənaye sahələri	Məhsulların sayı		artım, azalma
	2010-cu ilin yanvar-avqust aylarında	1995-ci ildə	
Cəmi	237	28	8,5 dəfə
o cümlədən			
Mədənçıxarma sənayesi üzrə	4	4	-
Emal sənayesi üzrə	229	22	10,4 dəfə
o cümlədən			
mühüm növ qida məhsullarının istehsalı	72	7	10,3 dəfə
toxuculuq, geyim, dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı	29	3	9,7 dəfə
mebeldən başqa ağacın emalı və ağacdan məmulatların və tıxacın istehsalı	16	3	5,3 dəfə
kağız və karton istehsalı, poliqrafiya fəaliyyəti ilə yazılmış məlumatların daşıyıcılara çoxaldılması	12	2	6,0 dəfə
kimya sənayesi, rezin və plastmas məmulatların istehsalı	21	-	-
digər qeyri-metal mineral maddələrin istehsalı	20	4	5,0 dəfə
metallurgiya sənayesi, maşın və avadanlıqlardan başqa hazır metal məmulatların istehsalı	32	-	-
avtomobil, qoşqu və yarımqoşquların istehsalı və emal sənayesinin digər bölmələri	27	3	9,0 dəfə
Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat, su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi bölmələri üzrə	4	2	2,0 dəfə

Rəqabətədavamlı sənaye məhsullarının istehsalının müntəzəm olaraq dəstəklənməsi və ixrac yönümlü istehsal sahələrinin yaradılmasının təşviqi, dövlət mülkiyyətində olan və ya səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan sənaye müəssisələrinin sağlamlaşdırılması, özəlləşdirmədən sonrakı mərhələdə müəssisələrin fəaliyyətinin dəstəklənməsi, kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin geniş şəbəkəsinin təşkili və bu tip müəssisələrin ixrac potensialının artırılması muxtar respublikada sənaye sahəsində əsas strateji istiqamət kimi saxlanılmaqdadır. Uzun illər blokada şəraitində olması ilə əlaqədar fəaliyyətini dayandırmış sənaye müəssisələrinin 1995-ci ildən başlayaraq fəaliyyətinin bərpa edilməsi və yeni istehsal sahələrinin yaradılması, nəticə etibarı ilə əvvəllər istehsal olunmayan yeni sənaye məhsullarının istehsalının təşkilinə və ümumilikdə sənaye məhsulu istehsalının dinamik artımına səbəb olmuşdur.

Sənaye məhsulu istehsalının dinamikası,
min manatla



Muxtar respublikada sənaye sahəsində əldə olunmuş dinamik inkişaf meyllərinin dayanıqlılığının təmin olunması üçün həyata

keçirilən kompleks tədbirlərin mühüm bir istiqaməti bu sahədə səmərəli kreditləşdirmə mexanizminin formalaşdırılmasından ibarətdir. Təkcə son 3 ildə sənaye sahəsində iqtisadi aktivliyi gücləndirmək üçün sahibkarlara 32 milyon 190 min manat həcmində güzəştli kreditlər verilmişdir. 2009-cu ildə bu sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinə 15 milyon 762 min manat kredit verilmişdir ki, bu da 1995-ci ilin müvafiq göstəricisini 510 dəfə üstələyir.

Sənaye sahəsində kreditləşdirmə səviyyəsi,
min manatla



Muxtar respublikamızda sənaye potensialının davamlı yüksəlişini və yerli məhsulların ixracına göstərilən xüsusi dövlət dəstəyini səciyyələndirən mühüm bir göstərici ondan ibarətdir ki, təkcə 2009-cu il ərzində daxili tələbatdan artıq istehsal olunmuş 62 milyon 220 min ABŞ dolları dəyərində sənaye məhsulları qonşu xarici ölkələrə və respublikamızın digər bölgələrinə ixrac olunmuşdur ki, bu da 2008-ci illə müqayisədə 3 dəfə çoxdur.

Muxtar respublikamızda həyata keçirilən məşğulluq strategiyasının mühüm istiqamətlərindən biri məşğulluq səviyyəsinin yüksəldilməsini stimullaşdıran institusional şəraitin daha da tək-

milləşdirilməsindən ibarətdir. Bu istiqamətdə həyata keçirilən sistemli tədbirlər sənaye sahəsində yeni iş yerlərinin açılmasını xeyli sürətləndirmiş və son 15 il ərzində muxtar respublikada ümumilikdə bu sahədə 9841 yeni iş yeri yaradılmışdır.

Sənaye sektorunda açılmış yeni iş yerləri

Müqayisə predmeti	1995-2000-ci illərdə	2001-2005-ci illərdə	2006-2010-cu illərdə (01.09.2010-cu il tarixədək)	Cəmi
Açılmış yeni iş yerlərinin sayı	948	2930	5963	9841

Hazırda muxtar respublikanın sənaye müəssisələrində 11861 nəfər işçi çalışır ki, bu da 01 yanvar 1996-cı ildəki müvafiq göstəricini 6 dəfə üstələyir.

Sənaye sahəsində işləyənlərin sayı, nəfərlə



Muxtar respublikada orta aylıq əməkhaqqının yüksək olduğu iqtisadi fəaliyyət sahələrindən biri məhz sənaye sahəsidir.

Hazırda sənaye sahəsində orta aylıq əməkhaqqının məbləği 254 manata çatmaqla 1995-ci ildəki müvafiq göstəricini 25 dəfə üstələmişdir.

Sənaye sahəsi üzrə orta aylıq əməkhaqqı,
manatla



Sənayenin əsas sahələrindən biri elektroenergetikadır. "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 2 may tarixli Sərəncamına uyğun olaraq 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qaz ilə işləmə rejiminə keçirilmişdir. Həmin Sərəncama uyğun olaraq 2006-cı ildə ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmişdir. Hazırda muxtar respublikada istehsal edilən elektrik enerjisinin 80 faizindən çoxu ən müasir avadanlıqlarla təchiz edilmiş, bir kilovat.saat elektrik enerjisi istehsalına sərf olunan yanacağın miqdarına görə Azərbaycan Respublikasının ən qabaqcıl elektrik stansiyalarından olan Naxçıvan Modul Elektrik Stansiyasının payına düşür.

Muxtar respublikada elektrik enerjisi təminatını daha da yaxşılaşdırmaq məqsədilə 2006-cı ildə ümumi gücü 4,5 mVt olan Vayxır Su Elektrik Stansiyası tikilib istifadəyə verilmişdir.

2008-2009-cu illər ərzində muxtar respublikada elektrik enerjisindən səmərəli istifadə edilməsi, israfçılığın qarşısının alınması sahəsində kompleks tədbirlər həyata keçirilmiş, bu məqsədlə bütün kateqoriyalardan olan istehlakçıların istifadə etdikləri elektrik enerjisinin dəyərinin sayğac göstəriciləri əsasında ödənilməsi təmin edilmişdir. Muxtar respublikada vətəndaşların mənzillərində pulsuz olaraq müasir tipli elektron sayğaclar quraşdırılmış, mənzillərə giriş elektrik verlişi xətləri yeniləri ilə əvəz olunmuşdur. Enerji israfçılığının qarşısının alınması sahəsində aparılan səmərəli fəaliyyət, muxtar respublikanın yaşayış məntəqələrinə təbii qazın verilməsi, sayğaclaşmanın başa çatdırılması hesabına elektrik enerjisinin sərfi azalmış, onun dəyərinin ödənilməsi vəziyyəti normallaşmışdır. Müqayisə üçün qeyd etmək olar ki, 2006-cı ildə itki nəzərə alınmaqla istehlakçılara ötürülən 1003818 min kvt.saat elektrik enerjisinin dəyərinin 48,3 faizi, 2007-ci ildə 467684 min kvt.saat elektrik enerjisinin dəyərinin 68,6 faizi, 2008-ci ildə 309136 min kvt.saat elektrik enerjisinin dəyərinin 97,7 faizi ödənilmişdirsə, 2009-cu ildə istehlak olunmuş 304747 min kvt.saat elektrik enerjisi üzrə 101,4 faiz səviyyəsində ödəniş aparılmışdır.

2010-cu ilin yanvar-avqust aylarında Naxçıvan şəhərində 110/35/10 kilovoltluq "Xalçaçılıq" və 35/10 kilovoltluq "Xətai" elektrik yarımstansiyalarının yenidən qurulması işləri başa çatdırılmış, 35/10 kilovoltluq yeni "Sənaye qovşağı" elektrik yarımstansiyasının qurulması davam etdirilmişdir. Ümumilikdə bu dövr ərzində muxtar respublika üzrə 36 ədəd müxtəlif güclü transformator yarımstansiyasının quraşdırılması və 55,1 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətlərinin çəkilişi başa çatdırılmışdır.

Göstəricilər / Müqayisə dövrü	2010-cu ilin yanvar-avqust ayları üzrə	1995-ci il üzrə	analoji nisbət
Elektrik enerjisi istehsalı, min kvt saat	360855,0	111500,0	3,2 dəfə
İstifadədə olan transformator yarımstansiyalarının sayı, vahid	2575	1789	1,4 dəfə

2010-cu ildə gücü 22 meqavat, illik elektrik enerjisi istehsalı 80 milyon kvt.saat Ordubad rayonu ərazisindəki Gilan çayı üzərində Biləv Su Elektrik Stansiyasının tikintisi başa çatdırılmış, adıçəkilən rayon ərazisində gücü 36 meqavat, illik elektrik enerjisi istehsalı 190 milyon kvt.saat təşkil edən derivasiya tipli Ordubad və Şərur rayonunda Arpaçay Su Elektrik Stansiyalarının layihələrinin texniki-iqtisadi cəhətdən əsaslandırılması işləri aparılmaqdadır.

Uzunmüddətli fasilədən sonra muxtar respublikada istehlakçıların, ən əsası isə əhali təsərrüfatlarının təbii qazla təminatı həyata keçirilir. Hazırda muxtar respublikamızın iqtisadiyyatı sürətlə inkişaf edir, yeni istehsal müəssisələri yaradılır. Təbii ki, bu inkişafın fonunda təbii qaza olan tələbat da artır. "Azərbaycan Respublikasının yanacaq enerji kompleksinin inkişafı üzrə Dövlət Proqramı (2005-2015-ci illər)"na uyğun olaraq ölkəmizin ayrı-ayrı regionlarında olduğu kimi, muxtar respublikamızda da bu sahədə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilməkdədir.

2005-ci ilin sonundan başlayaraq muxtar respublikamıza təbii qazın nəqlinin bərpası enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamış, 2006-cı ilin dekabrında ümumi gücü 87 meqavat olan yeni Naxçıvan Modul Elektrik Stansiyası istifadəyə verilmiş və ümumi gücü 60 meqavat olan Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası təbii qazla iş rejiminə keçirilərək

istismara verilmişdir. Bu istiqamətdə reallaşdırılan irimiqyaslı tədbirlər nəinki muxtar respublikamızın elektrik enerjisi ilə təchizatında idxaldan asılılığı aradan qaldırdı, hətta elektrik enerjisinin ixracına başlanılmasına imkan yaratdı.

Muxtar respublikada təbii qazın nəqlinin bərpa edilməsi ilə əlaqədar olaraq qaz kəmərlərinin tikintisi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilmiş, təbii qaz infrastrukturu bərpa olunmuşdur. Belə ki, ötən dövr ərzində Culfa-Naxçıvan yüksəktəzyiqli magistral, Naxçıvan-Cəhri ortatəzyiqli magistral, Naxçıvan şəhər ortatəzyiqli dairəvi qaz kəmərlərinin çəkilişi işləri başa çatdırılmış, Araz çayından keçid və keçiddən ölçü qovşağına qədər olan magistral xəttin, Şahbuz-Sədərək və Culfa-Ordubad ötürücü qaz kəmərlərinin təmiri və bərpası işləri tamamlanmışdır.

"Naxçıvan", "Culfa", "Güznüt" Avtomat Qaz Paylayıcı stansiyalarının, laboratoriya və ölçü qovşaqlarının tikintisi işləri başa çatdırılmış, Naxçıvan şəhərində qaz təsərrüfatı infrastrukturu üzrə dairəvi qaz kəməri polad borulardan, qazpaylayıcı şəbəkə isə polietilen borulardan istifadə edilməklə quraşdırılmışdır. Muxtar respublikada əhalinin və təsərrüfat subyektlərinin qazla təchizatı prosesi başa çatdırılmış, 01 sentyabr 2010-cu il tarixə 77 min 614 mənzil qazlaşdırılmış, pulsuz olaraq mətbəx sobaları verilmiş, qaz sayğacları quraşdırılmışdır.

Əhalinin qazla təminatı haqqında

Müqayisə dövrü / Göstəricilər	01 sentyabr 2010-cu il	01 yanvar 1991-ci il	artım, azalma
Abonentlərin sayı, nəfər	77614	33084	2,3 dəfə
Yaşayış məntəqələrinin sayı	220	97	2,3 dəfə

Son 15 il ərzində əsas kapitala 1 milyard 835 milyon manatdan çox investisiya yönəldilmişdir

Sosial-iqtisadi proseslərin intensivliyinin təmin edilməsi, idarəetmənin, iqtisadiyyatın müxtəlif sahələrində çalışan işçilərin əmək şəraitinin müasir standartlar səviyyəsində yaxşılaşdırılması üçün mütəmadi olaraq əsas fondların yaradılması, yeniləşdirilməsi, infrastrukturun, kommunal xidmət təminatının təkmilləşdirilməsi, sosial obyektlərin inşası hazırkı iqtisadi fəaliyyətin mühüm istiqamətlərindəndir.

Bu gün muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində, rayon mərkəzlərində, şəhər, qəsəbə və kəndlərdə aparılan geniş tikinti-quraşdırma, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi, təmiri muxtar respublikanın simasını gözəlləşdirməklə yanaşı onun inkişafının təcəssümünə çevrilmişdir.

2010-cu ilin yanvar-avqust aylarında əsas kapitala yönəldilən investisiyaların həcmi 1995-ci ildəki müvafiq göstəricini 114 dəfə üstələyərək 348 milyon 465 min manata çatmışdır.

Əsas kapitala yönəldilmiş investisiyanın dinamikası, min manatla



01 yanvar 1995-ci il tarixdən 01 sentyabr 2010-cu ilədək olan dövr ərzində muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş investisiyanın həcmi 1 milyard 835 milyon 467 min manat təşkil etmişdir. Bu investisiyanın sərfi nəticəsində ötən dövr ərzində 393 inzibati bina, mənzil-kommunal təsərrüfatı sahəsində 593 obyekt, 153 nasos stansiyası, 353 subartezian quyusu, 119 körpü, rabitə və informasiya texnologiyaları sahəsində 260 obyekt və qurğu, 2095 müxtəlif güclü transformator yarımstansiyası, 45 məişət evi və ticarət mərkəzi, 231 elm və təhsil müəssisəsi, 272 mədəniyyət müəssisəsi, 173 səhiyyə müəssisəsi, 33 id - man obyekti, 312 halda su, kanalizasiya və drenaj xətləri, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərər çəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 457 fərdi ev, 3374 istehsal, xidmət və digər infrastruktur obyektləri istifadəyə verilmişdir.

Əsas kapitala yönəldilmiş investisiyalar haqqında, min manatla

Göstəricilər \ Müqayisə dövrü	2010-cu ilin yanvar-avqust ayları üzrə	1995-ci il üzrə	analoji nisbət
Əsas kapitala yönəldilmiş investisiyalar	348464,6	3049,0	114,3 dəfə
Gün ərzində istifadə olunan investisiyanın həcmi	1434,0	8,4	170,7 dəfə

Kəndlərin, qəsəbələrin tərəqqisi, bu yaşayış məntəqələrində mərkəzlə paralel infrastruktur quruculuğu tədbirlərinə son 15 il ərzində xüsusi diqqət yetirilmiş və kənd əhalisinə göstərilən xidmətin səviyyəsini yaxşılaşdırmaq, bu sahədə idarəetməni

səmərəliləşdirmək məqsədilə 52 kənd mərkəzi, 3 qəsəbə mərkəzi istifadəyə verilmişdir.

Muxtar respublikada mənzil-kommunal təsərrüfatı sektorunda xidmətlərin səviyyəsinin müasir standartlara uyğunlaşdırılması, kommunal xidmətlər sahəsində restrukturizasiya tədbirlərinin sürətləndirilməsi, mövcud istilik sistemlərinin bərpası, modernləşdirilməsi və yenidən qurulması, etibarlı su təchizatının təşkili, su və kanalizasiya sistemlərinin yenilənməsi üzrə mobil mexanizmlər formalaşdırılmışdır. Son dörd ildə muxtar respublikada 284 yaşayış binasında tikinti, yenidənqurma və bərpa işləri aparılmış, 301 yaşayış binasında istilik xətləri yeniləri ilə əvəzlənmiş, 35 lift quraşdırılmışdır. Yaşayış mənzillərində dövlət vəsaiti hesabına daxili istilik xətlərinin çəkilişi və vətəndaşlardan hər hansı bir ödəniş tələb olunmadan panel radiatorların quraşdırılması prosesi davam etdirilməkdədir.

Əhalinin maddi-rifah halının yaxşılaşması fərdi yaşayış evlərinin tikintisi üzrə müsbət meylli dinamikanı daha da gücləndirmişdir. 2010-cu ilin yanvar-avqust ayları ərzində muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına ümumilikdə 173 min 735 kvadratmetr yaşayış sahəsi tikilmişdir ki, bu da 1995-ci illə müqayisədə 10 dəfə çoxdur.

Əhalinin şəxsi vəsaiti hesabına tikilmiş yaşayış sahələri haqqında

Göstərici \ Müqayisə dövrü	2010-cu ilin yanvar-avqust ayları üzrə	1995-ci il üzrə	analoji nisbət
Yaşayış tikililərinin sahəsi, min kvadratmetr	173,7	16,8	10,3 dəfə

Əhalinin rahatlığına və yaşayış səviyyəsinin yüksəlməsinə xidmət edən kommunal-məişət sistemlərinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin tərkib hissəsi kimi içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması muxtar respublikamızda irriqasiya sahəsində görülən əsas işlərdəndir. Ötən dövr ərzində muxtar respublikada mövcud olan kaptajlar, içməli su xətləri bərpa olunmuş, yeni kaptajlar tikilmiş və içməli su xətləri çəkilmişdir. Son illər bu istiqamətdə görülən tədbirlər xüsusilə diqqəti cəlb edir. Azərbaycan Hökuməti ilə Asiya İnkişaf Bankı arasında bağlanmış kredit sazişinə uyğun olaraq "Şəhər su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində Naxçıvan şəhərinə su çəkilişinə başlanılmışdır. Layihə çərçivəsində uzunluğu 2880 metr olan suqəbuledici qurğunun, həcmi 5 min və 10 min kubmetr olan suqəbuledici anbarların və uzunluğu 6,35 kilometr olan magistral boru xəttin tikintisi başa çatdırılmışdır. 2010-cu ilin yanvar-avqust ayları ərzində "Şəhər su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində 7,5 kilometr uzunluğunda yeni su xəttinin çəkilişi başa çatdırılmış və bu istiqamətdə digər müvafiq işlər davam etdirilmişdir. Layihə başa çatdıqdan sonra Naxçıvan şəhərinin əhalisi fasiləsiz keyfiyyətli içməli su ilə təmin olunacaq, o cümlədən kanalizasiya sistemi şəhərin bütün məhəllələrini əhatə etməklə yenidən qurulacaqdır.

Dünya Bankının krediti ilə maliyyələşdirilən "Birinci və ikinci milli su təchizatı və kanalizasiya xidmətləri layihəsi" üzrə muxtar respublikanın bütün rayonlarında geoloji-geotexniki işlər aparılmış və topoqrafik xəritələr hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 20 iyun tarixli "Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar bəzi tədbirlər haqqında" Sərəncamına

uyğun olaraq Araz çayının suyundan istifadə edən yaşayış məntəqələrində modul tipli sutəmizləyici qurğuların quraşdırılması istiqamətində tədbirlər həyata keçirilir. Əhalinin istifadə etdiyi suyun ekoloji cəhətdən təmizliyini yaxşılaşdırmaq məqsədilə Naxçıvan şəhərinin Qaraçuq, Qaraxanbəyli və Bulqan, Şərur rayonunun Alışar, Muğanlı və Kərimbəyli kəndlərinin hər birində 1 ədəd modul tipli sutəmizləyici qurğuların quraşdırılması işləri başa çatdırılmışdır.

HƏRBİ QURUCULUQ

Son 15 ildə hərbi quruculuq üzrə 140 obyekt inşa olunub

Ötən 15 il ərzində muxtar respublikanın etibarlı müdafiə təminatı ilə bağlı ardıcıl olaraq sistemli tədbirlər müəyyənləşdirilib həyata keçirilmiş, 140 obyekt, o cümlədən 13 qərargah binası, hərbi komissarlıq, hərbi prokurorluq orqanları üçün inzibati bina və hərbi hissələrin bölük mərkəzləri üçün 13 bina, 24 zabit və əsgər yataqxanası, 19 yeməkxana, 18 yaşayış binası, 4 tədris binası, 1 orta məktəb, 1 uşaq bağçası, 3 xəstəxana, 5 tibb məntəqəsi, 3 klub və 36 müxtəlif təyinatlı obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

KƏND TƏSƏRRÜFATI

Kənd təsərrüfatı məhsulları istehsalının ümumi həcmi son 15 ildə 4 dəfə artmışdır

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının bazar münasibətləri əsasında qurulması, kənddə aqrar islahatların, o cümlədən torpaq islahatlarının həyata keçirilməsi, xüsusilə kolxoz və sovxozların ləğv olunması, onlara məxsus torpağın, mal-qaranın, əmlakın xüsusi mülkiyyətə verilməsi, ərzaq və digər yeyinti məhsullarını emal edən sənaye müəssisələrinin özəlləşdirilməsi ümumilikdə aqrar bölmənin sosial və sahə strukturunu yenidən formalaşdırdı. Qısa müddətdə sürətlə və hərtərəfli reallaşdırılan keyfiyyət dəyişiklikləri nəticəsində istehsalın sabitləşməsi, məhsul istehsalının və məhsuldarlığın nəzərəçarpacaq dərəcədə yüksəlməsi, sahibkarlığın inkişafı, iş yerlərinin dinamik artımı təmin olundu.

Bu dövr ərzində aqrar sahənin torpaq vergisi istisna olmaqla digər vergilərdən uzunmüddətə azad olunması, büdcəyə olan vergi borclarının silinməsi, yanacağın güzəştli qiymətlərlə satışı və digər bu kimi təbdirlər kənd təsərrüfatı məhsullarının istehsalına əhəmiyyətli dərəcədə müsbət təsir göstərmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyev ümummilli liderimizin ölkəni iqtisadi inkişafa, tərəqqiyə, firavanlığa aparan siyasi kursunu layiqincə davam etdirərək yeni mərhələdə kənd təsərrüfatı sahəsində əldə olunmuş dinamik inkişafı daha da sürətləndirməyə xidmət edən fərman və sərəncamlar imzalamış, bu istiqamətdə xüsusi əhəmiyyət kəsb edən məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasında əhalinin zəruri ərzaq

məhsulları ilə təmin edilməsi məqsədilə aqrar bölmədə ötən 15 il ərzində aparılan köklü islahatlar bu sahənin daha sürətli inkişafına əlverişli zəmin yaratmışdır. Bu tədbirlərdən işçi qüvvəsinin muxtar respublika ərazisində məhdudiyyətsiz hərəkətinin təmin edilməsi, mütəşəkkil ticarətin təşkilinin dövlət tərəfindən dəstəklənməsi, əsas növ ərzaq məhsullarının kifayət qədər istehsal olunmasına şəraitin yaradılması, yerli və xarici mənşəli ərzaq məhsullarının keyfiyyətinə müvafiq nəzarət mexanizminin tətbiqi və istehlak bazarında texnoloji, ekoloji, sanitar və baytar tələblərinə cavab verməyən məhsulların satışının qarşısının alınması, kənd təsərrüfatı məhsullarının ixracına dövlət tənzimlənməsinin həyata keçirilməsi, zəruri infrastrukturun, anbarların yaradılması, kənd təsərrüfatı maşın və mexanizmlərinin, gübrələrin güzəştli şərtlərlə istehsalçılara çatdırılması və bu istiqamətdə genişmiqyaslı kreditləşdirilmənin təşkili müntəzəm xarakter almışdır.

Son 15 il ərzində muxtar respublikada kənd təsərrüfatı sahəsində dövlət siyasəti əsas etibarı ilə aşağıdakı istiqamətlərdə həyata keçirilməkdədir.

- aqrar bölmənin normativ hüquqi bazasının, elmi-metodik təminatının və kadr hazırlığı sisteminin təkmilləşdirilməsi sürətləndirilmişdir;
- aqrar bölmənin xammal istehsalı və emal sahələrinin əlaqəli inkişafı, rəqabətədavamlı məhsul istehsalının artırılması davamlı olaraq stimullaşdırılır;
- aqrar bölməyə maliyyə dəstəyi artırılmaqdadır;
- aqrar bölmənin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilməkdədir;
- aqrar sektora xidmət edəcək strukturların formalaşmasına ciddi dəstək verilir;

- aqrar bölmə üzrə prioritet istehsal sahələrinin müəyyənləşdirilməsi, həmin sahələrin digər sahələrlə əlaqəli inkişafı strategiyası uğurla həyata keçirilir;
- daxili bazar ciddi şəkildə qorunur, ixrac stimullaşdırılmaqla bərabər onun alt infrastrukturu (nəqliyyat, sığorta, informasiya bazası və sair) təkmilləşdirilir;
- ətraf mühitin mühafizəsi və inkişaf meylləri üzrə kompleks tədbirlər reallaşdırılır, torpağın deqradasiyasının qarşısı alınır, su, külək eroziyasına qarşı mübarizə aparılır;
- torpaq bazarının təşkili və inkişafı stimullaşdırılır, yay və qış otlaqları pasportlaşdırılaraq inzibati ərazi vahidləri arasında proporsional bölüşdürülür;
- müxtəlif maddi-texniki təchizat və aqroservis müəssisələri, marketinq xidmətləri, yarmarkalar təşkil olunur, saxlama, qablaşdırma, emal müəssisələri və digər strukturlar yaradılır;
- meliorasiya və irriqasiya tədbirləri davamlı olaraq genişləndirilir;
- baytarlıq, sanitar və fitosanitar sahələrində dövlət siyasətinin həyata keçirilmə mexanizmləri təkmilləşdirilir.

Muxtar respublikada ərzaq məhsulları istehsalını artırmaq, əhalini təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək, sahibkarlıq mühitini yaxşılaşdırmaq məqsədi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında yeni istiqamətləri müəyyənləşdirmişdir. Yeni emal müəssisələrinin yaradılması, məhsul istehsalçılarına dövlət maliyyə yardımının göstərilməsi, güzəştli şərtlərlə

gübrə satışının təşkili, məhsulun satışı üçün yarmarkaların keçirilməsi kənd təsərrüfatı sahəsində məhsul istehsalının həcminin ildən-ilə artmasına səbəb olmuşdur.

Muxtar respublikanın iqlim şəraiti və əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması burada əkinçiliyin geniş yayılmasını şərtləndirir. 2010-cu ilin məhsulu üçün 59 min 204 hektar sahədə əkin işləri həyata keçirilmişdir ki, bu da 1995-ci ilin məhsulu üçün əkilmiş sahədən 2 dəfə çoxdur.

Cəmi əkin sahələri, hektarla



Muxtar respublika rəhbərliyinin taxılçılığa mühüm əhəmiyyətli sahə kimi yanaşması nəticəsində bu sahədə yüksək artım meyllərinə nail olunmuşdur. Ən əsası isə odur ki, əsas təbii ehtiyat sayılan torpaqların məhdud olması nəzərə alınır və bitkiçilik ekstensiv üsulla deyil, müasir aqrokimyəvi və aqrotexniki tədbirlərə əsaslanan intensiv metodlarla, yəni məhsuldarlığın yüksəldilməsi yolu ilə inkişaf etdirilir. Bunun nəticəsində 1995-ci ilə nisbətən 2010-cu ildə taxıl əkini sahəsi 65 faiz, məhsul istehsalı isə 4 dəfə artmışdır.

Taxıl əkini və məhsul istehsalının dinamikası



Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının, xüsusilə bitkiçiliyin dinamik inkişafı müvafiq xidmət sahələrinin təkmilləşməsinə, yeni emal müəssisələrinin yaradılmasına, mövcud olanların yenidən qurulmasına təkan vermişdir. Hazırda istehsal olunan taxılın istehlak qiymətində xüsusi yer tutan nəqliyyat (emal müəssisəsinə daşınma) xərclərinin minimuma endirilməsi, ən əsası isə taxıl əkini ilə məşğul olanların rahatlığının təmin olunması məqsədilə tikilən və ya yenidənqurma işləri aparılan 24 taxıl emalı müəssisəsi mövcud aqrar sənaye kompleksinin əsas elementlərinə çevrilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" 2007-ci il 23 yanvar tarixli Sərəncamına əsasən kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə dövlət tərəfindən hər hektar sahə üçün 40 manat, bundan başqa, buğda istehsalçılarının maddi marağının artırılması və onların stimullaşdırılması ilə əlaqədar olaraq səpilən hər hektar buğda sahəsi üçün əlavə olaraq 40 manat vəsaitin verilməsi təmin olunmuşdur. Həmçinin, hər hektar sahə üçün tələb olunan mineral gübrələrin

50 faiz güzəştlə satışı həyata keçirilmişdir.

2009-cu ildə tutumu 18 min ton taxılı uzunmüddətə, tutumu 20 min ton taxılı qısamüddətə saxlamağa imkan verən Naxçıvan Muxtar Respublikası Taxıl Ehtiyatı Anbarının istifadəyə verilməsi muxtar respublikada taxıl ehtiyatlarının yaradılmasında əsas rol oynamaqla istehsalçıların məhsul tədarükü zamanı rastlaşdıqları problemlərin aradan qaldırılmasında mühüm əhəmiyyətə malikdir. Son 3 il ərzində muxtar respublikada istehsal olunan buğdanın hər kiloqramının orta hesabla 33 qəpikdən mərkəzləşmiş qaydada satın alınması məhsul istehsalçılarının taxıl istehsalına və onun vaxtında itkisiz yığılmasına marağını daha da artırmışdır.

Muxtar respublikada taxılçılıqla yanaşı kartof istehsalına xüsusi diqqət yetirilir. Daxili bazarın kartofla təminatında idxaldan asılılığı azaltmaq, əhali tələbatının keyfiyyətli yerli məhsul hesabına ödənilməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 11 aprel tarixli Sərəncamı ilə təsdiq olunmuş, 2005-2010-cu illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq kartof əkini üçün əlverişli torpaq sahələri müəyyənləşdirilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində 2010-cu ildə 2740,5 hektar sahədə kartof əkilmişdir. 01 sentyabr 2010-cu il tarixə 2594,5 hektar sahədən 34807,5 ton məhsul yığılmışdır ki, bu da 1995-ci ildə olan göstəricidən 87 dəfə çoxdur.

Kartof əkini və istehsalının dinamikası



2010-cu ilin yanvar-avqust ayları ərzində muxtar respublikada 96010 ton taxıl, 53350,3 ton tərəvəz, 32541 ton bostan məhsulları, 29814,5 ton meyvə və giləmeyvə istehsal olunmuşdur ki, bu da 1995-ci ildə olan göstəriciləri müvafiq olaraq 4 dəfə, 41 dəfə, 81 dəfə, 2 dəfə üstələmişdir.

Əsas növ ərzaq məhsulları istehsalı, min ton

Müqayisə dövrü / Məhsulların adı	2010-cu ilin yanvar-avqust ayları üzrə	1995-ci il üzrə	analoji nisbət
Taxıl	96,0	23,6	4,1 dəfə
Kartof	34,8	0,4	87 dəfə
Tərəvəz	53,4	1,3	41,1 dəfə
Bostan məhsulları	32,5	0,4	81,3 dəfə
Meyvə və giləmeyvə	29,8	19,0	1,6 dəfə

Naxçıvan Muxtar Pespublikasında kartofçuluğun inkişafı üçün əlverişli təbii şəraitin olması nəzərə alınaraq sahibkarlara güzəştli kreditlər ayrılmış və müvafiq texnikalar verilmişdir. Təkcə bir faktı qeyd etmək olar ki, 1995-ci ildə muxtar respublikada kartof istehsalının adambaşına göstəricisi 1,2 kiloqram olduğu halda 2010-cu ilin yanvar-avqust ayları ərzində bu göstərici 72 dəfə artaraq 86 kiloqrama çatmışdır.

Bitkiçilik məhsullarının adambaşına istehsalı haqqında, kiloqramla

Müqayisə dövrü / Məhsulların adı	2010-cu ilin yanvar-avqust ayları üzrə	1995-ci il üzrə	analoji nisbət
Taxıl	237	71	3,3 dəfə
Kartof	86	1,2	71,7 dəfə
Tərəvəz	132	4	33 dəfə
Bostan məhsulları	80	1	80 dəfə
Meyvə və giləmeyvə	75	57	1,3 dəfə

Muxtar respulikada son illər ərzində yerli tələbatdan artıq səviyyədə istehsal olunan bir sıra meyvə və tərəvəz məhsullarının ixracı davamlı xarakter almışdır. Təkcə 2010-cu ilin yanvar-avqust ayları ərzində xarici ölkələrə və respublikamızın digər bölgələrinə 35 milyon 498 min ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur.

Aqrar sektorda yüksək iqtisadi aktivliyi təmin edən amillərdən biri isə kənd təsərrüfatı üzrə maşın və mexanizmlərin sayının tələbata uyğun olaraq artırılmasından ibarətdir. Bu istiqamətdə həyata keçirilən tədbirlərə uyğun olaraq "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 64 ədədi 2010-cu ilin yanvar-avqust aylarında olmaqla cəmi 518 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilmişdir. 2010-cu ilin yanvar-avqust aylarında əvvəlki illərdə gətirilən texnikalarla birlikdə 73 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir.

Muxtar respublikanın aqrar sektorunun inkişafında mühüm element kimi soyuducu anbarların yaradılması işi üstün istiqamət almışdır. Bu anbarlar bir tərəfdən istehsal olunan məhsulların satışı ilə əlaqədar meydana çıxan problemləri aradan qaldırmaqla

meyvə-tərəvəzin yetişdirilməsinə marağı artırırsa, digər tərəfdən əhalinin il boyu keyfiyyətli yerli məhsullarla təminatına imkan verir. Qeyd olunan amillər nəzərə alınmaqla bu dövr ərzində ümumi tutumu 6 min 120 ton olan 10 soyuducu anbar istifadəyə verilmiş, ümumi tutumu 2 min 300 ton olan 3 soyuducu anbarın qurulması hazırda davam etdirilir.

Muxtar respublikada kənd təsərrüfatının əsas sahələrindən biri də heyvandarlıqdır. Əhalinin heyvandarlıq məhsulları ilə etibarlı təminatı üçün bu sahəyə xüsusi diqqət yetirilmiş, heyvanların baş sayında və heyvandarlıq məhsullarının istehsalında artıma nail olunmuşdur.

01 iyul 2010-cu il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 106 min 319 baş, qoyun və keçilərin sayı isə 645 min 740 baş olmuşdur ki, bu da 01 yanvar 1996-cı ilə olan göstəriciləri müvafiq olaraq 92 faiz və 2 dəfə üstələyir.

Heyvandarlıqda baş sayı



Muxtar respublikamızda heyvandarlığın intensiv üsullarla inkişaf etdirilməsi, daxili bazarda heyvandarlıq məhsullarına olan

tələbatın tam ödənilməsi və bu sahədə ixracın təşviqi diqqət mərkəzində saxlanılır. Bu strateji məqsədlərə çatmaqda isə şübhəsiz ki, təkmilləşdirilmiş baytarlıq xidməti mühüm rol oynayır. Baytarlıq tədbirləri üzrə biopreparatların, dərman vasitələrinin, müasir tipli cihaz və avadanlıqların, məhsuldar cinsdən olan mal-qara toxumlarının və süni mayalandırma avadanlıqlarının alınaraq muxtar respublikaya gətirilməsi və intensiv istifadəsi artıq davamlı xarakter almışdır. Muxtar respublika rəhbərliyinin bu sahəyə yönəldilmiş xüsusi diqqət və qayğısı deməyə əsas verir ki, bu gün muxtar respublikamızda baytarlıq xidməti orqanlarının səmərəli fəaliyyəti üçün münbit şərait mövcuddur və bu proses daha da təkmilləşdirilməkdədir.

Muxtar respublikamızda dövlət baytarlıq xidməti orqanları tərəfindən heyvan (mal-qara, quşlar, balıqlar, arılar, vəhşi heyvanlar) xəstəliklərinin qarşısının alınması, insan sağlamlığı üçün yararlı və təhlükəsiz heyvandarlıq məhsullarının istehsalı, habelə əhalinin heyvan və insanlar üçün ümumi olan xəstəliklərdən mühafizəsi, heyvandarlıqda yüksək məhsuldarlıq göstəricilərinin təmin olunması üçün xüsusi əhəmiyyət kəsb edən süni mayalandırma işinin təşviqi üzrə elmi, praktiki və təşkilati tədbirlər reallaşdırılmaqdadır. Təkcə son 5 il ərzində baytarlıq xidməti üzrə 57 yeni infrastruktur obyektinin inşası faktı isə bu sahəyə istiqamətlənmiş yüksək dövlət qayğısını daha aydın xarakterizə etməkdədir.

Heyvandarlıqla məşğul olan sahibkarlara və təsərrüfat rəhbərlərinə müvafiq dövlət strukturları tərəfindən maliyyə və texniki yardımlarla yanaşı yüksək səviyyədə məsləhət xidməti göstərilməkdədir. Eyni zamanda kənar xarici ölkələrdən ətlik və südlük cins mal-qaranın muxtar respublikaya gətirilməsi və təsərrüfatlara çatdırılması, süni mayalandırma işi diqqət mərkəzində saxlanılır.

Bütün bunlar isə mal-qaranın çəki artımında və süd verimində öz müsbət təsirini göstərməkdədir.

Heyvandarlıqda baş sayının dinamik artımı öz növbəsində əsas heyvandarlıq məhsullarının ciddi artımına zəmin yaratmışdır.

Heyvandarlıq məhsulları istehsalı, tonla

Müqayisə dövrü / Məhsulların adı	2009-cu il üzrə	1995-ci il üzrə	artım, azalma, faizlə
Ət (kəsilmiş çəkidə)	9663,0	5589,0	72,9
Süd	73928,5	34938,0	2,1 dəfə
Yumurta, min ədəd	54884,2	38547,0	42,4
Yun	916,8	526,0	74,3

Muxtar respublikada maldarlıqla yanaşı quşçuluğun da inkişafı istiqamətində müvafiq tədbirlər görülmüşdür. Son 15 il ərzində quşçuluq sahəsində 26 təsərrüfat subyekti fəaliyyətə başlamış, 2 quşçuluq təsərrüfatının yaradılması istiqamətində işlər hazırda davam etdirilir. 01 yanvar 2010-cu il tarixə muxtar respublikada 828,6 min baş kənd təsərrüfatı quşları mövcud olmuşdur ki, bu da 01 yanvar 1996-cı ilə nisbətən 4,8 dəfə çoxdur.

Kənd təsərrüfatı quşlarının sayı, min başla



Muxtar respublikada kənd təsərrüfatının perspektivli sahələrindən biri də arıçılıqdır. Bu sahənin inkişafı ilə əlaqədar son illər göstərilən dövlət maliyyə dəstəyinin həcmi artırılmış, balın emalı və qablaşdırılması ilə məşğul olan istehsal sahələri istifadəyə verilmişdir. Arıçılıqla məşğul olan istehsalçıların fəaliyyətinin tənzimlənməsi, bu sahədə təşkilatlanma işlərinin aparılması məqsədilə Naxçıvan Muxtar Respublikası "Arıçılar" İctimai Birliyi yaradılmışdır.

2009-cu ilin sonuna muxtar respublikada 34 min 632 arı ailəsi mövcud olmuşdur ki, bu da 01 yanvar 1996-cı ilə nisbətən 4 dəfə çoxdur.

Arı ailələrinin sayı, min ailə



Ötən dövr ərzində arı ailələrinin artımı məhsul istehsalının artımına da öz müsbət təsirini göstərmişdir. Belə ki, 2009-cu ildə muxtar respublikada 585 ton bal istehsal olunmuşdur ki, bu da 1995-ci illə müqayisədə 6 dəfə çoxdur.



Muxtar respublikanın zəngin su ehtiyatları balıqçılığın inkişafı və qiymətli balıq cinslərinin yetişdirilməsi üçün əlverişli şərait yaradır. Bu istiqamətdə inkişaf müntəzəm olaraq dövlət tərəfindən dəstəklənmiş və muxtar respublikada son 15 il ərzində 10 balıqyetişdirmə təsərrüfatı istifadəyə verilmişdir.

Muxtar respublikada kənd təsərrüfatının inkişafı və bu sahədə sahibkarlığa dəstək məqsədilə 2010-cu ilin yanvar-avqust aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən kənd təsərrüfatı müəssisələrinə və ayrı-ayrı fiziki şəxslərə ümumilikdə 6 milyon 418 min manat həcmində və yaxud 1995-ci illə müqayisədə 38 dəfə çox kredit verilmişdir.

Kənd təsərrüfatı üzrə verilmiş kreditlər haqqında

Göstəricilər / Müqayisə dövrü	2010-cu ilin yanvar-avqust ayları üzrə	1995-ci il üzrə	analoji nisbət
Verilmiş kreditlərin məbləği, min manatla	6417,6	168,4	38,1 dəfə
Kreditlərin faiz dərəcəsi	6 faizdən 15 faizədək	260 faizdən 320 faizədək	-

Aparılan məqsədyönlü tədbirlər və əhalidə xüsusi mülkiyyətə münasibətin köklü dəyişməsi, fərdi sahibkarlıq fəaliyyətinin üstün

istiqamət alması öz növbəsində muxtar respublikada il ərzində istehsal olunan kənd təsərrüfatı məhsullarının həcminin artmasını şərtləndirən əsas amillərdəndir. Belə ki, 2010-cu ilin yanvar-avqust ayları ərzində muxtar respublikada 155 milyon manatdan çox kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 1995-ci ilin müvafiq göstəricisindən 4 dəfə çoxdur.

Kənd təsərrüfatının ümumi məhsulu,
milyon manat



Torpaq sahələrinin meliorativ cəhətdən münbitləşdirilməsi və suvarma suyuna olan tələbatının səmərəli ödənilməsi üçün meliorasiya və irriqasiya sahəsində həyata keçirilən tədbirlərin miqyasını genişləndirmək başlıca şərtlərdən biridir. Məhz bu baxımdan muxtar respublikamızda meliorasiya və irriqasiya sistemlərinin texniki imkanlarının genişləndirilməsi, müasir hidrotexniki qurğuların istifadə imkanlarının artırılması daim diqqət mərkəzində saxlanılır.

Muxtar respublikanın su ehtiyatını artırmaq məqsədilə mövcud su anbarlarında təmir işləri aparılmış, yenilərinin tikilməsi üçün müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, Heydər Əliyev Su Anbarı istifadəyə verildikdən sonra Babək rayonunda 4364 hektar, Culfa rayonunda 2311 hektar, Şahbuz rayonunda 244 hektar, ümu-

milikdə isə 6919 hektar yeni torpaq sahəsi əkin dövriyyəsinə qatıl - mışdır. Su anbarı vasitəsilə suvarılan torpaqların sahəsi 16830 hektara çatmışdır.

2007-ci ildə Arpaçay su anbarında əsaslı təmir işlərinə başlanılmış və 2008-ci ilin sonunda su anbarı istismara verilmiş, nəticədə Şərur, Sədərək və Kəngərli rayonlarında suvarma işi xeyli yaxşılaşdırılmışdır.

Son 15 ildə meliorasiya işlərini yerinə yetirən müxtəlif təyinatlı müasir tipli maşın-mexanizmlər alınmış, yeni nasos stansiyaları, subartezian quyuları tikilərək və ya bərpa edilərək istifadəyə verilmişdir. Hazırda muxtar respublikada suvarma tədbirlərinin həyata keçirilməsi məqsədilə 97 nasos stansiyasından, 766 subartezian quyusundan və 339 kəhrizdən istifadə olunur.

İşlək vəziyyətdə olan nasos stansiyaları və subartezian quyuları haqqında

Müqayisə dövrü / Göstəricilər	01 sentyabr 2010-cu il tarixə	01 yanvar 1996-cı il tarixə	analoji nisbət
Nasos stansiyalarının sayı, ədəd	97	52	1,9 dəfə
Subartezian quyularının sayı, ədəd	766	357	2,1 dəfə

Muxtar respublikamızda meliorativ tədbirlərin davamlı olaraq həyata keçirilməsi təmin olunmuşdur. İstər torpaqların yuyulmasının qarşısının alınması, istərsə də şoranlaşmış torpaqların münbitləşdirilməsi istiqamətində mühüm işlər aparılmaqdadır. Araz çayının sol sahilində yerləşən yaşayış məntəqələrini və əkin sahələrini yaz mövsümündə sel sularından qorumaq məqsədilə mütəmadi olaraq daşla və torpaqla sahilbərkitmə işləri aparılır. Aparılan sahilbərkitmə işlərinin nəticəsidir ki, Şərur rayonunun

Kərimbəyli, Qarahəsənli, Diyadin, Alışar, Qorçulu, Xələc, Kəngərli rayonunun Şahtaxtı, Ordubad rayonunun Kotam kəndlərinin və Sədərək rayonunun ərazisindəki torpaqların yuyulmasının qarşısı alınmışdır. Bu dövr ərzində çayların məcrasında istiqamətləndirici bəndlərin salınması işləri də davam etdirilmişdir. Yaz aylarında daha bol sulu olan Arpaçay və Naxçıvançayın məcrasında çayın sol və sağ sahilindəki kəndlərin ərazilərini sel sularından qorumaq məqsədilə istiqamətləndirici bəndlər salınmışdır.

EKOLOGİYA

Son 15 ildə 10124 hektar sahədə yeni yaşıllıqlar salınmışdır

Muxtar respublikada həyata keçirilən ekoloji siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir.

Son 15 ildə muxtar respublika ərazisində təkcə dövlət strukturlarının dəstəyi ilə 10124 hektar sahədə yaşıllıqlar - meşə massivləri, meyvə bağları, yaşıllıq zolaqları salınmışdır. Hazırda muxtar respublikanın ümumi ərazisinin 7-8 faizini yaşıllıqlar əhatə edir. 1990-cı ilin əvvəllərində isə bu göstərici 0,6 faiz həddində olmuşdur.

Yeni salınmış meşə massivləri və yaşıllıq zolaqları, hektarla



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr tarixli Sərəncamına əsasən Qafqaz ekoregionunda ilk dəfə olaraq muxtar respublikamızda transsərhəd çay olan Araz çayı boyunca (muxtar respublika hüdudlarına aid hissədə) "Arazboyu" Dövlət Təbiət Yasaqlığı (ərazisi 9118 hektar) yaradılmışdır. Bu yasaqlığın yaradılması Araz çayı və Araz dəryaçasında su sərvətlərinin, o cümlədən su, bataqlıq quşlarının qorunmasına, onların məskunlaşdığı yerlərə insan təsirinin azalmasına şərait yaratdı. Ötən illərdə Kiçik Qafqazın Zəngəzur-Dərələyəz dağ silsilələrinin Naxçıvan hüdudlarına aid hissəsini əhatə edən, təbiət komplekslərinin, təbiət və tarixi mədəniyyət abidələrinin yerləşdiyi coğrafi ərazilərdə respublika və beynəlxalq əhəmiyyətli milli parkın yaradılması sahəsində zəruri addımlar atılmışdır.

Mühafizə olunan təbiət ərazilərinin genişləndirilməsi də ekoloji mühitin sağlamlaşdırılmasına öz müsbət təsirini göstərməkdədir. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkının ərazisi Şahbuz Dövlət Təbiət Qoruğu, habelə Naxçıvan Muxtar Respublikasının Culfa və Ordubad rayonlarının

inzibati ərazisində olan dövlət meşə fondu, Şahbuz, Culfa, Ordubad rayonlarının ərazisindəki yay otlaqlarının torpaqları hesabına genişləndirilmiş, 42 min 787 hektardan çox ərazidə Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı yaradılmışdır.

Bundan başqa, mövcud ekoloji vəziyyətin daha da yaxşılaşdırılması, təbii sərvətlərin qorunması, onlardan səmərəli istifadə olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 22 iyun tarixli Fərmanı ilə Şərur, Kəngərli, Şahbuz və Babək rayonlarının ərazisində 68 min 911 hektar sahədə "Arpaçay" Dövlət Təbiət Yasaqlığı yaradılmışdır.

Xüsusi mühafizə statuslu təbiət obyektlərinin yaradılması təbiət komplekslərinin, flora və fauna ehtiyatlarının qorunmasına, bərpasına, ekoloji balansın təmin edilməsinə müsbət təsir göstərmişdir. Muxtar respublikamızda təbiəti mühafizə tədbirlərinin əhatə dairəsi və ardıcıllığı fauna ehtiyatlarının artmasına müsbət təsir göstərmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair "Qırmızı kitab"ların hazırlanması sayı azalmaqda olan növlərin qorunub saxlanılmasına və artırılmasına, xüsusi qaydada mühafizə edilməsinə geniş təminat yaratmışdır.

NƏQLİYYAT

Muxtar respublikaya son 15 ildə 20320 yeni avtomobil gətirilib

Muxtar respublika iqtisadiyyatının ahəngdar fəaliyyətinin təşkili, müdafiə qüdrətinin gücləndirilməsi və əhalinin artan hərəkət dinamikliyinin təmin edilməsində mühüm infrastruktur sahə olan nəqliyyat ictimai həyatda əhəmiyyətli rola malikdir.

20 ildən artıqdır ki, muxtar respublika blokada şəraitindədir. Ötən dövrlər ərzində blokada vəziyyəti ilə bağlı çətinlikləri aradan qaldıraraq, nəqliyyat infrastrukturunu yenidən təşkil etmək sahəsində əsaslı tədbirlər görülmüş, Naxçıvan Beynəlxalq Hava Limanının, Sədərək, Culfa və Şahtaxtı Gömrük İdarələrinin sərhəd-keçid komplekslərinin, Şahtaxtı Sərhəd Keçid Məntəqəsində yeni körpünün istifadəyə verilməsi, "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunun açılması əlaqələrin genişlənməsində mühüm mərhələ olmuşdur. Bu işlərin davamı kimi hazırda Culfa (Azərbaycan Respublikası) – Culfa (İran İslam Respublikası) yeni avtomobil yolu körpüsünün inşası aparılır. Son 15 ildə muxtar respublikada 2870 kilometr uzunluğunda yeni avtomobil yolları salınmış, 5 yeni avtovağzal kompleksi inşa olunmuş, 119 körpü tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Bu müddət ərzində şəhər nəqliyyatı işinin yaxşılaşdırılması istiqamətində tədbirlərə uyğun olaraq 142 ədəd yeni müasir tipli avtobus alınaraq muxtar respublikaya gətirilmiş və istismara cəlb olunmuşdur. Digər tərəfdən isə bu müddət ərzində dəmiryolu nəqliyyatının gələcək inkişaf perspektivləri nəzərə alınaraq infrastrukturu davamlı olaraq təkmilləşdirilmiş və muxtar respublika daxilində ahəngdar işi təmin edilmişdir.

Nəqliyyat sektorunda yük və sərnişin daşınması

Göstəricilər / Müqayisə dövrü	2010-cu ilin yanvar-avqust ayları üzrə	1995-ci il üzrə	analoji nisbət
Nəqliyyat sektorunda yük daşınması, min ton	6874,0	632,6	10,9 dəfə
Nəqliyyat sektorunda sərnişin daşınması,min sərnişin	43339,4	23082,8	187,8 faiz

Ötən 15 il ərzində muxtar respublikamızda avtomobil yollarının inşasına və əsaslı təmirinə, dəmiryolu nəqliyyatının inkişaf perspektivləri nəzərə alınaraq bu sahədə mövcud infrastrukturun yeniləşdirilməsinə və hava nəqliyyatı işinin təkmilləşdirilməsinə ümumilikdə 195 milyon 333 min manatdan artıq investisiya yönəldilmişdir.

Muxtar respublikamızda nəqliyyat kompleksinin ümumi inkişaf templərinə paralel olaraq istifadədə olan avtomobillərin sayı da günbəgün artmaqdadır. 1995-ci ilin əvvəlinə muxtar respublikada 15612 ədəd avtomobil mövcud idisə, 01 yanvar 2010-cu il tarixə bu göstərici 2,3 dəfə artaraq 35932 ədədə çatmışdır.

Avtomobillərin sayı, ədədlə



Muxtar respublikamızda nəqliyyatın inkişafına yönəldilmiş dövlət siyasətinin əsas məqsədi əhalinin və iqtisadiyyatın nəqliyyat xidmətlərinə artan tələbatının təmin edilməsi, dayanıqlı nəqliyyat sisteminin yaradılması, muxtar respublikanın tranzit potensialının artırılması, nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Bu məqsədlərin səmərəli təmin olunması üçün aşağıdakı istiqamətlər üzrə mühüm tədbirlər reallaşdırılmaqdadır.

- bazar iqtisadiyyatı şəraitində nəqliyyatın fəaliyyətinin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması məqsədilə islahatlar davam etdirilir;
- nəqliyyatda dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədilə tənzimləmə və kommersiya funksiyalarının ayrılması həyata keçirilir;
- nəqliyyat xidmətləri bazarında sağlam rəqabət mühiti yaradılır, tarif sistemi təkmilləşdirilir;
- sərhəd-keçid məntəqələri yaxınlığında yerləşən nəqliyyat infrastrukturunun müasir tələblərə uyğun qaydada yeniləşdirilməsinə dair layihələr həyata keçirilir;
- nəqliyyat infrastrukturunun və nəqliyyat vasitələri parkının müasir tələblərə uyğun olaraq yeniləşdirilməsi aparılır;
- Naxçıvan şəhərində və muxtar respublikanın rayon mərkəzlərində nəqliyyatın hərəkətini tənzimlənməsi üçün işıqforların və video kameraların quraşdırılması, müasir işıqlandırma vasitələrindən istifadənin genişləndirilməsi və yolların buraxıcılıq qabiliyyətinin artırılması həyata keçirilir;
- müasir rabitə, telekommunikasiya və naviqasiya sistemlərindən istifadə etməklə nəqliyyat-yol kompleksinin vahid informasiya sisteminin yaradılması üzrə layihələr hazırlanır;
- nəqliyyatda daşınma proseslərinin təhlükəsizliyi və ətraf mühitə

neqativ təsir formalarının beynəlxalq standartlara uyğunlaşdırılması aparılmaqdadır;

- muxtar respublika əhalisinin və iqtisadiyyatın nəqliyyat xidmətlərinə olan tələbatın tam təmin edilməsi üçün kompleks tədbirlər reallaşdırılır.

Qeyd olunan istiqamətlərdə həyata keçirilən zəruri islahatlar muxtar respublikanın nəqliyyat infrastrukturunun daha da gücləndirilməsinə, onun tranzit potensialının artırılmasına, bu sahədə və ümumilikdə sahibkarlığın inkişafına, nəqliyyat sisteminin dayanıqlı yüksəlişinə əsaslı zəmin yaratmaqdadır.

RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI

Muxtar respublikada 356 mindən artıq mobil telefon aktiv istifadədədir

Qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyətinin ilk növbədə informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə ilə bağlı olmasını nəzərə alan ölkə başçısı cənab İlham Əliyev informasiya-kommunikasiya texnologiyaları sahəsinin əhəmiyyətini qiymətləndirərək demişdir: **"Mən informasiya-kommunikasiya texnologiyalarının Azərbaycanda tətbiqini prioritet məsələ elan edirəm. Bu, gələcəkdir, gələcəyin inkişafıdır".**

Ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da bu sahəyə daim diqqət və qayğı ilə yanaşılır. Muxtar respublikada informasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması sosial-iqtisadi tərəqqinin sürətləndirilməsi üçün zəruri məsələlərdən birinə çevrilmişdir. Bu baxımdan inkişaf etmiş in-

formasiya və kommunikasiya infrastrukturunun yaradılması istiqamətində mühüm tədbir sayılan optik kabel magistrallarının tikintisi işi böyük tutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsinə geniş imkanlar yaratmış və hazırda bu iş muxtar respublika daxilində davam etdirilməkdədir.

1995-ci ildən ötən dövr ərzində muxtar respublika ərazisində 4 mobil rabitə operatorunun fəaliyyətinin təşkil edilməsi, internet xidməti sahəsinin yaradılması, mövcud koordinat tipli avtomat telefon stansiyalarının hamısının elektron tipli avtomat telefon stansiyaları ilə əvəz edilməsi, İran İslam Respublikasının ərazisindən keçməklə Bakı və Naxçıvan şəhərləri arasında fiber optik kabelin çəkilişi, "Naxtel" simsiz telefon xidmətinin istifadəyə verilməsi, "Kanal-35" televiziyasının və "Naxçıvanın səsi" radio kanalının efirə verilməsinin təşkili, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin maddi-texniki bazasının gücləndirilməsi, gün ərzində efir vaxtının artırılması, Naxçıvan Muxtar Respublikası İnternet Mərkəzinin, Naxçıvan Muxtar Respublikası Kompyuter Təlim-Tədris və İnternet Mərkəzinin və onun rayon filiallarının səmərəli fəaliyyətinin təşkili, iqtisadiyyatın bütün sahələrində informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin uğurla davam etdirilməsi, bu sahə ilə əlaqədar çoxsaylı beynəlxalq simpoziumların və konfransların keçirilməsi muxtar respublikada informasiya və kommunikasiya texnologiyalarının ictimai həyatımıza sürətli inteqrasiyasını bir daha sübut edir.

Reallaşdırılan məqsədyönlü islahatlar muxtar respublikada rabitə və informasiya texnologiyalarının inkişafı üzrə əsas göstəricilərin müsbət dinamikasını təmin etməkdədir.

İnformasiya və kommunikasiya texnologiyaları üzrə əsas göstəricilər

Göstəricilər / Müqayisə dövrü	01 sentyabr 2010-cu ilə	01 yanvar 1996-cı ilə	analoji nisbət
Elektron tipli ATS-lərin sayı	97	-	-
Mobil operatorların sayı	4	-	-
Kompyuterlərin sayı	51519	380	135,6 dəfə
o cümlədən			
- ailələrdə	44980	230	195,6 dəfə
- idarə, müəssisə və təşkilatlarda	6539	150	43,6 dəfə
Kompyuterlərdən istifadə edən şəxslərin sayı	206428	1564	132,0 dəfə
o cümlədən internetdən istifadə edənlərin sayı	148781	-	-
Mobil telefonların sayı	356795	-	-
Hər yüz nəfərə düşən mobil telefonların sayı	88,2	-	-
Əsas telefon aparatlarının sayı	59282	23600	2,5 dəfə
Muxtar respublikanın yaşayış məntəqələrinin internetə çıxış faizi o cümlədən -simsiz internet üzrə -telefon xətti üzrə	 80 faiz 100 faiz	 0 faiz 0 faiz	 - -
İnformasiya və rabitə xidmətlərinin həcmi, min manat	22831,1*	420,3**	54,3 dəfə
o cümlədən mobil rabitə üzrə	19477,4*	-	-

*) 2010-cu ilin yanvar-avqust ayları

**) 1995-ci ilin yekunu üzrə

Bu işlərin davamı qismində 2010-cu ilin may ayında Naxçıvan şəhərini, Babək qəsəbəsini və Nehrəm kəndini əhatə edən Yeni Nəsil Telekommunikasiya şəbəkəsi istifadəyə verilmişdir. Yeni Nəsil Telekommunikasiya şəbəkəsinin ənənəvi telefon rabitəsi sistemlərindən əsas üstünlükləri eyni zamanda səs və şəkil siqnallarının ötürülməsi, şəbəkə üzərindən televiziya və geniş zolaqlı internet, video-telefon və çoxlu sayda əlavə servis xidmətləri göstərməkdən ibarətdir.

Muxtar respublikada rabitə və informasiya texnologiyalarının inkişafının səmərəli təşkili ilə bütün fəaliyyət sahələrində tərəqqiyə nail olunur. Bu davamlı inkişafın qorunub saxlanılması üçün aşağıdakı istiqamətlərdə zəruri islahatlar həyata keçirilir:

- rabitə və informasiya texnologiyalarının cari və gələcək inkişafı üçün effektiv mexanizmlər formalaşdırılır;
- qlobal informasiya şəbəkəsinə inteqrasiya mütəmadi olaraq genişləndirilir;
- cəmiyyətin, iqtisadiyyatın, dövlət orqanlarının, hüquqi və fiziki şəxslərin ümumistifadəli rabitə və informasiya texnologiyaları şəbəkələrinə qoşulma imkanları və onların artan tələbatları təmin edilir;
- muxtar respublikanın informasiya təhlükəsizliyi sistemi müntəzəm əsasda təkmilləşdirilir;
- poçt xidmətinin modernləşdirilməsi və yeni xidmət növlərinin istifadəyə verilməsi davam etdirilir;
- yeni texnika və texnologiyaları tətbiq etməklə daha keyfiyyətli radio-televiziya yayımı təmin olunur;
- innovasiya siyasəti müəyyənləşdirilir və informasiya cəmiyyətinin qurulmasını təmin edən fundamental tədqiqatlar aparılır;
- rabitə və informasiya texnologiyaları bazarında sərbəst və azad

rəqabət şəraiti təmin olunur;

- dövlət, ictimai və sahə informasiya resurslarının formalaşdırılması həyata keçirilir, informasiya sistemləri və şəbəkələri yaradılır.

İnformasiya texnologiyalarından istifadə qismində mühüm bir göstərici ondan ibarətdir ki, 01 yanvar 1996-cı il tarixə muxtar respublikada əsas telefon aparatlarının sayı 23600 nömrə olduğu halda, 01 sentyabr 2010-cu il tarixə bu göstərici 2,5 dəfə artaraq 59282 nömrəyə çatmışdır.

Əsas telefon aparatlarının sayı, nömrə



İnformasiya-kommunikasiya texnologiyalarının inkişafının son nailiyyətlərindən olan mobil telefonlar da müasir həyatımızın ayrılmaz elementlərindəndir. Son dövrlər mobil rabitə sektoru da öz inkişaf dövrünün aktiv mərhələsini yaşamaqdadır. Ötən dövr ərzində muxtar respublikada mobil telefon abunəçilərinə xidmət edən 4 mobil operator fəaliyyətə başlamışdır. Hazırda muxtar respublikada 356 min 795 mobil telefon aktiv istifadədədir.

Mobil telefonların sayı, ədədlə



01 sentyabr 2010-cu il tarixə muxtar respublika sakinlərinin hər yüz nəfərində 88 ədəd aktiv mobil telefon mövcud olmuşdur.

Əhalinin hər yüz nəfərinə düşən mobil telefonların sayı, ədədlə



Əhalinin maddi rifah halının daha da yaxşılaşmasının və muxtar respublikada təhsilə olan meylin daha da yüksəlməsinin nəticəsidir ki, ailələrdə mövcud olan kompyuterlərin sayı yüksələn xətt üzrə artmaqdadır.

Ailələrdə kompyuterlərin mövcudluğu, ədədlə



Ümumilikdə 01 sentyabr 2010-cu il tarixə muxtar respublikanın müəssisə və təşkilatlarında, ev təsərrüfatlarında 51 min 519 kompyuter mövcud olmuşdur ki, bu da 01 yanvar 1996-cı il tarixə olan göstəriciyə nisbətən 136 dəfə çoxdur. Ötən dövr ərzində kompyuterlərdən istifadə edənlərin sayı da kəskin şəkildə artmışdır. Hazırda muxtar respublikada kompyuter istifadəçilərinin sayı 206 min nəfərdən, internetdən istifadə edənlərin sayı isə 148 min nəfərdən çoxdur.

Kompyuter istifadəçilərinin sayı, nəfərlə



Muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ümumilikdə bu sahə üzrə göstərilən xidmətlərin həcminin dinamik artımına da zəmin yaratmışdır.

Belə ki, informasiya və rabitə xidmətlərinin həcmi 1995-ci ildə 420,3 min manat, 2000-ci ildə 2448,4 min manat, 2005-ci ildə 9014,2 min manat, 2010-cu ilin yanvar-avqust aylarında isə 22831,1 min manat təşkil etmişdir.

İnformasiya və rabitə sahəsində göstərilmiş xidmətlərin həcmi, min manatla



Rabitə sahəsində həyata keçirilən tədbirlər muxtar respublikanın mövcud potensialından səmərəli istifadəni və onun inkişaf etdirilməsini, rabitə və informasiya texnologiyaları sahəsinin təşkilati, hüquqi, texniki və kadr təminatı baxımından modernləşdirilməsini, muxtar respublikada informasiya cəmiyyətinə keçidi daha da sürətləndirməkdədir.

SAHİBKARLIĞIN İNKİŞAFI VƏ KREDİT QOYULUŞLARI

Sahibkarlığa Kömək Fondu tərəfindən son 10 ildə 62 milyon manata yaxın həcmdə kredit verilmişdir

Son dövrlər muxtar respublikada ardıcıl və sistemli iqtisadi islahatların aparılması nəticəsində dövlət mülkiyyətində olan müəssisələrin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması iqtisadiyyatın davamlı inkişafına və əhalinin güzəranının yaxşılaşmasına səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin I mərhələsində dövlət mülkiyyətində olan, əsasən istehlak və xidmət təyinatlı bir çox müəssisə və obyektlər xüsusi mülkiyyətə verilərək yeni mülkiyyətçilər tərəfindən onların fəaliyyəti bərpa olunmuş, muxtar respublikanın istehlak və xidmət bazarında sahibkarlığın inkişafı, habelə əldə edilmiş gəlirin istehsal sektoruna reinvestisiyası üçün əlverişli şərait yaradılmışdır. Muxtar respublikada ilkin mərhələdə ticarət və xidmət obyektlərinin özəlləşdirilməsi ilə başlanan dövlətsizləşdirmə prosesindən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 23 avqust tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı" özəlləşdirilmə prosesinin ikinci mərhələsinə start verilməsinə və özəlləşdirmənin sürətləndirilməsinə şərait yaratmışdır.

Dövlət Proqramına uyğun olaraq özəlləşdirmə prosesi başlandıqdan bu günə kimi 55 dövlət müəssisəsi səhmdar cəmiyyətə çevrilmişdir. Bu cəmiyyətlərdən 34-ü sənaye müəssisəsi, 21-i isə digər sahələrə aiddir. Dövlət müəssisələri səhmdar cəmiyyətinə çevrildikdən bu günə qədər 44 səhmdar cəmiyyətinin səhmləri

auksiona çıxarılmışdır.

Ötən dövrdə yaradılmış 55 səhmdar cəmiyyətdən 36-da yenidənqurma işləri aparılaraq 42 istehsal və 12 xidmət sahəsi yaradılmış və nəticədə həmin müəssisələrdə 2000-ə yaxın iş yeri açılmışdır.

Muxtar respublikada iş adamlarının maraqlarını müdafiə etmək və sahibkarlığın inkişafına dəstək vermək, səmərəli idarəolunmanı təşkil etmək, sahibkarlara göstərilən xidmətləri və informasiya təminatını yaxşılaşdırmaq, sahibkarlığın inkişafı istiqamətində tədbirlərdə yaxından iştirak etmək kimi vəzifələri yerinə yetirmək məqsədilə 18 yanvar 2006-cı ildə Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası yaradılmışdır.

Sənətkarlara əl işlərinin və sənət əsərlərinin sərgi-satışı, informasiya xidmətləri, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə reklam və kommersiya fəaliyyətləri ilə əlaqədar kömək göstərilməsi, işsizlərin işlə təmin edilməsi, əlillərin məşğulluğunun artırılmasına nail olunması, sənətkarların və sahibkarların problemlərinin öyrənilməsi, bu problemlərin həllinə köməklik göstərilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin nəzdində 2004-cü ildə "Əl işlərinin, Sənət Əsərlərinin Sərgi-Satışı və Sahibkarların İnformasiya Mərkəzi" fəaliyyətə başlamış və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 17 may tarixli Fərmanı ilə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin Əsasnaməsinə uyğun olaraq "Sərgi-Satış və Sahibkarların Tədris İnformasiya Mərkəzi" kimi fəaliyyətini davam etdirməkdədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 09 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)"

və 2009-cu il 28 may tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən muxtar respublikanın təbii və əmək potensialından səmərəli istifadə etməklə yeni istehsal və xidmət sahələrinin yaradılması, infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi, sahibkarlıq mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçirilməsi, özəl sektorun inkişafının daha da sürətləndirilməsi, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılması, müasir tipli infrastruktur obyektlərinin yaradılması, əhalinin kommunal xidmətlərlə təminatının yaxşılaşdırılması, yoxsulluğun səviyyəsinin azaldılması və digər mühüm tədbirlər nəzərdə tutulmuş və proqramların uğurlu icrası nəticəsində bir çox nailiyyətlər əldə edilmişdir.

Kredit qoyuluşu maliyyə fəaliyyətinin tərkib hissəsi olmaqla iqtisadiyyatın dinamik inkişafında, yeni infrastrukturun yaradılmasında, insanların sahibkarlıq sferasına daxil olmasında və sair bu kimi zəruri məqsədlərə çatmaqda mühüm vasitədir. Naxçıvan Muxtar Respublikasının inzibati ərazisində fəaliyyət göstərən bank strukturları və kredit təşkilatları tərəfindən sahibkarlara 2010-cu ilin yanvar-avqust ayları ərzində verilmiş kreditlərin həcmi 1995-ci illə müqayisədə 89 dəfə artaraq 22 milyon 413 min manat təşkil etmişdir. Verilmiş kreditlərin 7 milyon 906 min manatı qısamüddətli, 14 milyon 507 min manatı isə uzunmüddətli kreditlərdir.

Kredit qoyuluşları haqqında, min manatla

Müqayisə dövrü / Göstəricilər	2010-cu ilin yanvar-avqust ayları üzrə	1995-ci il üzrə	analoji nisbət
Kredit qoyuluşları - cəmi	22413,1	250,8	89,4 dəfə
ondan:			
qısamüddətli	7905,5	159,6	49,5 dəfə
uzunmüddətli	14507,6	91,2	159,1 dəfə

2000-ci ildən ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən 923 layihənin maliyyələşdirilməsinə ümumilikdə 61669,6 min manat həcmində kredit verilmişdir. Həmin vəsaitinin 46296,3 min manatı və ya 75,1 faizi sənaye sektorunun, 7366,5 min manatı və ya 11,9 faizi kənd təsərrüfatı sektorunun, 8006,8 min manatı və ya 13,0 faizi xidmət sektorunun payına düşmüşdür. Bunlardan 164 layihə və ya ümumi layihələrin 17,8 faizi sənaye sektorunun, 731 layihə və ya ümumi layihələrin 79,2 faizi kənd təsərrüfatı sektorunun, 28 layihə və ya ümumi layihələrin 3,0 faizi xidmət sektorunun payına düşür. Həmin müddət ərzində kənd təsərrüfatı sahəsində taxılçılığın inkişafı üzrə 116 layihənin maliyyələşdirilməsinə 704,3 min manat, kartofçuluğun inkişafı üzrə 269 layihənin maliyyələşdirilməsinə 834,2 min manat, heyvandarlığın inkişafı üzrə 193 layihənin maliyyələşdirilməsinə 2108,0 min manat arıçılığın inkişafı üzrə 90 layihənin maliyyələşdirilməsinə 585,0 min manat, quşçuluğun inkişafı üzrə 33 layihənin maliyyələşdirilməsinə 2022,0 min manat, balıqçılığın inkişafı üzrə 24 layihənin maliyyələşdirilməsinə 787,0 min manat, istixana kompleksi üzrə 6 layihənin maliyyələşdirilməsinə 326,0 min manat vəsait yönəldilmişdir.

Daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında, idxaldan asılılığın azaldılmasında, əhalinin

tələbatının daha dolğun ödənilməsində yerli istehsalın rolu əhəmiyyətli dərəcədə artırılmışdır.

Həyata keçirilmiş tədbirlər nəticəsində bu gün 108 növdə, 319 çeşiddə ərzaq, 179 növdə, 432 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 287 növdə, 751 çeşiddə məhsul istehsal olunur. İstehsal olunan 89 növdə ərzaq, 153 növdə qeyri-ərzaq olmaqla, cəmi 242 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir.

Özəl sektorun inkişafı üçün yaradılmış münbit şəraitin nəticəsi olaraq 2010-cu ilin yanvar-avqust aylarında muxtar respublikada Ümumi Daxili Məhsul istehsalında özəl bölmənin payı 85,7 faiz təşkil etmişdir. Özəl sektor inkişaf etdikcə, ümumi daxili məhsulda bu sektorun xüsusi çəkisi artdıqca və sahibkarlıq fəaliyyəti genişləndikcə məşğulluq problemi də məhz bu sektor hesabına təmin edilir.

YENİ İŞ YERLƏRİ

Son 15 ildə muxtar respublikada 64153 yeni iş yeri yaradılmışdır

Həyata keçirilmiş məqsədyönlü tədbirlərin nəticəsində 1995-ci ildən 01 sentyabr 2010-cu il tarixədək muxtar respublika üzrə 64153 yeni iş yeri yaradılmışdır. Yeni iş yerlərinin 21332-si və ya 33,3 faizi dövlət sektorunda, 42821-i və ya 66,7 faizi qeyri-dövlət sektorunda yaradılmışdır. Yeni yaradılmış iş yerlərinin 38819-u və ya 60,5 faizi daimi iş yeridir.

Tənzimlənən bazar iqtisadiyyatı şəraitində muxtar respublikamızda da əmək bazarının konyukturunun öyrənilməsi və ona səmərəli müdaxilə, işaxtaranlara xüsusilə də gənclərə, o cümlədən peşə tədrisini başa vurmuş, müəyyən ixtisas və ya peşə vərdişlərinə

yiyələnmiş məzunlara əmək bazarında aktiv iş axtarma meyllərinin aşılanması, onların gələcək iş prosesinə psixoloji cəhətdən hazırlanması, ən əsası işlə təminatda köməkliyin göstərilməsi məşğulluq xidməti orqanları qarşısında duran mühüm vəzifələrdəndir. Belə ki, son 15 il ərzində muxtar respublikanın məşğulluq xidməti orqanları 18515 nəfərin işlə təminatında köməklik və vasitəçilik etmişdir.

XARİCİ TİCARƏT

15 il öncəyə nisbətdə ixrac potensialımız 51 dəfə güclənmişdir

Ümumi iqtisadi aktivliyi gücləndirən amillərdən biri yüksək keyfiyyətli, beynəlxalq standartlara cavab verən yerli istehsal məhsullarının dünya bazarlarına sərbəst çıxarılmasından, satış problemlərinin səmərəli həllindən, ixrac potensialının daha da gücləndirilməsindən ibarətdir.

Son 15 il ərzində muxtar respublikada sahibkarlıq fəaliyyəti və ticarət üçün yaradılmış münbit şəraitin nəticəsi olaraq xarici ticarət əlaqələrinin coğrafiyası daha da genişlənmiş və ilk dəfə olaraq 2009-cu ildə xarici ticarətdə müsbət saldo yaranmışdır. 2009-cu il ərzində xarici ticarət dövriyyəsinin 112287,2 min ABŞ dollarını ixrac, 107759,3 min ABŞ dollarını isə idxal təşkil etməklə xarici ticarət dövriyyəsi 220046,5 min ABŞ dollarına çatmışdır.

Yerli istehsal potensialının davamlı olaraq gücləndirilməsi qarşılığında kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatın ödənilməsində idxaldan asılılıq əsas etibarı ilə aradan qaldırılmışdır. Bir faktı qeyd etmək olar ki, əgər 1995-ci ildə muxtar respublikaya xarici ölkələrdən idxal olunan məhsulların 90 faizini ərzaq və

kənd təsərrüfatı məhsulları təşkil edirdisə, ötən il bu göstərici azalaraq 28 faizə düşmüşdür. Bu 28 faizin əsas hissəsi isə muxtar respublikada yetişdirilməsi mümkün olmayan bitkilərdən ibarətdir. Hazırda muxtar respublikaya ərzaq idxalının sonu, texnika və avadanlıq idxalının isə aktiv dövrü müşahidə edilməkdədir.

İSTEHLAK BAZARI VƏ ƏHALİNİN GƏLİRLƏRİ

Son 15 ildə əhali gəlirlərinin həcmi 19 dəfə artmışdır

Muxtar respublikada cari iqtisadi inkişaf prosesləri əhalinin alıcılıq qabiliyyətinin davamlı yüksəlişində, istehlak bazarında əmtəə dövriyyəsinin və pullu xidmətlərin həcminin artımında özünü daha qabarıq büruzə verir. Belə ki, 2010-cu ilin yanvar-avqust aylarında muxtar respublikanın istehlak bazarında əhaliyə 413 milyon 679 min manatlıq istehlak malları satılmış və pullu xidmətlər göstərilmişdir. Əmtəə satışının və pullu xidmətlərin real həcmi 1995-ci illə müqayisədə 10,3 dəfə artmış, pərakəndə əmtəə dövriyyəsinin həcmi 9,6 dəfə yüksəlmişdir.

Muxtar respublika əhalisinə 2010-cu ilin yanvar-avqust aylarında göstərilən pullu xidmətlərin həcmi 1995-ci illə müqayisədə 16,4 dəfə artaraq 63 milyon 124 min 700 manat təşkil etmişdir.

Əmtəə bazarında adambaşına göstəricilər

Müqayisə dövrü / Göstəricilər	2010-cu ilin yanvar-avqust ayları üzrə	1995-ci il üzrə	analoji nisbət
Pərakəndə əmtəə dövriyyəsi, manatla	866,2	109,1	7,9 dəfə
Pullu xidmətlər, manatla	156,0	11,5	13,6 dəfə

Əhalinin yaşayış standartlarının daha da yüksəldilməsi məqsədilə məişət və ticarət xidmətinin səviyyəsi hazırda ardıcıl olaraq təkmilləşdirilməkdədir. Bu istiqamətdə son 15 ildə 37 ticarət mərkəzi və məişət evi tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Reallaşdırılan səmərəli iqtisadi siyasətin nəticəsi olaraq əhalinin gəlirləri, gəlirlərdən son istehlak xərcləri çıxıldıqdan sonra onun yığıma yönəldilən hissəsi davamlı şəkildə yüksəlməkdədir.

Əhali gəlirləri, min manatla



Muxtar respublikada əhalinin gəlirləri 2010-cu ilin yanvar-avqust aylarında 1995-ci illə müqayisədə 19 dəfə artaraq 610 milyon 457 min manat olmuş, bu dövr ərzində adambaşına gəlirlər 16 dəfə artaraq 1510 manata çatmışdır.

Əhalinin gəlirləri haqqında

Göstəricilər / Müqayisə dövrü	2010-cu ilin yanvar-avqust ayları üzrə	1995-ci il üzrə	analoji nisbət
Əhalinin gəlirləri, min manat	610457,0	31538,9	19,4 dəfə
Adambaşına gəlirlər, manat	1510,0	94,2	16,0 dəfə

Aparılan məqsədyönlü iqtisadi siyasət muxtar respublikada əhali rifahının davamlı yüksəlişinə əsaslı zəmin yaratmışdır. 2010-cu ilin yanvar-avqust aylarında muxtar respublikada bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 282 manat olmuş və 1995-ci il üzrə müvafiq göstəricini 18 dəfə üstələmişdir.

Orta aylıq əməkhaqqı haqqında

Göstərici / Müqayisə dövrü	2010-cu ilin yanvar-avqust ayları üzrə	1995-ci il üzrə	analoji nisbət
Orta aylıq əməkhaqqı, manatla	281,8	15,9	17,7 dəfə

Orta aylıq əməkhaqqının artımı, digər tərəfdən isə sahibkarlığın geniş vüsət alması məcburi dövlət sosial sığorta haqlarının yığılmasına öz müsbət təsirini göstərmiş və 2010-cu ilin yanvar-avqust ayları ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən yığılmış vəsait 1995-ci ilə nisbətən 35 dəfə artaraq 22 milyon 436 min 150 manatdan çox olmuşdur. Məcburi dövlət sosial sığorta haqlarının yığımında 35 dəfəlik artım tempi ümumilikdə muxtar respublikamızda sahibkarlıq fəaliyyətinin genişlənməsindən, gəlirlərin dinamik artımından, ən əsası isə yaradılmış münbit şəraitdən səmərəli yararlanaraq inkişaf edən özəl sektordakı iqtisadi fəallıqdan xəbər verir. Bu proses isə öz növbəsində milli gəlirin təkrar bölgüsü zamanı sosial xarakterli

ödənişlərin, pensiyaların məbləğini artırmağa imkan yaratmaqdadır.

2010-cu ilin yanvar-avqust ayları ərzində Dövlət Sosial Müdafiə Fondu tərəfindən pensiya və müavinətlərin ödənilməsinə 44 milyon 891 min manatdan çox vəsait yönəldilmişdir ki, bu da 1995-ci illə müqayisədə 17 dəfə çoxdur. Pensiya və müavinətlərin ödənişi üçün tələb olunan vəsaitin 53,3 faizi məcburi dövlət sosial sığorta haqqı kimi muxtar respublikada toplanmışdır.

SOSİAL SEKTOR

Bu gün böyük inkişaf yoluna qədəm qoyan Naxçıvan torpağı özünün zəngin elmi, mədəni potensialını daha da genişləndirir. Müasir tələblər səviyyəsində inşa olunan elm-təhsil müəssisələri muxtar respublikada elmin inkişafına yeni üfüqlər açır.

Ötən dövr ərzində Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Mərkəzi Aparatı, Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat institutlarının, Təbii Ehtiyatlar İnstitutunun, Batabat Astrofizika Rəsədxanasının və Əlyazmalar fondunun, Bioresurslar İnstitutunun inzibati binaları, Biokimyəvi Tədqiqatlar Laboratoriyasının, Batabat Astrofizika Rəsədxanasının və Bioresurslar İnstitutunun Nəbatat bağının binaları tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Elmin inkişafını şərtləndirən amillərdən biri də bu sahənin səmərəli maliyyələşdirilməsidir. 2009-cu ildə muxtar respublikada elmin maliyyələşdirilməsinə 1995-ci ildəki göstəriciyə nisbətən 255 dəfə çox, yəni 2089 min manat həcmində büdcə vəsaiti sərf olunmuşdur.

Elmin maliyyələşdirilməsi haqqında

Göstərici / Müqayisə dövrü	2009-cu il üzrə	1995-ci il üzrə	analoji nisbət
Elmin maliyyələşdirilməsinə sərf olunmuş cəmi vəsait, min manat	2089,0	8,2	254,8 dəfə

Təhsilin dövlət siyasətində prioritet rolunu nəzərə alaraq təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tələblər səviyyəsində möhkəmləndirilməsi, təhsilin məzmununun yeniləşdirilməsi, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilməsi və təhsil sisteminin informasiyalaşdırılması, təhsil infrastrukturunun təkmilləşdirilməsi, kadr hazırlığı və təminatının yaxşılaşdırılması, təhsil alanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni model və mexanizmlər tətbiq olunmaqdadır.

Yeni informasiya texnologiyalarından istifadə olunmaqla dünya təhsil sisteminə inteqrasiyaya imkan yaradan, bütövlükdə əhalini informasiya cəmiyyətinə hazırlamaq məqsədi daşıyan "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)"nın muxtar respublikada icrası uğurla başa çatdırılmış, "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"ı üzrə hazırda informasiya texnologiyalarının tətbiqi sahəsində mühüm tədbirlər həyata keçirilir. Bu gün muxtar respublikada istifadəyə verilən elə bir təhsil müəssisəsi yoxdur ki, orada ən müasir texnoloji avadanlıqlar tətbiq olunmasın.

Təhsilin maddi texniki bazası üzrə bəzi göstəricilər haqqında

Göstəricilər / Müqayisə dövrü	2010-cu ilin yanvar-avqust ayları üzrə	1995-ci il üzrə	analoji nisbət
Kompyuteri olan məktəblərinin sayı, vahidlə	223	20	11,2 dəfə
1 dəst kompyuteri istifadə edən şagirdlərin sayı, nəfərlə	19	4050	-
İstilik sistemi olan məktəblərinin sayı, vahidlə	223	5	44,6 dəfə

Muxtar respublikanın ümumtəhsil məktəblərində 01 sentyabr 2010-cu il tarixə 2781 dəst kompyuter quraşdırılmış, beləliklə, hər 20 şagird əvəzinə 19 şagird bir dəst kompyuterlə təmin olunmuşdur.

Ümumtəhsil məktəblərində bir dəst kompyuterdən istifadə edən şagirdlərin sayı, nəfərlə



2009-2010-cu tədris ilinin əvvəlinə muxtar respublikada ümumtəhsil məktəblərində 51846 şagird təhsil almışdır ki, onların da 34750-si və ya 67 faizi internet resurslarından istifadə etmişdir. Hazırda ümumtəhsil məktəblərində istifadədə olan 2781 dəst kompyuterin 2193-ü və ya 79 faizi internetə qoşulmuşdur.

Ümumtəhsil məktəblərində kompyuterlərin mövcudluğu, ədədlə



Muxtar respublikanın ümumtəhsil məktəblərində təhsilin daha da keyfiyyətlə aparılması məqsədilə 2008-2009-cu və 2009-2010-cu tədris illərində 208 elektron lövhə quraşdırılmışdır.

Bu gün muxtar respublikamızda təhsilin inkişafına yönəldilmiş dövlət siyasətinin başlıca məqsədlərindən biri bu sahədə keyfiyyət göstəricilərinin davamlı yüksəlişini təmin etməkdən ibarətdir. Təhsilə göstərilən yüksək dövlət qayğısı özünü ali məktəblərə qəbulun dinamikasında və qəbul imtahanlarında 500-700 bal intervalında bal toplayan abituriyentlərin sayında daha aydın biruzə verməkdədir.

Ali məktəblərə qəbul olunanların sayı, nəfərlə



Ali məktəblərə qəbul imtahanlarında 500-700 intervalında bal toplayan abituriyentlərin sayı, nəfərlə



Son 15 il ərzində muxtar respublikamızda təhsil sahəsində islahatların bir istiqaməti olan – yeni təhsil obyektlərinin inşası prosesinin yüksək dinamikası ümumilikdə cəmiyyətimizin tərəqqisi ilə bağlı pozitiv meylləri konkret faktlarla xarakterizə etməyə imkan verir. Son 15 il ərzində muxtar respublikamızda ümumilikdə 225 təhsil ocağı, o cümlədən 8 ali təhsil infrastruktur obyekti, 68374 şagird yerlik 168 orta məktəb, 1835 yerlik 15 uşaq bağçası, 20 musiqi məktəbi və 14 digər təhsil ocağı tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

Səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının yaxşılaşdırılmasından, orta ömür müddətinin uzadılmasından, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarətdir. Bu məqsədlə pulsuz səhiyyə xidmətlərinin genişləndirilməsi və onun keyfiyyətinin artırılması, səhiyyə müəssisələrinin dərman və avadanlıq təminatının daha da yaxşılaşdırılması, tibbi profilaktika tədbirlərinin əhatəliliyinin və keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsi, yeni səhiyyə müəssisələrinin inşası işləri həyata keçirilir. Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Duzdağ Fizioterapiya Mərkəzi, Naxçıvan Muxtar Respublikası

Doğum Mərkəzi, Naxçıvan Muxtar Respublikası Diaqnostika-Müalicə Mərkəzi, Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzi, Naxçıvan Əlillərin Bərpa Mərkəzi, Naxçıvan Uşaq Bərpa Mərkəzi, Şərur, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayon mərkəzi xəstəxanaları, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanseri, Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri, Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzi kimi səhiyyə obyektlərinin, ümumilikdə isə 1995-ci ildən bu günədək 173 səhiyyə obyektinin istifadəyə verilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin səhiyyəyə göstərdiyi xüsusi diqqətin və qayğının əyani təcəssümüdür.

Səhiyyə sahəsində dövlət siyasətinin mühüm bir istiqaməti qismində aztəminatlı ailələrdən olan xəstələrin muxtar respublikadan kənara getmədən, tamamilə dövlət vəsaiti hesabına müayinəsinin və cərrahiyə əməliyyatlarının təşkili işi son dövrlər diqqət mərkəzində saxlanılmış və ötən dövr ərzində Türkiyə Respublikasından və Bakı şəhərindən mütəmadi olaraq dəvət olunmuş oftalmoloqlar, kardioloq cərrahlar, plastik və laparoskopik cərrahlar tərəfindən 1045 nəfərdə göz, 140 nəfərdə açıq ürək əməliyyatı, 21 laparoskopik cərrahi müdaxilə, 466 nəfərdə koronarangioqrafiya əməliyyatı, anadangəlmə və qazanılma qüsurları olan 64 nəfərdə plastik əməliyyatlar aparılmışdır.

Muxtar respublika ərazisində yoluxucu xəstəliklərin qarşısının alınması daim diqqət mərkəzində saxlanılmış və hazırda yoluxucu xəstəliklərin qarşısının alınması məqsədi ilə Gigiyena Epidemiologiya Mərkəzləri tərəfindən profilaktik və əks epidemik tədbirlər müntəzəm əsasda və keyfiyyətlə aparılmaqdadır. Su anbarlarında, su təchizatı qurğularında, ictimai, inzibati və s. binalarda, çirkab suları axıdılan

yerlərdə və digər obyektlərdə müntəzəm olaraq dezinfeksiya və dezinseksiya işləri təşkil olunmaqdadır. Aparılan profilaktik tədbirlərin nəticəsidir ki, muxtar respublika əhalisi arasında 1996-cı ildən poliomielit, 1997-ci ildən difteriya, 2003-cü ildən isə malyariya xəstəliyi qeydə alınmamışdır. Digər yoluxucu xəstəliklər isə əvvəlki illərlə müqayisədə xeyli azalmışdır.

Xəstəliklərin adı	1996-cı il üzrə	2005-ci il üzrə	2010-cu ilin yanvar-avqust ayları üzrə
Qarın yatalağı	29	0	0
Salmonellyoz	2	0	0
Bakterial dizentereya	42	20	0
Göyöskürək	0	0	0
Difteriya	9	0	0
Qızılca	42	5	0
Tetanus	0	0	0
İnfeksion hepatit	238	6	5
Kəskin brusellyoz	10	6	2
Ağ ciyər vərəmi	297	98	61
Qoturluq	1531	1	0
Epidemik par	63	1	0
Pedikulyoz	21	0	0
Qarayara	4	0	0
Malyariya	2	0	0
Leyşmanioz	0	0	0
Exinokokkoz	0	0	0
Poliomielit	0	0	0

Yoluxucu xəstəliklərin qeydə alınması

Ötən 15 il ərzində muxtar respublikada sosial müdafiəyə ehtiyacı olan əhali qrupuna yönəldilmiş xüsusi dövlət qayğısı

prioritet istiqamət kimi saxlanılmış, Azərbaycan Vətən Müharibəsi, Böyük Vətən Müharibəsi əlillərinə və Çernobıl Atom Elektrik Stansiyasındakı qəzanın ləğvi zamanı əlil olanlara 230 ədəd avtomobil verilmiş, 177 əlil və şəhid ailəsi mənzil və fərdi yaşayış evləri ilə təmin olunmuşdur. 2010-cu ilin yanvar-avqust ayları ərzində muxtar respublikada adambaşına aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə 2 milyon 325 min manatdan çox ünvanlı dövlət sosial yardımı ödənilmişdir.

Son 15 il ərzində ehtiyacı olan 3000 nəfər əlil müxtəlif texniki reabilitasiya vasitələri ilə (əlil arabası, eşitmə aparatı, əsa, qoltuqaltı və dirsəkaltı əsa) təmin olunmuşlar. Protez-ortopedik məmulatlara ehtiyacı olan 1400 nəfərə xidmət göstərilmiş, respublikamızın müxtəlif sanatoriyalarında müalicə olunmaq üçün 1600 nəfər göndərişlərlə təmin olunmuşdur. Bundan əlavə, 1340 nəfər əlilin Naxçıvan Əlillərin Bərpa Mərkəzində, 530 nəfər 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqların Naxçıvan Uşaq Bərpa Mərkəzində müalicələri təşkil olunmuş, 1180 nəfərin respublika daxilində müalicəsinə köməklik göstərilmiş, onurğa sütunundan əziyyət çəkən 110 nəfərin Ukrayna Respublikasında müalicəyə göndərilməsi təmin edilmişdir.

İqtisadi yüksəliş dövrünü yaşayan muxtar respublikamızda həyata keçirilən uğurlu sosial siyasət bütövlükdə cəmiyyət üzvlərinin maddi və mənəvi tələblərinin ödənilməsinə, həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilmişdir. Bu mənada muxtar respublikada ahıllar dövlətin daimi diqqət və qayğısı ilə əhatə olunmuşlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 30 may 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı" bu diqqət və qayğının daha bir ifadəsidir.

Dövlət Proqramının qəbulundan ötən dövr ərzində ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində uğurlu nəticələr əldə edilmiş, tənha yaşayan, hərəkət qabiliyyəti məhdudlaşmış ahıllara evdə xidmət işinin keyfiyyəti xeyli yüksəldilmiş, ahıl və tənha vətəndaşlara göstərilən sosial xidmət daha da təkmilləşdirilmiş, ahılların sağlamlığı səmərəli qorunmuş, onların muxtar respublikanın sosial-iqtisadi və mədəni həyatında fəal iştirakı təmin edilmişdir.

MƏDƏNİYYƏT VƏ TURİZM

Son 15 ildə 272 mədəniyyət obyekti istifadəyə verilmişdir

Qədim tarixə, zəngin mədəniyyətə malik olan Naxçıvan torpağı əsrlərdən bəri qoca Şərqin mədəni mərkəzlərindən biri kimi şöhrət tapmış və Azərbaycan mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına böyük və dəyərli töhfələr vermişdir.

Ulu Naxçıvan diyarı həmişə özünün zəngin mədəniyyəti; ədəbiyyat və incəsənəti ilə xalqımızın tarixində əvəzsiz rol oynamışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi: **"Azərbaycanın iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir".** Ən yeni tariximizin 15 ili ərzində Naxçıvan Muxtar Respublikası parlaq və şərəfli bir yol keçərək bütün sahələrdə olduğu kimi mədəniyyət sahəsində də böyük tərəqqi və uğurlara qovuşmuşdur. Bu baxımdan Naxçıvan Muxtar Respublikası üzrə mədəniyyət müəssisələrinin say dinamikasına nəzər salmaq kifayətdir. 1940-cı ildə kitabxanaların sayı 73, 1965-ci ildə 154 idisə, artıq 2010-cu ildə kitabxanaların sayı 234 olmuşdur. 1940-cı ildə muxtar respublikada klub müəssisələrinin sayı 105, 1965-ci ildə 100, 2010-cu ildə isə 226 olmuşdur. 1950-ci

ildə Naxçıvanda 1 teatr fəaliyyət göstərirdisə, artıq bu gün Naxçıvan Muxtar Respublikasında 3 dövlət teatrı və 4 xalq teatrı, 1 dövlət filarmoniyası, 1 uşaq dövlət filarmoniyası, Aşıqlar Birliyi fəaliyyət göstərir. 1950-ci ildə Naxçıvanda 1 muzey, 1993-cü ildə 12, 1997-ci ildə 16, 2010-cu ildə isə 22 muzey və 1 rəsm qalereyası fəaliyyət göstərmişdir.

Son 15 ildə muxtar respublikamızda tarixi abidələrimizə diqqət və qayğı əsaslı şəkildə dəyişmişdir. Bu illər ərzində Dədə Qorqudun, Koroğlunun abidələri ucaldılmış, abidələrin yerləşdiyi meydanlar yenidən qurulmuş, "Əshabi-Kəhf" ziyarətgahı, Pirəli və Miryaqub qardaşları piri, Xanəgah abidə kompleksi, "Aza" körpüsü, Zaviyyə-Mədrəsə binası, Xan Sarayı, İmamzadə məscid-türbə kompleksi, "Mömünə Xatın" və "Yusif Küseyr oğlu" türbələri, "Nuh Peyğəmbər"in məzarüstü türbəsi, "Quti-xatın" türbəsi və qoşa minarə, "Came" və "Tək-Eşiyi" məscidləri, "Buzxana", "Qala", Naxçıvan və Ordubad şəhərlərində "Şərq hamamı" kimi tarixi abidələrimiz bərpa olunmuş, Naxçıvan şəhərində "Ana dili" abidəsi ucaldılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşması işinin təşkili", "Nuh peyğəmbərin Naxçıvan şəhərində məzarüstü abidəsinin bərpa edilməsi" haqqında, Ordubad "Gəmiqaya Tarix-Bədii Qoruğu" və Şərur "Arpaçay Tarix-Mədəniyyət Qoruğu"nun yaradılması haqqında müvafiq Sərəncamları tarixi abidələrimizə, inanc yerlərimizə qayğı və diqqətin ən bariz nümunəsidir.

Tarixi mədəni irsin qorunması və təbliği, mədəni potensialın daha da inkişaf etdirilməsi son 15 il ərzində diqqət mərkəzində saxlanılmış, mədəniyyət obyektlərinin inşası və yenidən qurulması

davamlı xarakter almışdır. Ümummilli liderimizin xatirəsini əbədiləşdirmək məqsədilə muxtar respublikanın şəhər və rayonlarında möhtəşəm abidələr ucaldılmışdır. Bu müddət ərzində Heydər Əliyev Sarayı, Heydər Əliyev Muzeyi, Səadət Sarayı, Naxçıvan Dövlət Xalça Muzeyi, Açıq Səma Altında Muzey, C.Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi, Naxçıvan Dövlət Tarix Muzeyi, "Xatirə" Muzeyi, C.Məmmədquluzadənin Ev Muzeyi, H.Cavidin Ev Muzeyi, B.Kəngərli Muzeyi, C.Naxçıvanskinin Ev Muzeyi, C.Məmmədquluzadənin Xatirə Muzeyləri, M.S.Ordubadinin Ev Muzeyi, Şahtaxtinskilər Muzeyi, Babək, Ordubad, Kəngərli, Şahbuz, Sədərək rayonlarında tarix-diyarşünaslıq muzeyləri, muxtar respublikanın şəhər və rayonlarında Şəhidlər abidə kompleksləri, yeni parklar, bulaq-abidə kompleksləri, mədəniyyət evləri, klub və kitabxanalar və digər bu kimi mədəniyyət obyektləri istifadəyə verilmişdir. Ümumilikdə isə ötən dövr ərzində muxtar respublikada 272 mədəniyyət obyekti tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

Muxtar respublikada turizmin inkişafı, bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi diqqət mərkəzində saxlanılmışdır. Turizmi iqtisadiyyatın yüksək gəlirli sahəsinə çevirmək, sosial və ekoloji tələblərə cavab verəcək səmərəli və rəqabətə davamlı müasir turizm kompleksləri yaratmaq istiqamətində aparılan məqsədyönlü tədbirlər öz müsbət nəticələrini göstərməkdədir. 2010-cu ilin yan-var-avqust ayları ərzində muxtar respublikamıza xarici ölkələrdən ümumilikdə 166 min 42 nəfər turist gəlmişdir ki, bu da 1995-ci illə müqayisədə 4,3 dəfə çoxdur. Muxtar respublikaya turist qismində gələnlərin sayının artımı ilk növbədə iqtisadi fəallığın daha da güclənməsinə müsbət təsir göstərmişdir.

BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN

Ötən 15 il ərzində 33 idman obyekti istifadəyə verilib

Müasir dövrdə bədən tərbiyəsi və idmanın inkişafı, hər bir dövlətdə insanların sağlamlığı və mənəvi yüksəlişi ilə yanaşı, milli potensialın maksimum dərəcədə səmərəli reallaşdırılması, cəmiyyətin saflaşması və yetkinləşməsi, genefondun qorunub saxlanması baxımından son dərəcə mühüm vasitə sayılır.

Muxtar respublikada əhalinin sağlam həyat tərzinin, xüsusən böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsi məqsədilə bədən tərbiyəsi və idman sahəsi həmişə diqqət mərkəzində saxlanılmış və müvafiq tədbirlər həyata keçirilməkdədir. Son 15 ildə muxtar respublikada İlham Əliyev adına Olimpiya İdman Kompleksi, Naxçıvan Şəhər Üzgüçülük Mərkəzi, Şahmat Mərkəzi, Naxçıvan Muxtar Respublikası "Dinamo" İdman Cəmiyyətinin binası, Şərur şəhərində Olimpiya İdman Kompleksi, Naxçıvan Dövlət Universitetində Olimpiya İdman Korpusu, Şərur, Culfa və Şahbuz şəhərlərində Şahmat Məktəbləri, Naxçıvan, Şərur və Culfa şəhərlərində Uşaq-Gənclər İdman Məktəbləri, muxtar respublikanın şəhər və rayonlarında idman meydançaları və digər idman obyektləri istifadəyə verilmişdir. Ümumilikdə isə ötən dövr ərzində muxtar respublikada 33 idman obyekti tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

DEMOQRAFİK GÖSTƏRİCİLƏR

Son 15 ildə əhalinin sayı 69 min nəfər artmışdır

Həyata keçirilən iqtisadi islahatların səmərəliliyi, əhalinin yaşayış standartlarının davamlı yüksəlişi, güzəranının daha da yaxşılaşması, ümumilikdə insanların iqtisadi müstəqillik indekslərinin normal səviyyəsi öz növbəsində demoqrafik vəziyyətin qənaətbəxş mənzərəsini təmin etmişdir.

01 sentyabr 2010-cu il tarixə muxtar respublikada əhalinin sayı 01 yanvar 1996-cı il tarixə olan göstəriciyə nisbətən 69,1 min nəfər artaraq 406,9 min nəfərə çatmışdır. Əgər 1995-ci ilin sonuna muxtar respublikada bir kvadrat kilometrə düşən əhalinin sayı 63 nəfər təşkil edirdisə, hazırda bu göstərici 76 nəfərə çatmışdır.

Son 15 il ərzində muxtar respublikada 105,6 min nəfər uşaq doğulmuşdur ki, bu da hər gün orta hesabla 19-20 körpənin dünyaya gəlişi deməkdir.

Ötən dövr ərzində ölümün göstəricisi azalmış və əhalinin hər min nəfərinə hesabı ilə 1995-ci ildəki 6 nəfərə qarşı hazırda 5,1 nəfərə düşmüşdür.

Son 15 il ərzində muxtar respublikada 45168 nikah bağlanmışdır. Əgər 1995-ci ildə muxtar respublika üzrə bağlanmış nikahların sayı 2611-ə bərabər idisə, 2009-cu ildə bu göstərici 834 nikah artaraq 3445 nikah olmuşdur.

1995-ci ildə gənclərin sayı ümumi əhalinin 22 faizini təşkil edirdisə, hazırda bu göstərici 30,8 faizə çatmışdır. 01 sentyabr 2010-cu il tarixə muxtar respublikada gənclərin sayı 1995-ci illə müqayisədə 51 min nəfər artaraq 125,3 min nəfər təşkil etmişdir.

Muxtar respublikamızda əhali sağlamlığının və rifahının davamlı yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması

öz növbəsində 1 yaşa qədər ölən uşaqların sayı üzrə göstəricini kəskin şəkildə aşağı salmışdır. Belə ki, hər 1000 nəfər doğulana hesabı ilə 1 ya - şa qədər ölən uşaqların sayı 1995-ci ildə 20,6 nəfər olmuşdursa, 2009-cu ildə bu göstərici azalaraq 1,5 nəfər təşkil etmişdir.

1 yaşa qədər uşaq ölümü
(hər 1000 nəfər doğulana hesabı ilə)



Əhalinin rifah halının və tibbi xidmətlərin davamlı yüksəlişi ilə məntiqi bağlantısı olan mühüm bir göstərici ondan ibarətdir ki, doğuşdan sonrakı dövrün, doğuşun və hamiləliyin ağırlaşmasından zahı və hamilə qadınların ölüm halları muxtar respublikada son illər ərzində sıfır səviyyəsinə endirilmişdir.

Ana ölümü, nəfər



Muxtar respublikada reallaşdırılan səmərəli demoqrafik və sosial-iqtisadi siyasətin uğurlu nəticəsidir ki, ötən 15 il ərzində əhalinin orta ömür müddəti 4,2 il yüksələrək 74,4 ilə çatmışdır.

CİNAYƏTKARLIQ

Cinayət hadisələrinin sayı sıfır səviyyəsinə yaxınlaşır

Araşdırmalar göstərir ki, iqtisadi inkişafın yüksək templəri ilə hüquqpozmaların sayı arasında subyektiv hallar istisna olmaqla daha çox tərs mütənasiblik mövcuddur. Təcrübədə çox rast gəlinən bu tendensiyanı hazırda Naxçıvan Muxtar Respublikasının timsalında müşahidə etmək mümkündür. Gənclərin səmərəli məşğulluğunun təmin edilməsi, yüksək əməkhaqqı ödənişli yeni iş yerlərinin açılması, yeniyetmələrin təhsildən və tədrisdən yayınma hallarının aradan qaldırılması, güc strukturları və təhsil müəssisələrinin ailələrlə sıx əlaqəsi, asudə vaxtın səmərəli istifadəsinə yaradılan stimul, gənclər də daxil olmaqla müxtəlif əhali qrupları ilə individual xarakterli işin təşkili, ən başlıcası isə cari iqtisadi inkişaf səviyyəsi muxtar respublikamızda cinayətkarlıq üzrə hadisələrin minimum həddini şərtləndirməkdədir.

2010-cu ilin yanvar-avqust aylarında muxtar respublikanın ərazisində 11 cinayət hadisəsi qeydə alınmışdır ki, bu da 1995-ci illə müqayisədə 49 dəfə azalma deməkdir. Əhalinin hər 100 min nəfərinə hesabı ilə 2,7 cinayət hadisəsi (1995-ci ildə 161 hadisə) qeydə alınmışdır.

Qeydə alınmış cinayət hadisələri

Müqayisə dövrü / Göstəricilər	2010-cu ilin yanvar-avqust ayları üzrə	1995-ci il üzrə	fərq
Cinayət hadisələri	11	541	-530
Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayət hadisələri	-	25	-

SƏMƏRƏLİ İNSTİTUSİONAL DƏYİŞİKLİKLƏR ÇEVİK İDARƏETMƏNİN TƏŞKİLİNİ SÜRƏTLƏNDİRİR

Naxçıvan Muxtar Respublikasında səmərəli institusional islahatların aparılmasının, uğurlu siyasi sistemin təşəkkül tapmasının əsas mənbəyi heç şübhəsiz ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbulundan irəli gəlir. Muxtar respublikanın bu əsas qanunu muxtariyyatın hüquqi baxımdan səlahiyyətlərini dəqiqləşdirmiş, səmərəli idarəetmə strukturlarının yaradılmasının konstitusion əsaslarını yaratmışdır. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında əsas yeniliklərdən biri kimi burada Ali Vəzifəli Şəxs institutunun təsis edilməsi olmuşdur. Ötən dövrün siyasi, sosial və iqtisadi kriteriyalar üzrə təhlili göstərir ki, bu institutun təsis edilməsi muxtar respublikanın ictimai həyatında səmərəli idarəetmənin təşkilində və uğurlu iqtisadi siyasətin həyata keçirilməsində mühüm əhəmiyyət kəsb etmişdir.

Avropa Şurasının Hüquq Vasitəsilə Demikratiya Komissiyası (Venesiya Komissiyası) 13 dekabr 1997-ci il tarixdə Venesiya şəhərində keçirilən 33-cü Plenar Sessiyasında Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının layihəsi haqqında yekun rəy qəbul etmişdir. Rəydə qeyd olunur ki, Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunan və Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında təsbit olunmuş səlahiyyətlər sərbəst büdcə siyasəti, iqtisadi inkişaf, sosial müdafiə, ətraf mühitin qorunması, turizm, səhiyyə, elm və mədəniyyət məsələlərinə dair səlahiyyətlər, sərbəst vergi siyasəti və sair bütün bunlar deməyə əsas verir ki, Naxçıvan Muxtar Respublikası digər Avropa muxtariyyatları arasında daha geniş muxtariyyata malikdir. Naxçıvan

Muxtar Respublikasının Konstitusiyası bütövlükdə Naxçıvandakı muxtariyyatın idarə edilməsi qaydalarını şərtləndirən normal əsaslar yaradır və qitənin digər muxtariyyatlarının səlahiyyətlərinin və əsaslarının müəyyənləşdirilməsində model kimi çıxış edə bilər.

İnstitusional islahatların mühüm istiqamətlərindən biri idarəetmənin çevikliyini və səmərəliliyini təmin etmək məqsədilə yeni dövlət hakimiyyəti və xidmət orqanlarının təsis edilməsindən ibarətdir. Ötən dövr ərzində muxtar respublika rəhbərliyi tərəfindən bu istiqamətdə mühüm tədbirlər reallaşdırılmış, xeyli miqdarda yeni idarəetmə strukturları təsis olunmuş, səlahiyyətləri təkrarlanan və paralel funksiyalara malik orqanlar birləşdirilmiş, bir qisim dövlət hakimiyyəti orqanlarının yaradılması üçün səlahiyyətlərə uyğun olaraq ölkə rəhbərliyinə vəsatət göndərilmiş, islahatlar xeyli intensivləşdirilmişdir. Bütün bunlar isə öz növbəsində muxtar respublikada dayanıqlı və professional kadr potensialının formalaşdırılmasına əsaslı zəmin yaratmışdır.

Ötən dövr ərzində Əliabad və Qıvraq kəndlərinə qəsəbə, Şahbuz qəsəbəsinə şəhər statusu verilmiş, Heydərabad qəsəbəsi və bir yeni inzibati rayon – Kəngərli rayonu, 96 inzibati ərazi dairəsi və 300-dən artıq dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanı, dövlət mülkiyyətində olan digər idarə, müəssisə və təşkilat yaradılmışdır ki, bu da idarəetmənin əhatəli və səmərəli təşkili üçün mühüm islahatlardandır.

Ötən 15 il ərzində əldə olunan nailiyyətlər muxtar respublikamızın ictimai-iqtisadi, sosial-mədəni həyatında yeni bir quruculuq səhifəsi açmışdır. Bu inkişafa öz töhfəsini verən insanların əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları ilə 510 nəfər Azərbaycan Respublikasının orden, medal, diplom və fəxri adları ilə

təltif edilmiş, 28 nəfər Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, 43 nəfər isə Azərbaycan Respublikası Prezidentinin mükafatına layiq görülmüşdür. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanları ilə 244 nəfər Naxçıvan Muxtar Respublikasının fəxri adları ilə təltif olunmuşdur.

İctimai həyatımızın son 15 ili inkişaf və tərəqqi mərhələsi kimi doğma Naxçıvanımızın iqtisadi və siyasi tarixinin parlaq səhifəsinə çevrildi. Möhkəm qətiyyət, gərgin əmək və müdrik ideologiyaya sadiqliyin vəhdətindən doğan bu uğurlar, nailiyyətlər xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolunun alternativsizliyini bir daha sübut edir.

Dahi öndərin "**Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin**" sözləri bu gün də quruculuq işlərinin əsas qayəsi olmaqla muxtar respublikamızı yeni-yeni uğurlara doğru aparır.

Aparılan təhlillər və sosial-iqtisadi proseslərin yekunu göstərir ki, muxtar respublikamız sürətli inkişaf tempini qoruyub saxlamaq üçün bütün potensial imkanlarını səfərbər edir, daha uğurlu nəticələrə və yeni-yeni nailiyyətlərə doğru inamla irəliləyir. Bütün bunlar isə günbəgün yeniləşən, ictimai tərəqqisini sürətləndirən Naxçıvan Muxtar Respublikasının daha da parlaq gələcəyindən xəbər verməkdədir.



Naxçıvan şəhərində Heydər Əliyev Muzeyi

Naxçıvan şəhərində Heydər Əliyev Sarayı

Şərur şəhərində Heydər Parkı

Şərur şəhərində Heydər Parkı

Naxçıvan şəhərində Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında musiqili fəvvarə

Şərur rayonunda «Bahar» kinoteatrı

Naxçıvan şəhərində Xan Sarayı

Naxçıvan şəhərində Şəhidlər Xiyabanı Kompleksi

Naxçıvan şəhərində Hüseyn Cavidin məqbərəsi

Naxçıvan şəhərində Hüseyn Cavidin Ev Muzeyi



M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası

Naxçıvan Dövlət Universitetinin Elektron Kitabxanası

Naxçıvan şəhərində C.Məmmədquluzadə adına
Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi

Naxçıvan Dövlət Xalça Muzeyi

Kəngərli rayonunun Şahtaxtı kəndində Şahtaxtinskilər Muzeyi

Babək rayonunun Nehrəm kəndində
Cəlil Məmmədquluzadənin Xatirə Muzeyi

Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi

Ordubad şəhərində M.S.Ordubadinin Ev Muzeyi

Ordubad şəhərində akademik Yusif Məmmədəliyevin Ev Muzeyi

Naxçıvan şəhərində Xatirə Muzeyi

Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi

Naxçıvan şəhərində «Ana dili» abidəsi

Ordubad şəhərində Mədəniyyət və Turizm Şöbəsi, K.Ziya adına Ordubad Xalq Teatrı, Mədəniyyət Evi

Şərur rayonunun Yuxarı Aralıq kəndində Mədəniyyət Evi, Musiqi Məktəbi və Kitabxana

Naxçıvan şəhərində M.Şahtaxtlı adına Kitab Evi

Naxçıvan şəhərində Gənclik Mərkəzi

Naxçıvan şəhərində Buzxana tarixi abidəsi

Culfa rayonunda Xanəgah Abidə Kompleksi

Şərur şəhərində məscid

Naxçıvan şəhərində «Came» məscidi

Naxçıvan şəhərində Nuh Peyğəmbərin məzarüstü türbəsi



«Əshabi-Kəhf» ziyarətgahı



Naxçıvan şəhərində İmamzadə Məscid-Türbə kompleksi

Naxçıvan şəhərində Əyləncə Mərkəzi

Naxçıvan şəhərində «Bazar gölü» istirahət kompleksi

Sədərək rayonunun Heydərabad qəsəbəsində mədəniyyət və istirahət parkı

Naxçıvan şəhərində 1206 şagird yerlik Heydər Əliyev adına məktəb

Naxçıvan şəhərində Heydər Əliyev adına Hərbi Lisey

Naxçıvan şəhərində Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi

Kəngərli rayonunun Şahtaxtı kəndində Zərifə Əliyeva adına 594 şagird yerlik orta məktəb

Naxçıvan Dövlət Universitetinin
Beynəlxalq münasibətlər və xarici dillər fakültəsi

Naxçıvan Dövlət Universitetinin Konservatoriya binası

Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsi

Naxçıvan Müəllimlər İnstitutu

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Mərkəzi Aparatı, Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat institutlarının binası

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun, Batabat Astrofizika Rəsədxanasının və Əlyazmalar Fondunun binası

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin
Batabat Astrofizika Rəsədxanasının binası



Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bioresurslar
İnstitutunun Nəbatat bağının binası və onun yenidən qurulmuş ərazisi

Naxçıvan Tibb Kolleci

Naxçıvan Musiqi Kolleci

Naxçıvan Muxtar Respublikası Kompyuter Təlim-Tədris və İnternet Mərkəzinin Şərur filialı

Naxçıvan şəhərində 1404 şagird yerlik 14 saylı orta məktəb

Şərur rayonunun Yengicə kəndində 568 şagird yerlik orta məktəb

Şərur rayonunun Maxta kəndində 540 şagird yerlik orta məktəb

Sədərək rayonunun Sədərək kəndində 594 şagird yerlik 2 saylı orta məktəb

Şahbuz şəhərində 630 şagird yerlik orta məktəb

Naxçıvan şəhərində 828 şagird yerlik 4 saylı orta məktəb

Kəngərli rayonunun Xıncab kəndində 144 şagird yerlik orta məktəb

Kəngərli rayonunun Yeni Kərki kəndində 88 şagird yerlik orta məktəb

Naxçıvan şəhərinin Əliabad qəsəbəsində 320 yerlik Uşaq Musiqi Məktəbi

Babək rayonunun Şıxmahmud kəndində Uşaq Musiqi Məktəbi

Ordubad şəhərində 315 yerlik Uşaq Musiqi Məktəbi

Kəngərli rayonunun Qıvraq qəsəbəsində Uşaq Musiqi Məktəbi

Naxçıvan şəhərində 120 yerlik 4 saylı uşaq bağçası

Culfa şəhərində 240 yerlik uşaq bağçası

Şərur şəhərində 200 yerlik uşaq bağçası

45 çarpayılıq Naxçıvan Muxtar Respublikası Diaqnostika-Müalicə Mərkəzi

100 çarpayılıq Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi

Naxçıvan şəhərində məhdud fiziki imkanlılar üçün
Naxçıvan Regional İnformasiya Mərkəzi

Şərur rayonunda 80 çarpayılıq Xəstəxana Kompleksi

62 çarpayılıq Culfa Rayon Mərkəzi Xəstəxanası

40 çarpayılıq Şahbuz Rayon Mərkəzi Xəstəxanası

26 çarpayılıq Sədərək Rayon Mərkəzi Xəstəxanası

40 çarpayılıq Kəngərli Rayon Mərkəzi Xəstəxanası

30 çarpayılıq Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzi

160 çarpayılıq Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanseri

Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri

Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi

Naxçıvan Muxtar Respublikası Duzdağ Fizioterapiya Xəstəxanası



Culfa rayonunda «Darıdağ» arsenli su müalicəxanası

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası
Mərkəzi Uşaq Xəstəxanası

14 çarpayılıq Naxçıvan Uşaq Bərpa Mərkəzi

Şərur rayonunun Aşağı Aralıq kəndində
14 çarpayılıq Kənd Sahə Xəstəxanası

Babək rayonunun Nehrəm kəndində 20 çarpayılıq xəstəxana

Culfa rayonunun Yaycı kəndində həkim ambulatoriyası

Babək rayonunun Sirab kəndində həkim ambulatoriyası

Naxçıvan şəhərində İlham Əliyev adına Olimpiya İdman Kompleksi

Şərur şəhərində Olimpiya İdman Kompleksi

Şərur şəhərində Olimpiya İdman Kompleksində Üzgüçülük Mərkəzi

Şərur şəhərində Olimpiya İdman Kompleksində Üzgüçülük Mərkəzi

Şərur şəhərində Olimpiya İdman Kompleksində futbol meydançası

Naxçıvan Şəhər Üzgüçülük Mərkəzi

Naxçıvan şəhərində Şahmat Mərkəzi

Naxçıvan Dövlət Universitetində Olimpiya İdman Korpusu

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının inzibati binası

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin və Naxçıvan Şəhər Statistika İdarəsinin inzibati binası

Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının inzibati binası

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin
Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük
Komitəsinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin və
Naxçıvan Şəhər Maliyyə Şöbəsinin inzibati binası

Azərbaycan Respublikası Mərkəzi Bankı
Naxçıvan Muxtar Respublikası İdarəsinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin və
Naxçıvan Şəhər Təhsil Şöbəsinin inzibati binası

Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının
Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Texniki binası

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin, Dövlət Yer Quruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutunun inzibati binası

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin inzibati binası

Naxçıvan Şəhər İcra Hakimiyyətinin inzibati binası

Sədərək Rayon İcra Hakimiyyətinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının, Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının, Ağsaqqallar Şurasının, Yazıçılar Birliyinin, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının, Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin inzibati binası

3 saylı Babək-Kəngərli-Naxçıvan Seçki Dairəsinin inzibati binası

Naxçıvan şəhərində «Şərq qapısı» qəzeti redaksiyası və «Əcəmi» Nəşriyyat-Poliqrafiya Birliyinin binası

Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin Arbitraj Laboratoriyası binası

Şərur Rayon Elektrik Şəbəkəsinin inzibati binası



Sədərək rayonunda rabitə evi

Culfa Rayon Maliyyə Şöbəsinin inzibati binası

Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin inzibati binası

Kəngərli Rayon Qaz İstismar Sahəsinin inzibati binası

Şahbuz Rayon Təhsil Şöbəsinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati binası

Babək Rayon Məhkəməsinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun inzibati binası

Ordubad Rayon Prokurorluğunun inzibati binası

Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik
Nazirliyinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin
Kəngərli Rayon Şöbəsinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin inzibati binası

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin
Dövlət Yol Polisi İdarəsinin inzibati binası

Babək Rayon Polis Şöbəsinin inzibati binası

Culfa Gömrük İdarəsinin binası və infrastruktur kompleksi

Kəngərli rayonunda Şahtaxtı Gömrük İdarəsinin sərhəd-keçid kompleksi

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin və Naxçıvan Şəhər Şöbəsinin inzibati binası, texnika parkı

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Ordubad Rayon Şöbəsinin inzibati binası və texnika parkı

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin Şahbuz Rayon Şöbəsinin inzibati binası və texnika parkı



Kəngərli rayonunda Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 21 saylı Xüsusi Müəssisəsinin binası

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 8 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsinin binası

Şərur Rayon Hərbi Komissarlığının inzibati binası

Sədərək rayonunun Heydərabad qəsəbəsi ərazisində
əsgər məişət-yaşayış kompleksi

Şahbuz rayonunda «N» saylı hərbi hissədə 45 mənzilli yaşayış binası

Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki hərbi şəhərcikdə yaşayış-istirahət kompleksi

Şərur rayonunun Kərimbəyli kəndi ərazisində əsgər məişət-yaşayış kompleksi və zabit ailələri üçün 8 mənzilli yaşayış binası

Kəngərli rayonunun Şahtaxtı kəndi ərazisində əsgər məişət-yaşayış kompleksi və zabit ailələri üçün 8 mənzilli yaşayış binası

Şahbuz rayonunun Şada kəndində hərbi qulluqçuların ailələri üçün 8 mənzilli yaşayış binası



Sədərək rayonunun Qaraağac kəndi ərazisində əsgər məişət-yaşayış kompleksi

«N» saylı hərbi hissədə zabit yaşayış-məişət kompleksi

Şahbuz rayonunun Şada kəndində əsgər məişət-yaşayış kompleksi

«N» saylı hərbi hissədə 100 yerlik yaşayış-məişət kompleksi

«N» saylı hərbi hissədə əsgər tədris-texniki kompleksi

«N» saylı hərbi hissədə çörək zavodu

Kəngərli Rayon Xıncab Kənd Mərkəzi

Kəngərli Rayon Qarabağlar Kənd Mərkəzi

Ordubad rayonunda Sabirkənddə Kənd Mərkəzi

Culfa Rayon Ərəfsə Kənd Mərkəzi

Şahbuz Rayon Şada Kənd Mərkəzi

Babək Rayon Aşağı Uzunoba Kənd Mərkəzi

Babək Rayon Yuxarı Uzunoba Kənd Mərkəzi

Kəngərli Rayon Qıvraq Qəsəbə Mərkəzi

Şahbuz Rayon Biçənək Kənd Mərkəzi

Sədərək Rayon Qaraağac Kənd Mərkəzi

Şərur Rayon Yuxarı Aralıq Kənd Mərkəzi

Naxçıvan şəhərində İstiqlal küçəsində yaşayış binası

Naxçıvan şəhərində Heydər Əliyev prospektində yaşayış binaları

Naxçıvan şəhərində Heydər Əliyev prospektində 20 mənzilli yaşayış binası

Naxçıvan şəhərində Sabir küçəsində yaşayış binası

Naxçıvan şəhərində Təbriz küçəsində yaşayış binası

Naxçıvan şəhərində Təbriz küçəsində yaşayış binası

Sədərək rayonunun Heydərabad qəsəbəsində yaşayış binaları

Culfa şəhərində 16 mənzilli yaşayış binası

Şərur şəhərində 26 mənzilli yaşayış binası

Şahbuz şəhərində 100 yerlik Qoca və Kimsəsizlər üçün Pansionat binası

Ordubad rayonunun Parağa kəndində qaçqın və məcburi köçkünlər üçün yaşayış evləri

Kəngərli rayonunun Çalxanqala kəndində qaçqın və məcburi köçkünlər üçün yaşayış evləri

Şahbuz rayonunun Gömür kəndində qaçqın və məcburi köçkünlər üçün yaşayış evləri

Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü uğrunda və hərbi xidmət zamanı sağlamlığını qismən itirmiş, 1941-1945-ci illər müharibəsində və Çernobıl Atom Elektrik Stansiyasında qəzanın aradan qaldırılmasında iştirak etmiş şəxslərə verilmiş yeni minik avtomobilləri

Şahbuz rayonunda Heydər Əliyev Su Anbarı

Şərur rayonunda Arpaçay Su Anbarı

Naxçıvan şəhərində "Şəhər su təchizatı və kanalizasiya" layihəsinin ofis binası

Şərur rayonunun Alışar kəndində modul tipli sutəmizləyici qurğu

Şahbuz rayonunun Şada kəndində 2,8 kilometr uzunluğunda içməli su xətti

"Naxçıvan Avtomobil Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal olunmuş ilk minik avtomobili

"Naxçıvan Avtomobil Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyəti

Naxçıvan şəhərində "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti

Naxçıvan şəhərində "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyəti

Naxçıvan şəhərində "Cahan Holdinq Kommersiya Şirkətləri İttifaqı"nın Sənaye Kompleksi

Naxçıvan şəhərində "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti

Naxçıvan şəhərində 18 min ton tutumu olan uzunmüddətli taxıl bunkerləri

Naxçıvan şəhərində "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin istehsal sahəsi

Naxçıvan şəhərində "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin Metaləritmə Zavodu

Naxçıvan şəhərində "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin Metaləritmə Zavodunda iş prosesi

"Prestij Naxçıvan Pivəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

Naxçıvan "Tikiş" Açıq Səhmdar Cəmiyyəti

Babək rayonunda "Gəmiqaya Beton Məmulatları Kompleksi"
Məhdud Məsuliyyətli Cəmiyyəti

Naxçıvan şəhərində gücü saatda 60 ton olan
Asfalt-Beton Zavodu

Şərur rayonunun Qarxun kəndində gücü saatda
60 ton olan Asfalt-Beton Zavodu

Naxçıvan şəhərində Mərkəzi Bazar

Naxçıvan şəhərində Meyvə Bazarı

Beş ulduzlu 400 yerlik Duzdağ Hoteli

Naxçıvan şəhərində Tədris-Ticarət Mərkəzi

Şərur rayonunun Yuxarı Aralıq kəndində Ticarət Mərkəzi

Babək rayonunun Yuxarı Uzunoba kəndində Məişət Evi

Naxçıvan Beynəlxalq Hava Limanı

Naxçıvan dəmiryolu sərnişin vağzalı binası

Culfa dəmiryolu sərnişin vağzalı binası

Naxçıvan şəhərində Avtovağzal Kompleksi

Şahbuz şəhərində Avtovağzal Kompleksi

2009-cu ildə gətirilmiş yeni sərnişin avtobusları

Naxçıvan-Sədərək magistral avtomobil yolu

Naxçıvan-Culfa magistral avtomobil yolu



Şahbuzkənd-Külüs avtomobil yolunda
38 paqonmetr uzunluğunda körpü

Şərur rayonunda Yuxarı Daşarx-Gümüşlü avtomobil yolu

Kəngərli rayonunda Şahtaxtı Sərhəd-Keçid Məntəqəsində
160 paqonmetr uzunluğunda körpü



22 mVt gücündə Biləv Su Elektrik Stansiyası

87 mVt gücündə Naxçıvan Modul Elektrik Stansiyası

60 mVt gücündə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası

Heydər Əliyev Su Anbarı üzərində 4,5 mVt gücündə
Su Elektrik Stansiyası

Kəngərli rayonunun Qıvraq qəsəbəsindən bir görünüş

Sədərək rayonunun Heydərabad qəsəbəsindən bir görünüş

Sədərək rayonunun Heydərabad qəsəbəsindən bir görünüş

Təltiflər

Naxçıvan şəhərindən bir görünüş

MÜNDƏRİCAT

Yeniləşən Naxçıvanın möhtəşəm hesabatı 5
Naxçıvan Dövlət Universitetinin rektoru akademik İsa Həbibbəyli
Naxçıvan Muxtar Respublikasının misilsiz inkişaf yolu 29
AMEA Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyev
Möhtəşəm quruculuğun 15 ili 89
Naxçıvan Muxtar Respublikası Dövlət Statistika
Komitəsinin sədri Bəxtiyar İsmayılov
Makroiqtisadi göstəricilər 90
Sənaye 96
Tikinti 107
Hərbi quruculuq 111
Kənd təsərrüfatı 112
Ekologiya 127
Nəqliyyat 130
Rabitə və informasiya texnologiyaları 133
Sahibkarlığın inkişafı və kredit qoyuluşları 141
Yeni iş yerləri 145
Xarici ticarət 146
İstehlak bazarı və əhalinin gəlirləri 147
Sosial sektor 150
Mədəniyyət və turizm 158
Bədən tərbiyəsi və idman 161
Demoqrafik göstəricilər 162
Cinayətkarlıq 164
Səmərəli institusional dəyişikliklər çevik idarəetmənin
təşkilini sürətləndirir 165

İntibahın 15 ili

Kompyuter tərtibatı və
dizayn:
Rafael Babayev

Yığılmağa verilmiş 11.10.2010. Çapa imzalanmış 16.10.2010.
Formatı 70X100 1/8 "Tayms" qarnituru. Ofset çap üsulu. Ofset kağızı.
Həcmi 39,00 ç.v. Sifariş № 835. Tiraj 1500 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.